Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

## H E S A B A T

**(2022-ci il üzrə)**

Bakı – 2023

Hesabatda BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını yerinə yetirən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2022-ci ildə həyata keçirdiyi fəaliyyət, irəli sürülən təklif və tövsiyələr yer almışdır.

Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi prosesində İşgəncələrin Qarşısının Alınması üzrə Komitənin, İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitə (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT), Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin (CEDAW), Uşaq Hüquqları üzrə Komitənin (CRC), Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitənin (CRPD), habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə (UPR) İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş təklif və tövsiyələri nəzərə alınmışdır.

Başçəkmələrin nəticəsi olaraq təhlillər əsasında hazırlanmış məlumatlar, statistik göstəricilər, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu hesabata əlavə edilmişdir.

**MÜNDƏRİCAT**

**Ön söz**....................................................................................................4
Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar........................................................5

**BÖLMƏ 1. MİLLİ PREVENTİV MEXANİZM MANDATININ HÜQUQİ ƏSASLARI**..............................................................................................................6
1.1. Fakültativ Protokolun tələbləri....................................................................6
1.2. Milli qanunvericilik........................................................................................7
1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri..............................................7

**BÖLMƏ 2. MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR**..........................................................................................................9
2.1 Preventiv başçəkmələrin təşkili.........................................................................9
2.1.1. Plan üzrə başçəkmələr.....................................................................................9
2.1.2. Plandankənar başçəkmələr.............................................................................9
2.2. Başçəkmələrin həyata keçirilməsi......................................................................9
2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri.............................................................11
2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri...............................17
2.2.3. Səhiyyə Nazirliyinin müəssisələri..................................................................24
2.2.4. Elm və Təhsil Nazirliyinin müəssisələri..........................................................28
2.2.5. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri........................38
2.2.6. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri............................................40
2.2.7. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin tabeliyindəki müəssisə.........................................................................................................................42
2.2.8. Dövlət Miqrasiya Xidmətinin tabeliyindəki müəssisə......................................42

**BÖLMƏ 3. HÜQUQİ TƏHLİL**..........................................................................43

**BÖLMƏ 4. HÜQUQİ MAARİFLƏNDİRMƏ**..............................................................49

**BÖLMƏ 5. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**.....52

**BÖLMƏ 6. TƏKLİF VƏ TÖVSİYƏLƏR**..................................................................55

Əlavə 1.........................................................................................................59

Əlavə 2.........................................................................................................61

## ÖN SÖZ

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolunun ratifikasiya edilməsi və Azərbaycan Respublikasında həmin protokolda nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) yaradılması dövlətin insan hüquqlarını daha yüksək səviyyədə təmin olunmasına xidmət edən beynəlxalq standartları dəstəkləmək iradəsindən irəli gəlmişdir.

Ombudsmanın Milli preventiv mexanizmin funksiyalarını həyata keçirən təsisat qismində müəyyən edilməsi ilə, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) üzərinə çox böyük məsuliyyət qoyulmuşdur. Ölkədə hüquqi dövlət quruculuğu prosesi çərçivəsində aparılan hüquqi islahatların məntiqi davamı olan bu yeni funksiyaların icrasından irəli gələn vəzifələrin yerinə yetirilməsi Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Hər il olduğu kimi Azərbaycanda Ombudsman təsisatının yaranmasının 20 illiyinin qeyd edildiyi 2022-ci ildə də Müvəkkil MPM qismində fəaliyyətinin təkmilləşdirilməsini, daha yüksək səviyyədə qurulmasını və inkişafını təmin etmişdir.

Müvəkkilin digər dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi informasiya vasitələri, eləcə də beynəlxalq təşkilatlar, xarici ölkələrin Müvəkkilləri ilə olan uğurlu əməkdaşlıq əlaqələri onun MPM qismində fəaliyyətinin də uğurunu ilk günlərdən təmin etmiş, konstruktiv dialoqların qurulması, zəruri dəstəyin, faydalı müzakirələr, treninqlər və təcrübə mübadilələrinin təşkilini mümkün etmişdir.

Müvəkkil Fakültativ Protoklolun məqsədlərinə uyğun olaraq ilin yekunları əsasında öz hesabatını hazırlayaraq təqdim edir ki, bu hesabat Azərbaycan MPM-nin 2022-ci il ərzində fəaliyyətini əhatə etməklə, görülmüş işlər, preventiv başçəkmələr və onların nəticələri, verilmiş təklif və tövsiyələr, onların icrası vəziyyəti, eləcə də MPM-in həyata keçirdiyi digər fəaliyyət istiqamətləri üzrə tədbirləri özündə əks etdirir.

İnanıram ki, hazırkı hesabat verdiyimiz təklif və tövsiyələr əsasında müxtəlif istiqamətlər üzrə fəaliyyətin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

Hesabatla əlaqədar göndəriləcək təkliflərə görə əvvəlcədən təşəkkür edirik.

**Səbinə Əliyeva**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

## MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**AİHM** – Avropa İnsan Hüquqları Məhkəməsi

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**AR** – Azərbaycan Respublikası

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**BİT**- Bakı İstintaq Təcridxanası

**CÇM** – Cəzaçəkmə müəssisəsi

**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**İHOSM** – İnzibati həbs olunanların saxlanma Mərkəzi

**İXM** – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

**İQA** – BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (SPT)

**İQAK** – Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsi (CPT)

**İQK**– BMT-nin İşgəncələrin Qarşısının Alınması Komitəsi (CAT)

**İşgəncə** – İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**İT** – İstintaq təcridxanası

**KİV** – Kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Konvensiya** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"

**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup

**MPM** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MSY** – müvəqqəti saxlama yeri

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – Rayon polis idarəsi

**RPŞ** – Rayon polis şöbəsi

**ŞRPŞ** – Şəhər rayon polis şöbəsi

## BÖLMƏ 1.

## MİLLİ PREVENTİV MEXANİZM MANDATININ HÜQUQİ ƏSASLARI

### 1.1. Fakültativ Protokolun tələbləri

2022-ci ildə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının Fakültativ Protokolunda (FP) nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) funksiyalarını yerinə yetirən təsisat kimi fəaliyyətini uğurla davam etdirmişdir.

Məlum olduğu kimi, FP-nin əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir. FP konstruktiv dialoqun vacibliyini vurğulayır və tənzimlənən münasibətlərə reaksiyaya əsaslanan münasibət deyil, preventiv – qarşısını alma münasibətinin göstərilməsini təsbit edir. FP-nin innovativliyi, həm də onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, yəni işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır (buraya BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (İQA) və MPM-lər daxildir). Beynəlxalq səviyyədə yaradılmış İQA BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqlərini aparır. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələlərə müntəzəm olaraq baxılması;
- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;
- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması əsas şərtdir.

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;
- bütün azadlıqdan məhrum etmə yerlərinə maneəsiz daxil omaq;
- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;
- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;

- İQA ilə əlaqələr qurmaq, əməkdaşlıq etmək və onunla görüşmək.

### 1.2. Milli qanunvericilik

Azərbaycan Respublikası tərəfindən FP 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.

Müvafiq qanunun dərc edilməsindən etibarən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

Ötən dövrlər ərzində Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklərlə Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında Milli Preventiv Qrupun (MPQ-nin) yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil və MPQ üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis idarələrinə, bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə (CÇM), qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır. Müvəkkilin, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ da adı çəkilən qanunda müəyyən edilmişdir.

Ötən müddət ərzində Müvəkkilin MPM qismində fəaliyyətinin effektiv təşkili məqsədilə qanunvericilik aktları təkmilləşdirilmiş, Müvəkkilin və MPQ üzvlərinin yuxarıda göstərilən səlahiyyətləri barədə müddəalar müvafiq qaydada normativ hüquqi aktlarda təsbit edilmişdir.

Müvəkkilin FP-yə uyğun olaraq MPM qismində funksiyalarının səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədilə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş, habelə İQK (CAT), İQA (SPT) İQAK-ın (CPT) təklif və tövsiyələri də nəzərə alınmışdır.

### 1.3. MPM-in fəaliyyət istiqamətləri

MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

• Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;

• Hüquqi təhlil – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;

• Hüquqi maarifləndirmə – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin, o cümlədən onlayn tədbirlərin təşkil olunması, müvafiq əyani vəsaitlərin (buklet və broşürlərin) hazırlanıb paylanılması;

• İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də və internet resurslarında işıqlandırılmasının təşkili.

## BÖLMƏ 2.

## MPM-in FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

### 2.1. Preventiv başçəkmələrin təşkili

Fakültativ Protokolun 20-ci maddəsinin "a" bəndinə əsasən, Milli Preventiv Mexanizmlərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə, iştirakçı dövlətlər Fakültativ Protokolun 4-cü maddəsinin tətbiqi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin və orada saxlanılanların sayı, yerləşdiyi yer haqqında istənilən məlumatı təqdim etməyi öhdələrinə götürürlər.

Bu məlumatlar Müvəkkilin sorğusu əsasında müvafiq dövlət orqanlarından alınır və həmin sorğular üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmış illik plana uyğun olaraq başçəkmələr həyata keçirilir. Zərurət yarandıqda, ilin sonunda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq növbəti il üçün məlumatlar yenilənir.

Preventiv başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilir və bunları plan üzrə başçəkmələr və plandankənar başçəkmələr olmaqla iki qrupa bölmək olar.

#### 2.1.1. Plan üzrə başçəkmələr

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən iclasda müzakirə olunur, nəticələr protokollaşdırılır, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Bu səbəbdən onun məxfiliyi MPQ-nin üzvləri tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla aparılır.

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisənin həcmindən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərindən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir.

#### 2.1.2. Plandankənar başçəkmələr

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin, Qaynar Xəttinə (Çağrı Mərkəzinə) daxil olmuş müraciətlərin təhlili, MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində, internetdə rast gəlinən və MPM-i maraqlandıran informasiyaların yerində yoxlanılması, habelə Müvəkkilin təşəbbüsü ilə həyata keçirilir.

### 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin olunması üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

• başçəkməyə hazırlıq;
• başçəkmənin həyata keçirilməsi;
• başçəkmədən sonrakı tədbirlər.

Başçəkməyə hazırlıq adətən iki iş gününədək davam etməklə zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

Hazırlıq zamanı, zəruri məlumatların toplanılması prosesində əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, KİV-lərdən, sosial şəbəkələrdən alınmış məlumatlar, habelə bəşçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar və beynəlxalq standartlar təhlil edilir.

Başçəkmənin məqsədləri saxlanılma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanılma şəraiti və rəftarla bağlı konkret halların öyrənilməsindən (məsələn, intizam cəzalarının həyata keçirilməsi, tibbi xidmətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından; xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən ibarət olmaqla müəyyən edilir.

Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi zamanı qrup üzvlərinin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun tərkibi formalaşdırılır, başçəkmənin məqsədindən asılı olaraq başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin protokollaşdırılması üçün blank formaları, sorğu anketləri və s. hazırlanır.

Başçəkmənin həyata keçirilməsi özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, söhbət zamanı qrup üzvləri özlərini təqdim edir, başçəkmənin məqsədi barədə onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin binalarına baxış keçirilir. Bu zaman müəssisədə saxlanma şəraiti – müəssisənin binasının, kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, ventilyasiya, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti və s. araşdırılır.

Daha sonra sənədlərə baxış keçirilir, saxlanılan şəxslərlə kollektiv və ya təkbətək, konfidensial şəkildə söhbət aparılır. Saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması əsas etibarilə başçəkmənin məqsədindən asılıdır. Vəziyyətdən asılı olaraq söhbətlərin hansı şəkildə aparılmasını MPQ üzvləri başçəkmə yerində müəyyən edə, yaxud ilkin razılaşmaya düzəliş edə bilər.

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının rəftar baxımından yanaşmalarını qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda müəssisələrin personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək nöqsanlar onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müəssisənin tabe olduğu müvafiq orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

Beynəlxalq təcrübəyə görə başçəkmədən sonrakı tədbirlər başçəkmənin bilavasitə özündən daha əhəmiyyətlidir. Çünki MPM-in fəaliyyətinin məqsədi yalnız müvafiq yerlərə başçəkmədən ibarət deyil, müxtəlif müəssisələrdə saxlanılan şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş prosesi təşkil etməkdir.

Məhz ona görə də başçəkmədən sonra onun nəticələrinə dair hesabat tərtib edilir, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin yerində yoxlanılması məqsədi ilə təkrar başçəkmə günü təyin edilir və müvafiq olaraq həyata keçirilir.

### 2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm mandatı çərçivəsində 2022-ci il ərzində Daxili İşlər Nazirliyinin tabeliyində polis idarə və şöbələrinin müvəqqəti saxlama yerlərinə, polis bölmələrinə planlı və plandankənar olmaqla 36 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr zamanı rəftar məsələləri, saxlanma şəraiti və sənədləşmə monitorinq edilmiş, bu müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının, o cümlədən işgəncə və pis rəftara məruz qalmamaq, müraciət etmək, hüquqi yardım almaq və s. hüquqlarının təmini və gələcəkdə pis rəftar hallarının baş verməsinin qarşısının alınması məqsədilə müəssisə rəhbərliyi və əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

2022-ci ildə başçəkmələr zamanı aşkar edilmiş bəzi nöqsan və çatışmazlıqlarla bağlı Daxili İşlər Nazirliyinə məktublar ünvanlanmış, toplanmış faktlar təqdim edilməklə müvafiq tədbirlərin görülməsi, göstərilən halların qarşısının alınması, habelə polis orqanlarının təlimatlandırılması və görülmüş işlərin nəticələri ilə bağlı məlumat göndərilməsi tələb olunmuşdur. Ombudsmanın ünvanına daxil olmuş cavab məktublarında aşkar edilmiş bəzi çatışmazlıqların tam aradan qaldırıldığı, müvəqqəti saxlama yerlərinin fəaliyyəinin nəzarətdə saxlanılması barədə ərazi polis orqanlarının rəhbərlərinə əlavə tapşırıqların verildiyi bildirilmişdir.

***Nəsimi Rayon Polis İdarəsinə, həmin idarənin 19-cu Polis Şöbəsi və 20-ci Polis Bölməsinə*** başçəkmələr həyata keçirilmişdir.

Rəftar məsələlərinin öyrənilməsi məqsədilə həmin vaxt İdarənin Müvəqqəti Saxlama Yerində saxlanılan 10 nəfər şəxs fərdi şəkildə qəbul edilmiş, Ombudsmana müraciətləri qəbul edilmişdir.

Nəsimi RPİ MSY-də saxlanma şəraiti ilə bağlı bəzi nöqsanlar aşkar edilmişdir. Belə ki, inzibati həbs olunan şəxslərlə təqsirləndirilən şəxslərin bir yerdə saxlanıldığı müəyyən edilmişdir ki, bu da Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarının inzibati qaydada tutulmuş və ya barəsində inzibati həbs tətbiq edilmiş şəxslərin cinayət törətməkdə şübhəli və ya təqsirləndirilən şəxslərdən ayrı saxlanılması tələbinin pozulmasıdır.

MSY-də saxlanılan şəxslərə gigiyenik vasitələr verilmədiyi, yataq dəstlərinin vaxtında dəyişdirilmədiyi müəyyən edilmişdir.

MSY-də həkim müayinəsinin düzgün təşkil edilməsi, saxlanılan şəxslərin hər biri üçün tibbi kitabçaların açılması, tibbi müayinənin keçirilməsi və tibbi yardımın göstərilməsinin qeydiyyatı kitabında zəruri qeydlərin aparılması Müvəqqəri saxlama yerlərinin daxili intizam Qaydalarının tutulmuş və ya həbs edilmiş şəxslərin 24 saat müddətində tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilməsi tələbinin yerinə yetirilməsi baxımından əhəmiyyətlidir.

Başçəkmənin gedişində saxlanılan şəxslərin qidalanma ilə bağlı milli və beynəlxalq standartların tələbləri nəzərə alınaraq, 3 dəfə keyfiyyətli qida ilə təmin edilməsi tövsiyə edilmişdir. Belə ki, Beynəlxalq standartlara əsasən, saxlanılan şəxslər kifayət qədər qidalı, keyfiyyətli olan, yaxşı hazırlanan və lazımi qaydada verilən qida ilə təmin olunmalıdır. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən, tutulmuş və ya həbs edilmiş şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş yemək və

maddi-məişət normalarına uyğun olaraq keyfiyyət baxımından müasir gigiyena tələblərinə və qida normalarına cavab verən pulsuz yeməklə gündə üç dəfə təmin edilirlər.

MSY-də və kameralarda saxlanılan şəxslərin hüquqlarının əks olunduğu lövhənin olmadığı da müşahidə edilmişdir.

Nəsimi RPİ-nin Növbətçi Hissəsində sənədləşmənin aparılmasında bəzi nöqsanların mövcudluğu, qeydiyyat işinin təkmilləşdirilməsinə ehtiyac olduğu müşahidə edilmişdir. CPT-nin Ümumi Qaydalarında qeyd olunur ki, hər bir tutulmuş şəxsin qeydə alındığı, saxlanmanın bütün aspektlərini və saxlanılan şəxslər barəsində görülən bütün tədbirləri əks etdirən əhatəli vahid qeydiyyat həmin şəxslərin əsas təminatlarını gücləndirir.

*Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsi üzrə.* Başçəkmə zamanı "Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı kitabında" qeydiyyatla bağlı bəzi boşluqların olduğu müşahidə edilmişdir.

Eyni zamanda COVID-19 testlərinin nəticələrinin gec gəlməsi səbəbindən xüsusilə inzibati qaydada saxlanılan şəxslərin müddətdən artıq olaraq şöbədə saxlanıldığı müəyyən edilmişdir.

Burada da qeydiyyatla bağlı boşluqların olduğu aşkar edilmişdir.

Başçəkmələrin yekununda müəssisələrin rəhbərliyinə aşkar edilmiş nöqsan və çatışmazlıqlarla bağlı məlumat, habelə onların aradan qaldırılması ilə bağlı təklif və tövsiyələr çatdırılmışdır.

***Sabunçu Rayon Polis İdarəsinə, həmin idarənin 12-ci Polis Şöbəsinə və 15-ci Polis Bölməsinə*** başçəkmələr həyata keçirilmişdir.

Başçəkmə zamanı idarənin Müvəqqəti Saxlama Yerində saxlanılan 15 nəfər şəxs konfidensial olaraq qəbul edilmiş, müraciətləri dinlənilmişdir.

MSY-də kameralarda saxlanılan şəxslərin hüquqlarının əks olunduğu lövhənin olmadığı müşahidə olunmuşdur.

MSY-də məhkumluğu olanlarla ilk dəfə tutulmuş şəxslərin bir yerdə saxlanıldığı müəyyən edilmişdir. Bu da "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə ziddir.

Müəssisədə bəzi qeydiyyat kitabların möhürlənmədiyi, ayrıca inzibati saxlanılan şəxslərin qeydiyyatı kitabının mövcud olmadığı müəyyən edilmişdir. Halbuki MSY-də 3 nəfər inzibati qaydada həbs olunmuş şəxsin saxlanıldığı müəyyən olunmuşdur.

Bununla belə, əvvəlki başçəkmələrdə verilən tövsiyələrə uyğun olaraq MSY-nin təmir olunduğu, ibadət otağının ayrıldığı müşahidə edilmişdir.

*Sabunçu RPİ-nin 12-ci Polis Şöbəsinə* başçəkmə zamanı müvafiq qeydiyyat kitablarına baxış keçirilərkən bir sıra nöqsanlar aşkar edilmişdir.

Məsələn, "Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı kitabında" A.S.-in 02.03.2022-ci ildə gətirilməsi barədə qeyd olsa da, həmin şəxsin özü Bakı İstintaq Təcridxanasında 11.03.2022–ci ildə MPQ üzvləri ilə görüş zamanı 01.03.2022-ci tarixdə tutulması barədə məlumat vermişdir.

*Sabunçu RPİ-nin 15-ci Polis Bölməsindəki* müvafiq qeydiyyat kitablarına baxış keçirilərkən nöqsanlar aşkar edilmişdir.

***Xəzər Rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Yerinə və həmin idarənin 1-ci, 2-ci və 3-cü polis şöbələrinə*** başçəkmələr həyata keçirilmişdir.

İdarənin müvəqqəti saxlama yerində olan 17 nəfər şəxs qəbul edilmiş, müraciətləri dinlənilmişdir.

Xəzər RPİ-nin şöbələrinə başçəkmə zamanı–"Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı kitabına" və digər sənədlərə baxış keçirilərkən bəzi nöqsanlar aşkar edilmişdir.

İdarə və tabe şöbələr üzrə tutma protokollarının qanunvericiliyin tələblərinə uyğun tərtib edilməsinə, prosessual normaların tələblərinə uyğun olaraq imzalanmasına diqqətin

artırılması zəruridir. Bütün prosessual hərəkətlərin qeydiyyatının düzgün aparılmaması, saatların dəqiq göstərilməməsi, şəxslərin 48 saatdan artıq saxlanılmasına, bununla da onların azadlıq hüququnun qanunsuz olaraq pozulmasına səbəb ola bilər.

Başçəkmələrin sonunda MSY-də və şöbələrdə saxlanma şəraitinin, rəftarın və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Xətai Rayon Polis İdarəsinə və həmin idarənin 36-cı Polis Şöbəsinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokolun və Ombudsman haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədən məqsəd saxlanılan şəxslərin saxlanma şəraitinin, rəftar məsələlərinin, onların hüquqlarının təminatı ilə əlaqədar vəziyyətin öyrənilməsindən, müvafiq sənədləşmənin, habelə daxil olmuş müraciətlərin və zənglərin araşdırılmasından ibarət olmuşdur.

Baxış zamanı MSY-də saxlanmanın müvafiq standartlara cavab verdiyi, habelə kameraların daxilində təmizliyə riayət olunduğu,həmçinin müsbət hal kimi MSY-nin gəzinti sahəsində idman alətinin yerləşdirildiyi müəyyən edilmişdir.

Bununla yanaşı, MSY-də ilk dəfə cinayət törətməkdə şübhəli bilinərək saxlanılan şəxslə əvvəllər azadlıqdan məhrum etmə yerlərində cəza çəkmiş şəxsin bir yerdə saxlanıldığı müşahidə olmuşdur. Bu isə “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 35.2.3-cü maddəsinin tələbinin pozulmasıdır.

Xətai RPİ-nin Müvəqqəti saxlama yerinə başçəkmə çərçivəsində ümumilikdə 14 saxlanılan şəxslə konfidensial görüş keçirilmişdir. Qəbul edilmiş şəxslər MSY-də saxlanma şəraitindən və rəftardan narazı olmadıqlarını bildirmişlər. MPQ üzvləri tərəfindən qəbul edilmiş və dinlənilmiş hər bir şəxsə qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, habelə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, bəzi müraciətlər isə yerində həll olunmuşdur.

MSY-də saxlanılan şəxslərin qeydiyyat kitabları, tibbi qeydiyyat jurnalları, digər müvafiq sənədləşmə araşdırılmış, saxlanma şəraitinin və sənədləşmə işinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir. Başçəkmənin sonunda idarə və bölmə rəhbərliyi ilə görüş keçirilmiş, MPQ üzvləri tərəfindən müvafiq tövsiyələr verilmişdir.

***Nizami Rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Yerinə və həmin polis idarəsinin 24-cü və 25-ci Polis şöbələrinə*** planlı başçəkmələr həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

MSY-ə başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə orada saxlanılan bütün şəxslər fərdi qaydada qəbul edilmiş, müraciətləri dinlənilmiş, onların hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmiş, bəzilərinin Ombudsmana ünvanladığı yazılı ərizələri qəbul olunmuş, bir sıra müraciətlər isə yerində araşdırılaraq təmin edilmişdir.

Qəbul zamanı MSY-də saxlanılan şəxslər burada saxlanma şəraiti və rəftarla bağlı şikayət etməmişlər.

Bununla yanaşı araşdırma nəticəsində bəzi çatışmazlıqların olduğu da müəyyən edilmişdir. Müəssisədə gəzinti yerinin üstünün tamamilə bağlı olması və orada

oturacaqların olmaması saxlanılan şəxslərin açıq havada gəzmək və münasib fiziki hərəkətlər etmək hüququnun təminatında problemlərin olduğunu göstərir.

Kameralarda hüquq və vəzifələrin əks olunduğu yazılı lövhələrin olmaması, bəzi kameraların soyuq olması və orada təbii işıqlanmanın olmaması da müşahidə edilmişdir.

Başçəkmə zamanı müəyyən edilmişdir ki, ilk dəfə tutulan şəxslərlə əvvəllər məhkumluğu olan şəxslər bir kamerada saxlanılır.

Müəssisədə sənədləşmə ilə əlaqədar bəzi nöqsanların olduğu, bəzi qeydiyyat kitablarının qaytanlanmadığı, MSY-də saxlanılan şəxslərin tibbi müayinədən keçirilməsi və tibbi yardımın göstərilməsinin qeydiyyatı kitabında qeydlərin natamam aparılması aşkar edilmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə sənədləşmənin və saxlanma şəraitinin təkmilləşdirilməsi, müraciətlərin təmini məsələsi müzakirə olunub, milli və beynəlxalq qanunvericilik əsasında əməkdaşlara ünvanlanan hüquqi maarifləndirmə işi aparılıb, müvafiq tövsiyələr verilmişdir.

**Nizami RPİ-nin 24 və 25-ci polis şöbələrində** saxlama kameralarının şəraitinin qənaətbəxş olmadığı, bəzi kameralarda işıqlanmanın zəif olduğu, istiliyin işləmədiyi, oturacaq və masanın olmadığı müşahidə edilmiş, bu barədə müəssisə rəhbərləri ilə söhbət aparılmış, çatışmazlıqların aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Səbail Rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Yerinə, 8-ci, 9-cu və 39-cu polis bölmələrinə*** başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd müəssisələrdə saxlanma şəraitinin və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Saxlanma şəraitinin və rəftarın öyrənilməsi məqsədilə MSY-də saxlanılan 5 nəfər şəxs qəbul edilmişdir. Qəbul edilən şəxslər MSY-də rəftardan və saxlanma şəraitindən şikayət etməmişlər.

MSY-nin gəzinti yerinin tələblərə uyğun gəlmədiyi, üzərinin tam bağlı olduğu, bununla da həbsdə saxlanılan şəxslərin açıq havada fiziki hərəkətlər etmək hüququ ilə bağlı beynəlxalq standartlarda əks olunmuş tələblərin yerinə yetirilmədiyi müşahidə edilmişdir. CPT qeyd edir ki, istisnasız olaraq həbsdə saxlanılan bütün şəxslərə hər gün açıq havada fiziki hərəkətlər etmək imkanı təklif edilməlidir. Standartlara cavab verməyən gəzinti yerində təbii işıqlandırmanın da zəif olduğu qeyd edilməlidir.

Kamerada məhkumluğu olan şəxslə ilk dəfə tutulmuş şəxslərin bir yerdə saxlanıldığı müəyyən edilmişdir. Bu da “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə ziddir.

***Səbail Rayon Polis İdarəsinin 9-cu Polis*** **Bölməsindəki** hər iki saxlama yerinin vəziyyətinin normal olduğu müşahidə edilmişdir.

***Səbail Rayon Polis İdarəsinin 39-cu Polis Bölməsinin*** saxlama yerində süni işıqlandırmanın mövcud olmaması problem kimi qeyd olunmalıdır.

Sənədləşmə ilə bağlı bəzi nöqsanlar aşkar edilmişdir. Belə ki, “Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı kitabına” baxış zamanı bəzi sıralarda tarix göstərilməyib və ya dəyişdirilib, bəzi sıralarda ümumiyyətlə hər-hansı qeyd olmadığı aşkar edilmişdir.

*Səbail RPİ-nin 8-ci Polis Bölməsində* bir saxlama yerində süni işıqlandırmanın təmin edilmədiyi müşahidə olmuşdur.

Polis orqanlarına gətirilən yetkinlik yaşına çatmayanların qeydiyyatı kitabında təhvil verilmə tarix və saatları ilə bağlı da bəzi problemlər aşkar edilmişdir.

Başçəkmələrin sonunda saxlanma şəraitinin, rəftarın və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Pirallahı Rayon Polis Şöbəsinə*** *başçəkmə həyata keçirilmişdir.* Başçəkmə zamanı gəzinti yerinin 1/3 hissəsinin bağlı olması ilə bağlı müvafiq tələbə riayət edilmədiyi müşahidə edilmişdir.

Müvəqqəti Saxlama yerində gigiyenik vasitələrin olmaması, anbarda şəxsi təmizlik vasitələrinin (sabun, diş fırçası), 5 saylı kamerada sabunun olmaması saxlanılan şəxslərin şəxsi gigiyenaya nəzarət etməsində, sağlamlığını mühafizə etməsində çətinliyə səbəb olur.

Həkim tərəfindən müvafiq qeydiyyat kitabının tam doldurulmadığı, şəxsin ata adları və təvəlüdünün qeyd edilmədiyi müşahidə olunmuşdur. Konfidensial görüş zamanı saxlanılan şəxs tibbi müayinədən keçirilmədiyini bildirmişdir.

Eyni zamanda ibadət yerinin layihədə nəzərdə tutulmadığı, saxlanılan şəxslərin ibadət etməsi üçün tanınma otağında şərait yaradıldığı bildirilmişdir. Həmin otağa baxış zamanı orada idman qurğusunun yerləşdirildiyi müşahidə edilmişdir.

Başçəkmənin sonunda saxlanma şəraitinin, rəftarın və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Abşeron Rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə gününə MSY-də 16 nəfər inzibati həbs olunmuş şəxs, 3 nəfər tutulmuş şəxs, 5 nəfər isə təqsirləndirilən şəxs olmaqla ümumilikdə 24 nəfərin olduğu müəyyən edilmişdir.

Başçəkmə zamanı saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən MSY-nin bütün kameralarına, gəzinti yerinə, tibb otağına baxış keçirilmiş, saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, habelə MSY-də saxlanılan bütün şəxslər qəbul edilmiş, onların müraciətləri dinlənilmiş, hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmişdir.

Rəftar məsələlərinin və saxlanma şəraitinin araşdırılması məqsədilə burada saxlanılan şəxslər qəbul edilmiş, onlarla konfidensial söhbət aparılmışdır. Onlar MSY-də olduqları müddətdə görüş və telefon danışığı hüququndan istifadə edə bilməməklərindən şikayət etmişlər.

Saxlanılan şəxslər hər gün eyni yeməklərin verildiyini və miqdarının kifayət etmədiyini bildirmişlər. Bəzi şəxslər kameraların kifayət qədər isidilmədiyindən şikayət etmişlər.

Saxlanılan şəxslərə hamamdan vaxtlı-vaxtında istifadə üçün şərait yaradılması, geyim və yataq dəstlərinin tez-tez dəyişdirilməsi, gigiyenik vasitələrlə təminat məsələlərinə diqqət artırılmalıdır.

Məlum olmuşdur ki, şəxslər müəssisəyə daxil olarkən və saxlanıldıqları dövrdə tibbi müayinədən keçməmiş, bəzilərinin təcili tibbi yardım çağırılmasına dair müraciətləri təmin edilməyib.

Müəssisənin bəzi kameralarında döşəmənin qismən və ya tam çökməsi, divarların nəmişlik səbəbindən korroziyaya uğraması, oturacaq sayının saxlanılan şəxslərin sayından az olması, bir kamerada işıqlandırmanın zəif olduğu, kameralarda hüquq və vəzifələrin əks olunduğu yazılı lövhələrin olmaması müşahidə edilmişdir.

Gəzinti yerinin 1/3 hissəsinin örtülü olmaması, orada oturacaqların yoxluğu, gün ərzində cəmi 15 dəqiqə gəzinti verilməsi də qeydə alınan çatışmazlıqlardandır.

Tibb otağı kimi ayrılmış otağın, yanaşı olaraq başqa məqsəd üçün istifadə olunduğu (videomüşahidə kameralarını izləmək üçün monitorun həmin otaqda yerləşdirilməsi, şkafda polis əməkdaşlarının geyimlərinin olması və s.), hamamda duş almaq üçün lazımi avadanlıqların, habelə isti suyun olmaması müşahidə olunmuşdur.

Başçəkmə gedişində sənədləşmə ilə bağlı bəzi pozuntular aşkar edilmişdir.

Başçəkmənin yekununda Abşeron RPİ-nin müvafiq xidmət üzrə rəhbər vəzifəli şəxsləri və MSY əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, müraciətlərin göndərilməsi, sənədləşmə, qeydiyyatla bağlı müəyyən edilmiş nöqsanların aradan qaldırılması məqsədilə tövsiyələr verilmişdir.

***Gəncə şəhər Baş Polis İdarəsinin MSY-inə*** başçəkmə zamanı telefon aparatının işləmədiyi, MSY-nin 1-ci kamerasında əvvəllər cinayət törətməyə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş AR CM-nin 177.1-ci maddəsi ilə təqsirləndirilən K.Ə. ilə ilk dəfə cinayət törətməyə görə AR CM-nin 335.3-cü maddəsi ilə təqsirləndirilən A.Ə.-nin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş "Müvəqqəti saxlama yerlərinin Daxili İntizam Qaydaları"-nın 2.31.3-bəndinin tələbinə zidd olaraq bir kamerada saxlanıldığı müəyyən olunmuşdur.

"Kameradan çıxarılmanın qeydiyyatı jurnalında" və digər jurnallarda qeydiyyatın Daxili İntizam Qaydalarının tələblərinə uyğun aparılmadığı müəyyən olunmuşdur.

***Gəncə şəhər 1-ci Polis Şöbəsinə*** həyata keçirilmiş başçəkmə zamanı növbətçi hissədə "Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı" kitablarının qanunvericiliyin tələblərinə uyğun olaraq möhürlənib qaytanlanmadığı, şöbəyə gətirilmiş bir çox şəxs barəsində görülmüş tədbirlər, habelə azad edilmə tarix və saatları barədə qeydlərin aparılmadığı müəyyən edilmişdir.

Müəyyən olunmuş faktlarla bağlı şöbə rəisi əvəzinin iştirakı ilə müvafiq akt tərtib olunmuşdur.

***Gəncə şəhər 2-ci Polis Şöbəsinə*** həyata keçirilmiş başçəkmə zamanı "Polis orqanlarına gətirilən yetkinlik yaşına çatmayanların, valideynlərin və təhrikedici şəxslərin qeydiyyatı jurnalının" və "Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı" kitablarının qaytanlanıb möhürlənmədiyi aşkar olunmuşdur.

***Ağstafa rayon Polis Şöbəsinə*** başçəkmə zamanı burada da qeydiyyatla bağlı bəzi nöqsanlar aşkar edilmişdir. Belə ki, növbətçi hissədə saxlanılan 01.01.2021-ci il tarixindən açılmış "Polis orqanlarına gətirilən yetkinlik yaşına çatmayanların, valideynlərin və təhrikedici şəxslərin qeydiyyatı jurnalının" qaytanlanıb möhürlənmədiyi, jurnallardakı qeydlərin qanunvericiliyə uyğun aparılmadığı, "Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı" kitabında təxmini seçim üzrə müşahidə edilmiş bir çox sıra saylarında gətirilmiş şəxslər barədə görülmüş tədbirlər və azad edilmənin tarixi və saatı barədə qeydlərin aparılmadığı müəyyən olunaraq müvafiq akt tərtib edilmişdir.

***Tovuz rayon Polis Şöbəsinə*** başçəkmə həyata keçirilmişdir. Tibb otağında yararlılıq müddəti keçmiş 4 qutu "Dibazol" preparatı aşkarlanmış, tibbi yardım boxçasında zəruri tibbi preparatların olmadığı, dərman saxlanc yerində üzqırxan ləvazimatının saxlanıldığı, giyiyena qaydalarına riayət olunmadığı müəyyən edilmişdir.

Kameralarda gigiyenik vasitələr-sabun, diş fırçası, diş pastası, əl dəsmalları yoxdur. Halbuki, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında "Azərbaycan Respublikasının qanununun 22-ci maddəsi həbs yerlərində tibbi-müayinə, müalicə-profilaktika, sanitariya-gigiyena tədbirləri və epidemiya əleyhinə tədbirlərin əhəmiyyətini vurğullayır və müvafiq vəzifə kimi həbs yerlərinin tabe olduğu dövlət orqanları üçün öhdəlik qismində təsbit edir.

Telefon danışıq məntəqəsi olmadığından saxlanılan şəxslərin danışıqları üçün mobil nömrədən istifadə olunur.

MPQ üzvləri tərəfindən ***Şəmkir rayon Polis Şöbəsinə*** başçəkmə həyata keçirilmişdir.

MSY-nin "Tibbi müayinənin keçirilməsi və tibbi yardımın göstərilməsinin qeydiyyatı" kitabının qaytanlanmadığı, möhürlənmədiyi, "Kameradan çıxarılmanın qeydiyyatı kitabının" mövcud olmadığı müəyyən edilmişdir. MSY-də saxlanılanların telefon

danışıqlarının təminatı üçün telefon köşkünün olmadığı və telefon danışıqlarının qeydiyyatı üçün nəzərdə tutulmuş kitabda qeydlər düzgün aparılmadığı müşahidə edilmişdir. Müstəntiqlər tərəfindən saxlanılan şəxslərin görüşə gətirilmələri zamanı çağırış tələbnaməsi tərtib olunmur. MSY kameralardındakı vəziyyətin gigiyena qaydalarına uyğun olmadığı, yataq dəstlərinin çirkli olduğu müəyyən edilmişdir.

Tutma protokolu əsasında saxlanılan S.S.-in məhkəməyə vaxtında aparılmadığı, saxlanılma müddətinin tamam olmasına baxmayaraq son dəqiqələrdə müstəntiq N.T. tərəfindən qəbul edildiyi və məhkəməyə aparılacağının bildirildiyi müəyyən edilmişdir.

MPQ üzvləri tərəfindən ***Göygöl rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı sənədləşdirmədə bir sıra nöqsanlar müəyyən edilmişdir. Belə ki, istintaq təcridxanasına göndərilmə ilə bağlı bəzi qeydlərdə müvafiq tarix və saatların olmadığı müəyyən edilmişdir.

***Yevlax rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** həyata keçirilən başçəkmə çərçivəsində MSY-nin kameralarına, tibb otağına və digər yerlərə baxış keçirilmişdir.

"Saxlanılan şəxslərin telefon danışıqlarının qeydiyyatı" kitabında müvafiq qeydlərin aparılmadığı qeyd olunmalıdır.

Başçəkmələrin sonunda müəyyən edilmiş və yerində aradan qaldırılması mümkün olan bəzi nöqsanlarla bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, müəssisə rəhbərliyi və əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

İşgəncənin və digər qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (CPT) də personalın təliminə böyük diqqət yetirir və öz tövsiyələrində qeyd edir ki, azadlıqan məhrum edilmiş və ya məhdudlaşdırımış şəxslərlə qəddar rəftara qarşı ən yaxşı zəmanət yaxşı təlim görmüş polis və ya həbsxana məmurunun mövcudluğudur.

Milli Preventiv Qrupun üzvləri tərəfindən Daxili İşlər Nazirliyinin ***İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin Müvəqqəti Saxlama Yerinə*** (MSY) əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

MPQ-nin həkim və psixoloq üzvlərinin də iştirak etdiyi başçəkmə zamanı MSY-nin kameralarına, tibb, görüş, mətbəx otaqlarına, gəzinti yerinə baxış keçirilmişdir.

MSY-nin bütün kameralarının təmir olunduğu, saxlanılan şəxslərə tibbi xidmət göstərilməsi üçün ayrılmış tibb otağının lazımi inventarlar və dərman preparatları ilə təchiz olunduğu müşahidə edilmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbərliyi və əməkdaşları ilə görüş keçirilmiş, maarifləndirici söhbət aparılmış, saxlanma şəraitinin, sənədləşmə işinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

### 2.2.2. Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində 2022-ci ildə də Ədliyyə Nazirliyi (ƏN) Penitensiar Xidmətinin müəssisələrində saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi istiqamətində preventiv başçəkmələr və tədbirlər həyata keçirilmişdir.

İl ərzində Penitensiar Xidmətin (PX) istintaq təcridxanaları və cəzaçəkmə müəssisələrinə planlı və plandankənar olmaqla 82 başçəkmə həyata keçirilmişdir. Bütün başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən keçirilmiş və MPQ üzvlərinə lazımi şərait yaradılmışdır.

Başçəkmə çərçivəsində təsadüfi seçim əsasında və ya özü, yaxud ailə üzvlərinin Ombudsmana müraciətindən sonra təqsirləndirilən şəxslərlə və məhkumlarla konfidensial

görüşlər keçirilmiş, onların saxlanma şəraiti, hüquqlarının təmini və müdafiəsi,işgəncə və pis rəftarın qarşısının alınması diqqət mərkəzində olmuşdur.

Ombudsman və MPQ üzvləri tərəfindən ***Bakı İstintaq Təcridxanasına*** əvvəlcədən xəbərdarlıq etmədən planlı və plandankənar başçəkmələr həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd saxlanılan şəxslərin saxlanma şəraitinin, rəftar məsələlərinin, habelə daxil olmuş müraciətlərin araşdırılmasından ibarət olmuşdur.

MPQ-nin ixtisasca həkim və psixoloq üzvlərinin də iştirak etdiyi başçəkmələr zamanı qəbul edilmiş şəxslər əsasən barələrində başlanmış cinayət işi üzrə istintaqın qeyri-obyektiv aparılmasından, həmçinin cinayət işi üzrə məhkəmə qərarlarından, hökmlərindən narazı qaldıqlarını bildirmiş, bəziləri isə hazırda məhkəmə icraatında olan işlərə obyektiv baxılmasını xahiş etmişlər.

Bununla yanaşı, onlar BİT-də saxlanma şəraitindən və rəftardan narazılıqlarının olmadığını qeyd etmişlər.

Qəbul edilmiş və dinlənilmiş hər bir şəxsə qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri, habelə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, bəzi müraciətlər isə yerində həll olunmuşdur.

Başçəkmələrin sonunda müəssisə rəhbərliyi ilə görüş keçirilmiş, saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

BİT-ə həyata keçirilən başçəkmələr zamanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən hərbi əməliyyatların dayandırılmasından sonra Azərbaycanın işğaldan azad olunmuş ərazisində törətdikləri ictimai təhlükəli cinayət əməllərinə görə müəyyən edilərək saxlanılan, Ermənistandan olan təqsirləndirilən şəxslər də qəbul edilmişdir.

Konfidensial şəkildə keçirilən qəbullar çərçivəsində hər bir təqsirləndirilən şəxsin telefon əlaqələri, yazışmaları, ailə üzvləri ilə təmas, kənardan məlumat əldə etmək imkanları (televiziya, nəşrlər), tibbi xidmətin çatımlı olması və digər məsələlər barədə söhbətlər aparılmış və qəbul edilmiş şəxslər heç bir şikayətlərinin olmadığını bildirilmişlər.

Hər hansı bir fərq qoyulmadan həmin şəxslərlə münasibətdə beynəlxalq hüquq normalarına riayət edildiyi, hüquqlarının, lazımi tibbi və psixoloji xidmətin təmin olunduğu müşahidə edilmişdir.

***2 saylı İstintaq Təcridxanasına*** planlı başçəkmə həyata keçirilmişdir. Gəncə şəhərində yerləşən bu müəssisənin bütün obyektlərinə, yataqxanalarına, mətbəx, görüş və gəzinti yerlərinə və cərimə təcridxanasına, tibb-sanitar hissəsinə baxış keçirilmişdir.

Təqsirləndirilən şəxslərdən bir neçəsinin cərimə təcridxanasına keçirilməsi və oradan buraxılması ilə bağlı hər hansı bir qeydiyyatın aparılmadığı müəyyən edilmişdir. Müəssisənin rəisi aşkar edilmiş bu nöqsanı etiraf etmiş və müəyyən edilmiş pozuntu yerində aradan qaldırılmışdır.

Müəssisənin kameralarında şəxslərin saxlanılması üçün şərait və sıxlıq əsas problem olaraq qalmaqdadır. Müəssisədə həyata keçirilən bütün başçəkmələrdə sıxlıq problemi müəyyən edilmişdir. Bu isə, həmin müəssisədə saxlanılan şəxslərlə rəftar, onların sağlamlığı, təhlükəsizliyi sahəsində əlavə problemlərin yaranmasına səbəb olur.

Müəssisədə saxlanma şəraiti normalara uyğun deyildir, əksər hissələrdə rütubət və aşınmalar mövcuddur. Kameralarda su krantlarının nasaz, sanitar qovşaqların yararsız olduğu, nasazlıqdan qaynaqlanan daimi su itkisi kimi problemlər də müşahidə edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş İstintaq təcridxanalarının daxili intizam Qaydalarının 3.2-ci bəndinin tələblərinə baxmayaraq kameraların döşəmələrinin taxta və yaxud metlax ilə deyil, beton örtüklə örtülü olduğu müşahidə olunmuşdur.

Havaların isti keçməsinə baxmayaraq, təcridxananın yaşayış korpuslarında havalandırma ilə bağlı tədbirlərin yetərsiz olduğu, sıxlıq olan otaqların bəzilərində nəfəsliklərin daim bağlı, digərlərinin isə açıq olduğu müşahidə edilmişdir. Bu hal isə ayrı-seçkilik kimi qiymətləndirilməklə saxlanma şəraitinin də yetərsiz olduğuna dəlalət edir. Çarpayı və yataq dəstlərinin vəziyyəti də qənaətbəxş olmamışdır.

Təqsirləndirilən şəxslərlə konfidensial söhbət zamanı onlar bəzi ərzaqların (kartof, soğan, şəkər tozu) sovqatla birlikdə təcridxanaya buraxılmadığını, bu səbəbdən onları müəssisənin köşkündən baha qiymətə aldıqlarını, verilən çörəyin keyfiyyətsiz olduğunu, buna görə də yeyilmədiyini bildirmişlər.

Başçəkmə zamanı bir nəfər yetkinlik yaşına çatmayan şəxsin böyüklərlə birgə saxlanıldığı məlum olmuşdur. Qanunvericilik yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərin yetkin yaşlılardan ayrı saxlanılmasını tələb edir. Demək olar ki, müəssisəyə keçirilən əvvəlki başçəkmələr zamanı bu hala rast gəlinib. Yetkinlik yaşına çatmayan şəxsin digərləri ilə birgə saxlanılmasına dair müəssisə rəhbərliyinin mülahizəsi öyrənildikdə, həmin şəxsin tək olduğu, zərərli təsirlərdən qorunması üçün belə addım atıldığı bildirilmişdir. MPQ üzvlərinin araşdırması nəticəsində məlum olmuşdur ki, yetkinlik yaşına çatmayan şəxsin saxlanıldığı kameradakı digər şəxslər əvvəllər məhkumluğu olan, ya da ağır cinayətdə təqsirləndirilən şəxslərdir. Bu isə, təcridxana rəhbərliyinin yetkinlik yaşına çatmayan şəxsin təhlükəsizliyi ilə bağlı mülahizəsinin əsassız olduğunu göstərir.

Bundan başqa, təcridxanada ilk dəfə cinayət törətməkdə təqsirləndirilən şəxslərlə əvvəllər məhkumluğu olan şəxslərin birlikdə saxlanıldığı da müşahidə edilmişdir. İstər yerli, istərsə də beynəlxalq normalar belə şəxslərin ayrı saxlanılmalısını tələb edir.

Bu İT-in Tibb-sanitar hissədə (TSH) başçəkmə zamanı müşahidə olunmuşdur ki, saxlanılma ilə bağlı bəzi şəxslərə imtiyazlı şərait yaradılır. Burada qeydiyyatda olan şəxslərlə faktiki saxlanılan şəxslərin sayı üst-üstə düşmür.

TSH-də dolablarda istifadəyə yaralılıq müddəti bitmiş dərman preparatları da aşkar edilmişdir.

Həkim otaqlarında antisanitariya şəraiti müşahidə edilmişdir. Həkim-stomatoloqun otağında ən zəruri preparatların (şok əleyhinə vasitələr və s.) belə olmadığı, göstərilən tibbi xidmətdən sonra gigiyenik qaydalara riayət olunmadığı, istifadə olunmuş birdəfəlik şprislərin ortalıqda olduğu, qablaşdırılmadığı müşahidə edilmişdir.

TSH-də mövcud olan tibbi qeydiyyat jurnallarının yazılmadığı, xəstəlik tarixçələrinin boş olduğu, şəxsi işlərdə son 6 ay ərzində hər hansı qeydin aparılmadığı, bəzi hallarda sadəcə COVID-19 əleyhinə peyvənd olunma ilə bağlı qeydin olduğu müəyyən edilmişdir.

Problemlər arasında PX-nin Müalicə Müəssisəsinə göndərilməyə maneələrin yaradılması, bəzi hallarda isə müayinə və müalicə məsələlərində operativliyin olmamasının fəsadlar verdiyi, yemək qəbulundan imtina edən (aclıq edən), cərimə təcridxanasına keçirilmiş, xüsusi vasitə tətbiq olunmuş məhbuslara münasibətdə müstəqil yanaşmaların olmamasının əlavə problemlərin yaranmasına səbəb olduğu müşahidə edilmişdir.

CPT tövsiyələrində də qeyd olunduğu kimi, “saxlanılan şəxslər saxlama rejimindən asılı olmayaraq istənilən vaxt həkimə müraciət etmək imkanına malik olmalıdırlar. Tibbi xidmət elə təşkil edilməlidir ki, həkimlə məsləhətləşmək, konfidensial qəbul barədə xahişlər lüzumsuz yubanmalar olmadan yerinə yetirilsin” (CPT-nin 2-ci Ümumi Hesabatı, CPT/INF(92)3).

İstər Ombudsmanın, istərsə də CPT-nin müəssisə ilə bağlı əvvəllər verilmiş tövsiyələrinin icra edilməsi məsələsi aktuallığını saxlayır. Olduqca köhnə binada yerləşən 2 saylı İstintaq Təcridxanasının yeni binaya köçürülməsi üçün uzun müddətdir davam edən tikinti işlərinin sürətləndirilməsini vacib hesab edirik.

MPQ üzvləri tərəfindən ***Penitensiar Xidmətin 1 saylı Cəzaçəkmə Müəssisəsinə*** (ciddi rejimli) əvvəlcədən xəbərdarlıq edilmədən keçirilən başçəkmə zamanı müəssisənin

bir çox obyektlərinə, o cümlədən cərimə təcridxanasına, Tibb-sanitar hissəsinə baxış keçirilmiş, 18 məhkum qəbul edilmişdir.

Ümumi tutumu 1200 nəfərdən ibarət olan müəssisənin rəisi məlumat verərək burada 935 məhkumun saxlanıldığını, cərimə təcridxanasında 14 məhkumun yerləşdirildiyini qeyd etmişdir.

MPQ üzvləri tərəfindən cərimə təcridxanasına baxış zamanı məhkum A.N.-in heç bir qərar olmadan orada saxlanıldığı müəyyən olunmuşdur. Müəssisə rəisi həmin şəxsin CT-yə başçəkmə günü keçirildiyini, barəsində araşdırma aparıldığını, yekun qərarın qəbul edilmədiyini bildirmişdir.

Burada yerləşən kameraların bəzilərində yataq dəstlərinin çirkli olduğu, oturacaqların sayının saxlanılan məhkumların sayından az olduğu, bəzi kameraların döşəməsində uçuq yerlərin olduğu, ümumilikdə cərimə təcridxanasının təmirə ehtiyacın mövcud olduğu müşahidə edilmişdir.

Rəftar məsələlərinin araşdırılması və Ombudsmanın ünvanına daxil olmuş müraciətlərlə bağlı cəzaçəkmə müəssisəsindəki bəzi məhkumlarla konfidensial görüş keçirilmişdir. Verilmiş məlumatlarda bəzi hallarda məhkumların ailə üzvləri ilə görüşlərinə maneə yaradıldığı, məhkumların CT-yə keçilməsi barədə qəbul edilmiş qərarların onlara elan olunmadığı bildirilmişdir.

Hər bir məhkuma qanunvericiliyin tələbləri, o cümlədən Ombudsmanın səlahiyyətləri izah edilmiş, habelə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, bəzi müraciətlər yerində təmin edilmişdir.

Müəssisənin tibb-sanitar hissəsində saxlanılan P.A. konfidensial qaydada qəbul edilmişdir. Qida qəbulundan imtina etməsi səbəbi ilə ona ayrıca palata ayrıldığı və gündəlik həkim nəzarətində olduğu müşahidə edilmişdir. Onunla söhbət zamanı qida qəbulundan imtina səbəbi kimi barəsində olan cinayət işi üzrə birinci və apellyasiya instansiyaları üzrə məhkəmə qərarlarından narazılığını bildirmiş, habelə Ali Məhkəmənin icraatında olan işinə ədalətli baxılmasına nail olmaq istəyini qeyd etmişdir.

Başçəkmənin sonunda müəssisə rəisi ilə yekun görüş keçirilmiş, aparılmış müşahidələrin, o cümlədən qəbul edilmiş məhkumların fikirləri diqqətə çatdırılmış və nöqsanların aradan qaldırılması, saxlanma şəraitinin və rəftarın təkmilləşdirilməsi, habelə P.A.-nın səhhətinin nəzarətdə saxlanılması, gündəlik həkim nəzarətinin davam etdirilməsi ilə bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

***Penitensiar Xidmətin qadınlar üçün 4 saylı cəzaçəkmə müəssisəsinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokol və Ombudsman haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə əsas məqsəd əlilliyi olan məhkumların, o cümlədən müəssisədə saxlanılan məhkum qadınların üç yaşına çatmayan uşaqlarının hüquqlarının təmini vəziyyətinin öyrənilməsi, müəssisədə saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması olmuşdur.

Başçəkmə çərçivəsində məhkumlarla, o cümlədən əlilliyi olan məhkumlarla, uşaqlarla, müəssisə əməkdaşları ilə görüş keçirilmiş, müəssisənin cərimə təcridxanasına, şirniyyat sexinə, ana və uşaq otağına baxış keçirilmişdir.

Saxlanma limiti 350 olan müəssisədə başçəkmə tarixində 19 nəfər əlilliyi olan şəxs olmaqla 414 nəfərin cəza çəkdiyi, 3 uşağın anaları ilə birlikdə qaldığı bildirilmişdir.

Başçəkmə zamanı 19-u əlilliyi olan şəxs olmaqla 27 nəfər məhkum qəbul edilmiş, müraciətləri dinlənilmiş, müvafiq qanunvericiliyin tələbləri izah olunmuş, ərizələri qəbul edilmişdir. Məhkumların əsas müraciəti onlara əlilliyə görə verilən müavinətlərin dayandırılması və dərman təminatında olan problemlərlə bağlı olmuşdur.

Başçəkmənin yekununda müəssisəsinin rəisi ilə görüş keçirilmiş, müəyyən olunan problemlər və onların həll yolları müzakirə olunmuş, bəzi tövsiyələr verilmişdir. Müəssisə rəisi əlilliyi olan şəxslərin hüquqlarının təmini istiqamətində tədbirlərin görüləcəyini, uşaq

bezlərinin və digər gigiyenik vasitələrinin verilməsi ilə bağlı cari ildə qanunvericilikdə müvafiq dəyişikliklərin gözlənildiyini və məsələnin həllini tapacağını bildirmiş, ana-uşaq otağında temperaturun aşağı olmasını müəssisənin təmirə ehtiyacının olması ilə əlaqələndirərək, müəssisənin qısa zamanda yeni binaya köçürüləciyini qeyd etmişdir.

Təqdirəlayiq haldır ki, 4 saylı cəzaçəkmə müəssisəsi 2022-ci ilin mart-aprel aylarında yeni tikilib istifadəyə verilmiş binaya köçürülmüşdür. Ombudsman Bakıda inşa olunan bu müəssisənin ictimaiyyətə təqdimatında iştirak etmişdir. Qeyd etmək lazımdır ki, müəssisədəki şərait Avropa Penitensiar Qaydaları və digər beynəlxalq aktlarda nəzərdə tutulmuş müasir standartlara cavab verir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Penitensiar Xidmətin 11 saylı Cəzaçəkmə Müəssisəsinə*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd məhkumların saxlanma şəraitinin, rəftar məsələlərinin,onların hüquqlarının təminatı ilə əlaqədar vəziyyətin öyrənilməsindən, MPQ üzvləri tərəfindən həyata keçirilmiş əvvəlki başçəkmədə verilən tövsiyələrin icrasının yoxlanılmasından, habelə daxil olmuş müraciətlərin araşdırılmasından ibarət olmuşdur.

Başçəkmələr çərçivəsində müəssisənin bir sıra obyektlərinə, o cümlədən cərimə təcridxanasına, Tibb-sanitar hissəsinə baxış keçirilmiş, məhkumlar qəbul edilmişdir.

MPQ üzvləri tərəfindən cərimə təcridxanasına baxış zamanı əvvəlki başçəkmədə CT ilə bağlı verilmiş tövsiyələrin icra olunduğu (bütün kameralarda sanitar qovşaqların qapılarının və yuyucu hövzənin quraşdırılması, habelə kamera divarlarının kosmetik təmir edilərək rənglənməsi) müşahidə edilmişdir.

Daha sonra müəssisədə saxlanılan bəzi məhkumlarla konfidensial şəkildə görüş keçirilmişdir.

Məhkum A.S. ilə görüş zamanı o, MPQ üzvlərinin ötən başçəkməsindən sonra müəssisənin mətbəxinin təmir olunaraq istifadəyə verildiyini söyləmiş, buna və məhkumlara ümumi diqqətinə görə Ombudsmana təşəkkürünü bildirmişdir.

Qəbul edilmiş digər məhkumlar da MPQ üzvləri tərəfindən dinlənilmiş, hər bir məhkuma qanunvericiliyin tələbləri, o cümlədən Ombudsmanın səlahiyyətləri izah edilmiş, habelə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, bəzilərinin ərizələri qəbul edilmişdir.

Yekunda müəssisə rəisi ilə yekun görüş keçirilmiş, başçəkmə gedişində, o cümlədən qəbul edilmiş məhkumların fikirləri əsasında müəyyən edilmiş nöqsanların aradan qaldırılması, saxlanma şəraitinin və rəftarın təkmilləşdirilməsi istiqamətində qanunamüvafiq tapşırıqlar verilmişdir. Müəssisə rəisi qeyd edilən məsələlərin ciddi araşdırılacağına, qeyd edilən problemlərin və nöqsanların aradan qaldırılacağına söz vermişdir.

Bəzi məhkumların təhlükəsizlik səbəbindən uzun müddət CT-də saxlanıldığı, ümumilikdə isə burada saxlanılan məhkumlara təyin olunan tənbeh tədbirinin uzun müddətli, eyni zamanda həbsxana rejiminə keçirilən məhkumların sayının çox olduğu müşahidə edilmişdir.

Saxlanma şəraitinin və rəftarın öyrənilməsi məqsədilə bəzi məhkumlarla konfidensial görüş keçirilmiş, onlar aidiyyəti qurumlara ünvanladıqları ərizələrinin göndərilməsində, lazımi tibbi xidmətin göstərilməsində, həkim-psixiatr tərəfindən təyin olunmuş bir sıra dərman preparatlarının əldə olunmasında çətinliklərin yaradıldığını bildirmişlər.

11 saylı cəzaçəkmə müəssisəsinə həyata keçirilən başçəkmənin yekunlarına dair Penitensiar Xidmətin rəhbərliyinə məktub ünvanlanmışdır.

MPQ üzvləri tərəfindən ***Penitensiar Xidmətin 9 saylı Cəzaçəkmə Müəssisəsinə*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd məhkumların saxlanma şəraitinin, rəftar məsələlərinin, onların hüquqlarının təminatı ilə əlaqədar vəziyyətin öyrənilməsindən, habelə daxil olmuş müraciətlərin araşdırılmasından ibarət olmuşdur.

Başçəkmə zamanı müəssisənin rəisi müəssisə haqqında ümumi məlumat vermişdir. Ümumi tutumu 350 nəfərdən ibarət olan müəssisədə 280 məhkumun saxlanıldığını qeyd etmişdir.

Müəssisənin cərimə təcridxanasına baxış zamanı orada saxlanılan şəxsin olmadığı məlum olmuşdur. MPQ üzvlərinin tapşırığına əsasən müəssisəyə başçəkmə ərzində CT-nin bütün kameralarındakı sanitar qovşaqlarında qapılar quraşdırılmışdır.

Daha sonra CÇM-in bir sıra obyektlərinə, o cümlədən Tibb-sanitar hissəsinə, karantin otağına, yeməkxanaya, məhkumların asudə vaxtlarını keçirdiyi otaqlara və digər yerlərə baxış keçirilmiş, ümumilikdə 25 məhkum qəbul edilmişdir.

Belə ki, Tibb-sanitar hissəsində saxlanılan dərmanlara baxış zamanı bir sıra dərmanların istifadəyə yararlılıq müddətinin keçdiyi, şok əleyhinə çantanın olmadığı aşkar edilmişdir.

Eyni zamanda, təsadüfi seçim əsasında iki məhkumun tibbi kitabçalarına baxış zamanı uzun müddət ərzində onlar barəsində heç bir qeydlərin aparılmadığı müəyyən edilmişdir.

Müəssisənin yeməkxanasında olan həftəlik menyunun uzun müddət dəyişdirilmədiyini, mütəmadi olaraq eyni növdən olan qidanın verildiyi müəyyən edilmiş və menyuda çeşidin artırılması tövsiyə edilmişdir.

Qəbul edilmiş məhkumlara MPQ üzvləri tərəfindən hüquqları, qanunvericiliyin tələbləri, o cümlədən Ombudsmanın səlahiyyətləri izah olunmuşdur.

Milli Preventiv Qrupun üzvləri tərəfindən ***Penitensiar Xidmətin Müalicə Müəssisəsinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokol və Ombudsman haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə əsas məqsəd əlilliyi olan məhkumların, o cümlədən yetkinlik yaşına çatmayan məhkumların hüquqlarının təmini vəziyyətinin araşdırılması olmuşdur.

İlk olaraq Müəssisənin rəisi və baş həkimi ilə görüş keçirilmiş, əlilliyi olan şəxslər və mövcud problemlər haqqında məlumat əldə edilmişdir. Başçəkmə tarixində müəssisədə 529 məhkumun qaldığı bildirilmişdir. Onların 14 nəfəri qadın, 39 nəfəri əlilliyi olan şəxs, 2 nəfəri yetkinlik yaşına çatmayan şəxslərdir. Müəssisənin baş həkimi əlilliyi olan şəxslərlə bağlı əsas problemin onların əlilliyə görə pensiya və müavinətlərin dayandırılması, habelə əlilliyin yenidən qiymətləndirilməsi ilə bağlı olduğunu bildirmişdir.

Başçəkmə zamanı 27 nəfər məhkum, o cümlədən 23 əlilliyi olan şəxs, 2 yetkinlik yaşına çatmayan şəxs və bir məhkumun valideyni qəbul edilib, müraciətləri dinlənilib, müvafiq qanunvericiliyin tələbləri və Ombudsmanın səlahiyyətləri izah edilib, ərizələri qəbul olunub. Qəbul zamanı məhkumlar müəssisədə saxlanma şəraiti və rəftar ilə bağlı şikayətlərinin olmadığını bildiriliblər. Onların əsas müraciəti əlilliyə görə verilən müavinətlərin dayandırılması, müalicələrinin effektiv aparılmaması və dərman təminatında olan problemlərlə bağlı olub.

Başçəkmənin yekununda müəssisəsinin rəisi ilə görüş keçirilmiş, müəyyən olunan problemlər və onların həll yolları müzakirə olunmuş, əlilliyi olan şəxslərin hüquqlarının, xüsusən də sağlamlıq hüququnun təmin edilməsinə diqqətin artırılması məqsədilə tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Penitensiar Xidmətin Həbsxanasına*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd məhkumların, o cümlədən ömürlük məhkumların saxlanma şəraitinin, rəftar məsələlərinin öyrənilməsi, daxil olmuş müraciətlərin araşdırılması,

məhkumların, o cümlədən əlilliyi olan şəxslərin hüquqlarının təminatı vəziyyətinin öyrənilməsindən ibarət olmuşdur. Qeyd olunanlar əsas götürülərək, başçəkmə çərçivəsində ümumilikdə 33 məhkumla fərdi şəkildə görüş keçirilmişdir.

İlk olaraq müəssisənin rəisi ilə görüş keçirilib, müəssisə haqqında ümumi məlumatlar öyrənilib. O, Həbsxanada ümumilikdə 539 nəfərin saxlanıldığını, onlardan 261 məhkumun ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkdiyini, 1 məhkumun cərimə təcridxanasında, 14 nəfərin isə karantinə alındığını bildirib. Müəssisə rəisi saxlanma şəraitinin təkmilləşdirilməsi istiqamətində bir sıra işlərin görüldüyünü, tibbi-sanitar hissənin əsaslı təmir, cərimə təcridxanasının isə kosmetik təmir edildiyini və ilin sonunadək müəssisənin yeni binaya köçürüləcəyini qeyd etmişdir. Həbsxanada 1 psixoloqun fəaliyyət göstərdiyi, lakin müəssisədə islah işlərinin ümumiyyətlə aparılmadığı məlum olmuşdur.

Daha sonra müəssisədə saxlanılan məhkumlarla konfidensial şəkildə görüş keçirilmişdir. Məhkumlardan V.E.[1] ilə keçirilən görüş zamanı o, tibbi müayinədən keçdiyini, gündə 3 dəfə olmaqla qida ilə təmin olunduğunu, ailə üzvləri ilə telefon vasitəsilə əlaqə saxladığını, öz dilində kitablar ilə təmin olunduğunu, şikayətinin olmadığını qeyd etmişdir. Daha sonra MPQ üzvləri tərəfindən onun saxlanıldığı kameraya baxış keçirilmiş və orada lazımi şəraitin yaradıldığı müşahidə edilmişdir.

Başçəkmə zamanı 19 nəfərin yazılı ərizəsi (müraciətlər əsasən sağlamlıq hüququ, əfv, ekstradisiya ilə bağlı olub) qəbul edilmiş, hər bir məhkuma qanunvericiliyin tələbləri, o cümlədən Ombudsmanın səlahiyyətləri izah edilmiş, habelə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

Başçəkmənin sonunda müəssisə rəisi ilə yekun görüş keçirilmiş, nöqsanların aradan qaldırılması, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

***Penitensiar Xidmətin 17 saylı Cəzaçəkmə Müəssisəsinə*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmənin məqsədi saxlanılan şəxslərin saxlanma şəraitinin, rəftar məsələlərinin, habelə daxil olmuş müraciətlərin və zənglərin araşdırılmasından, məhkumların hüquqlarının təminatı ilə bağlı vəziyyətin öyrənilməsindən ibarət olmuşdur. Qeyd olunanlar əsas götürülərək, başçəkmə çərçivəsində 40 məhkumla konfidensial görüş keçirilmişdir.

Aşkar edilmiş nöqsanlar da müəssisə rəhbərliyinin diqqətinə çatdırılmış, bəzi nöqsanlar yerində aradan qaldırılmışdır. Ümumilikdə 17 saylı Cəzaçəkmə Müəssisəsində təmir işlərinin aparılacağı qeyd edilmişdir.

Sənədləşdirmə ilə bağlı vəziyyət araşdırılmış və yeni rəis bu müəssisənin əvvəlki rəhbərliyi tərəfindən sənədləşmənin aparılmasında nöqsanlara yol verildiyini qeyd edərək, yenidən tam qaydalara uyğun aparılmasını bildirmişdir.

Daha sonra müəssisədə saxlanılan bir neçə məhkumla konfidensial şəkildə görüş keçirilmişdir.

Bir məhkum səhhəti ilə bağlı ona müəssisənin həkimi tərəfindən müvafiq dərmanların verilmədiyini bildirmiş, məsələnin həllində köməklik göstərilməsini xahiş etmişdir. Bununla bağlı məhkumun da iştirakı ilə müəssisəsinin baş həkimi ilə söhbət aparılmış və məsələnin həlli üzrə müvafiq tövsiyələr verilmişdir.

Digər məhkumlar saxlanma şəraitindən və onlarla rəftardan narazılıqlarını bildirməmiş, bir xarici vətəndaşlığı olan məhkum cəzasının qalan hissəsini ölkəsində çəkməsində köməklik göstərilməsini xahiş etmişdir.

Qəbul edilmiş və dinlənilmiş hər bir məhkuma qanunvericiliyin tələbləri, o cümlədən Ombudsmanın səlahiyyətləri izah edilmiş, habelə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

---

[1] Ermənistan və Livan olmaqla ikili vətəndaşlığı var, AR CM 114-cü, 214-cü və digər maddələri ilə təqsirli bilinib, 20 il müddətinə azadlıqdan məhrum edilib.

Başçəkmənin sonunda müəssisə rəisi ilə yekun görüş keçirilmiş, aparılmış müşahidələrin, o cümlədən qəbul edilmiş məhkumların fikirləri diqqətə çatdırılmış və nöqsanların aradan qaldırılması, saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 12 saylı Cəzaçəkmə Müəssisəinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmənin əvvəlində müəssisənin rəisi ilə görüş keçirilmişdir. Məlumat verilmişdir ki, saxlama limiti 1200 olan müəssisədə başçəkmə günü 941 o cümlədən Cərimə Təcridxanasında 9, Tibb-Sanitar Hissədə 11, karantində 14 məhkum saxlanılır.

Rəis müəssisədə mütəmadi təmir işlərinin aparıldığını, ibadət otağının yeni təmir edildiyini bildirmişdir. Cəzaçəkmə müəssisəsində çörəkbişirmə sexinin fəaliyyət göstərdiyini qeyd etmişdir.

Başçəkmə zamanı 30-a qədər məhkum konfidensial qaydada qəbul edilmişdir. Saxlanma şəraiti, rəftar məsələləri, sağlamlıq, qidalanma, telefon danışığı, görüş və digər hüquqlarının təmin olunması vəziyyəti ilə bağlı qəbul edilən şəxslər arasında sorğu aparılmış, fərdi və konfidensial qəbul zamanı saxlanılan şəxslərə hüquqları, Ombudsmanın səlahiyyətləri və müvafiq qanunvericiliyin tələbləri izah olunmuşdur.

Eyni zamanda Müvəkkilə ünvanlanmış yazılı müraciətlər qəbul edilmişdir.

Cərimə təcridxanasına baxış zamanı orada təmir işlərinin aparılmasına ehtiyac olduğu, kameralarda hüquq və vəzifələrin əks olunduğu lövhələrin vurulmadığı müşahidə olunmuşdur.

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə saxlama şəraiti və rəftar məsələlərinin təkmilləşdirilməsinə dair tövsiyələr verilmişdir.

### 2.2.3. Səhiyyə Nazirliyinin müəssisələri

Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində 2022-ci il ərzində Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən Səhiyyə Nazirliyinin müəssisələrinə 12 başçəkmə həyata keçirilmişdir.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd saxlanılan pasiyentlərlə rəftar, saxlanma şəraiti, tibbi yardımın təşkili vəziyyəti, saxlanmanın qanuniliyini təsdiq edən sənədlərin və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin araşdırılması olmuşdur.

***1 saylı Respublika Psixiatriya Xəstəxanasına*** başçəkmə çərçivəsində əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti yoxlanılmış, Adi rejimli məcburi müalicə (ARMM) şöbəsində kosmetik təmir işlərinin aparıldığı, aptekdə psixotrop dərmanların saxlanıldığı otağın xüsusi əlavə dəmir qapı ilə təmin olunduğu müşahidə edilmişdir.

Bununla belə, müəssisənin ARMM şöbəsində aparılan təmir işlərinin yetərsiz olduğu və binanın əsaslı təmirə ehtiyacının olduğu, sanitar qovşaqlarda sanitar-gigiyenik normaların pozulduğu müəyyən edilmişdir. Həmin şöbədə kamera tipli otaqların bir neçəsində televizor və kondisioner olduğu halda, digər otaqlarda mövcud olmadığı, birnəfərlik kameraların yaradıldığı və orada imtiyazlı şəraitin olduğu, bəzilərində müşahidə kameralarının əks istiqamətə, tavana yönəldilmiş olduğu müşahidə edilmişdir. Başçəkmə zamanı məsul əməkdaşların bu otaqların istifadəsinə dair yanlış məlumat verdiyi aşkar edilmişdir. Belə ki, otaqlara baxış keçirməzdən əvvəl Gücləndirilmiş və Ciddi Müşahidə Altında Məcburi Müalicə (GCMAMM) şöbəsinin müdiri və digər əməkdaşlar adıçəkilən otaqların istifadəsiz olduğunu bildirsələr də, baxış zamanı orada saxlanılan şəxslərin

olduğu müşahidə edilmişdir. Bu çatışmazlıq pasiyentlərin hüquqlarının təmin edilməsində bərabərlik prinsipinin pozulması kimi qiymətləndirilə bilər.

Həmin şöbədə pasiyentlərlə təsadüfi seçim əsasında aparılmış konfidensial söhbət zamanı yalnız bəzilərinə yaxın qohumları ilə görüşlərin keçirilməsi üçün şəraitin yaradıldığı, bunun üçün şöbənin məsul həkimləri tərəfindən şifahi göstərişlərin verildiyi və onların bu ayrı-seçkilik halından narazı olduqları müəyyən edilmişdir.

ARMM-in kiçik tibb heyəti ilə aparılan söhbət zamanı onlar həkimlərin tapşırığına əsasən fiziki məhdudlaşdırma tədbirlərini həyata keçirdiklərini bildirmiş, lakin "Xəstənin sarınması və bağlanması qeydiyyatı" jurnalına baxış zamanı orada müvafiq qeydlərin aparılmadığı müəyyən edilmiş, habelə tibbi sənədlərdə qaydalara uyğun olaraq vərəq sayının və tərtib olunma tarixinin qeyd olunmadığı aşkar edilmişdir.

Həmin şöbənin 2-ci mərtəbəsinə baxış keçirilən zaman orada müalicə alan 1-ci dərəcə əlilliyi olan şəxs (aşağı ətrafları amputasiya olunub və yalnız əlil arabası ilə hərəkət edə bilir) R.M.-nin həyat fəaliyyətini maneəsiz həyata keçirməsi üçün şərait və imkanların yaradılmadığı, habelə onun saxlanıldığı kameranın ikinci mərtəbədə yerləşməsi və pandusların olmaması səbəbindən onun ARMM şöbəsində müalicə alan digər şəxslərdən fərqli olaraq gəzintiyə çıxarılmadığı müəyyən edilmişdir. Qeyd olunan hallar Azərbaycan Respublikasının qoşulduğu BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası (ƏoŞHK) və onun Fakültativ Protokolunun, habelə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarını pozur və ayrı-seçkilik halı kimi qiymətləndirilir. Belə ki, ƏoŞHK-nin 9-cu maddəsi və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunun 14-cü maddəsinə əsasən infrastruktur obyektlərində, xüsusilə tibb müəssisələrində əlilliyi olan şəxslərin müstəqil həyat tərzi keçirmək imkanının yaradılması üçün burada maneə və baryerlərin aşkara çıxarılması və aradan qaldırılmasına yönəlmiş tədbirlər görülməlidir.

GCMAMM-in intensiv və ixtisaslaşdırılmış şöbələrinin dərman otağına baxış keçirilən zaman orada "Aminazin", "Adrenalin" (№10, ampula), "Platifillin", "Vikasol", "Natrium xlorid", "Valokordin" adlı dərman preparatlarının yararlılıq müddətinin bitdiyi aşkar edilmişdir.

Həmin şöbənin müdiri və digər əməkdaşları, habelə intensiv və ixtisaslaşdırılmış şöbələrin pasiyentləri ilə aparılan söhbətlər nəticəsində pasiyentlərin gəzintisi üçün yalnız dəhlizdən istifadə edildiyi və onların açıq havaya ümumiyyətlə çıxarılmadığı müəyyən edilmişdir. Habelə mövcud şöbənin müxtəlif bölmələrində sanitar qovşaqların pasiyentlərin yaşayış yerində olmaması və yalnız qrafik ilə ümumi sanitar qovşaqlara buraxılması və növbəli istifadəsi məlum olmuşdur.

Yoluxucu xəstəliklər şöbəsinin palatalarına baxış zamanı xüsusi vasitələrdən və ipdən (bant) istifadə hallarının qeydiyyatı aparılsa da, müddəti haqqında hər hansı məlumat, habelə şöbənin müalicə həkiminin tibbi əsaslandırılmış qərarı aşkar olunmamış, bununla da "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 24.2-ci bəndi pozulmuşdur.

Xəstəxananın Yeniyetmə şöbəsində dərmanların saxlanıldığı otağa baxış keçirilən zaman orada yararlılıq müddəti bitmiş dərman preparatları aşkar edilmişdir. Eyni zamanda, adıçəkilən şöbədə sosial-psixoloji reabilitasiya tədbirlərinin zəif aparıldığı, müalicənin farmako-terapiya ilə məhdudlaşdığı müəyyən olunmuşdur. Belə ki, yeniyetmə şöbəsinin baş həkimi şöbədə müalicə alan 26 uşaqdan yalnız 3-nün psixoterapiyaya cəlb olunduğunu, bütün uşaqların eyni zamanda terapiyaya cəlb olunmasının kadr çatışmazlığı səbəbindən mümkünsüz olduğunu, habelə digər uşaqların psixoterapiyaya cəlb olunmasının bir neçə həftə sonra mümkün olacağını bildirmişdir.

Yeniyetmə şöbəsində təcrid otağının olduğu müşahidə olunmuş, şöbənin əməkdaşları bu otaqdan bəzi hallarda istifadə edildiyini bildirsələr də, "Xəstənin sarınması və bağlanması qeydiyyatı" jurnalına baxış zamanı orada müvafiq qeydlərin aparılmadığı müəyyən edilmişdir. Bu hal isə "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası

Qanununun 24.2-ci və 37.4-cü bəndlərində qeyd olunan tələbləri pozur.

Müəssisənin gündüz stasionarı şöbəsinə baxış zamanı orada yerləşən manipulyasiya və dərman otağında çoxlu sayda dərman preparatlarının yararlılıq müddətinin bitdiyi, üzərilərində onların satışına məhdudiyyət yaradan müvafiq möhürlərin vurulmadığı, anafilaktik şok üzrə klinik protokolun təlimatlarına riayət olunmadığı aşkar edilmişdir. Belə ki, “Lamiktal” (yararlılıq müddəti 2021-ci ilin dekabr ayında bitib), “Amitriptilin”, “Novakain”, “Kalsium qlukonat”, “Kokarboksilaza hidroxlorid”, “Glukoza”, “Pantenol” adlı dərman preparatlarının yararlılıq müddətinin bitdiyi aşkar edilmişdir.

MPQ üzvləri tərəfindən təsadüfi seçim nəticəsində söhbət aparılan pasiyent ara-sıra şöbələrdə əməyə cəlb olunduğunu və bunun müqabilində ona şirniyyat verildiyini bildirmişdir. Məlumdur ki, “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikası Qanununun 23.5-ci maddəsinə əsasən şəxs stasionarda olduğu bütün dövr ərzində əmək qabiliyyəti olmayan sayılır və qanunvericiliklə müəyyən olunmuş müavinət, yaxud ümumi əsaslarla pensiya almaq hüququna malikdir. Əvvəlki monitorinqdə aşkar edilmiş bu halın hələ də problem olaraq qaldığı nəzərə çarpmışdır.

Mərkəzdə yanğın mühafizə sisteminin daimi nəzarətdə saxlanıldığı, lakin bəzi yanğın balonlarının kritik “qırmızı” işarəsinə yaxın olması və kütlə azalması müşahidə edilmişdir.

Uşaq, yeniyetmə və digər şöbələrdə müalicə alan pasiyentlərin müalicə planlarına baxış keçirilən zaman orada müalicə məqsədlərinin, terapiya üsullarının qeyd olunmadığı müəyyən edilmişdir. İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) standartlarına əsasən hər bir pasiyent üçün müalicə planının işlənib hazırlanması fərdi yanaşmaya əsaslanmalıdır, o cümlədən “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikası Qanununun 15.0.8-ci bəndinə uyğun olaraq, psixi pozuntusu olan şəxslərin əmək terapiyası, yeni peşələrə yiyələnməsi və işə düzəlməsi üçün müalicə-istehsalat müəssisələri, habelə yüngül iş şəraiti olan xüsusi istehsalat sahələri yaradılmalıdır.

***Qazax Rayon Psixiatriya Xəstəxanasına*** başçəkmə zamanı müəssisənin baş həkimi palataların təmirə ehtiyacı olduğunu, həmçinin müəssisədə tibbi personal çatışmazlığı olduğunu və işçi heyətinin təkmilləşdirmə proqramlarına cəlb edilməsinə ehtiyac olduğunu vurğulamışdır.

Müəssisənin ümumi ərazisinə və tibb otaqlarına baxış zamanı əsaslı təmirə ehtiyacla yanaşı, bütün obyektlərdə natəmizliyin və anti-sanitariyanın hökm sürdüyü müşahidə edilmişdir.

Yaşayış sahəsinin mövcud saxlanma normalarına uyğun təşkil edilmədiyi (çarpayılar arasında məsafənin az olması və yaxud olmaması) müşahidə olunmuşdur. Tibb müəssisələrində sanitariya-epidemioloji tələblərə dair Qaydalara əsasən palatalarda minimal yaşayış sahəsi 6 kvadrat metrdən az olmayaraq təşkil edilməlidir. Əksər çarpayılar köhnə və yararsızdır, yataq dəstləri yoxdur.

Bəzi palatalarda sanitar qovşaqların işlək olmaması, su təchizatında problemlərin olduğu, suyun pasiyentlər tərəfindən istifadə olunmuş plastik qablarda saxlanılması müşahidə edilmişdir.

Müəssisədə xüsusi vasitələrdən və ipdən (bant) istifadə müddəti haqqında hər hansı qeydiyyatın aparılmadığı, habelə müalicə həkiminin bununla bağlı tibbi əsaslandırılmış qərarı aşkar olunmayıb. “Xəstənin sarınması və bağlanması qeydiyyatı” jurnalında vərəq sayının, tarixlərin olmadığı və qanunvericiliyə uyğun tərtib edilmədiyi müəyyən edilmişdir. Kişilərin və qadınların müalicəsi və reabilitasiyası şöbələrində isə “Fiziki məhdudlaşdırma və ya təcrid etmə tədbirləri haqqında” jurnal mövcud olmamışdır.

Konfidensial söhbət zamanı pasiyentlər müəssisədə zərərverici həşəratların (bit, birə və digər həşəratlar) mövcudluğundan əziyyət çəkdiklərini bildirmişlər.

Bu müəssisədə də yararlılıq müddəti bitmiş, mənşəyi məlum olmayan çoxsaylı dərmanlar aşkarlanmışdır. Eyni zamanda, xüsusi saxlanma rejimi tələb edən dərman

preparatların yararlıq müddətləri ərzində keyfiyyətini saxlaması üçün xəstəxanada müvafiq şərait yoxdur. Belə ki, dərmanların qablaşdırılmasının üzərində və içlik vərəqələrində saxlanma şəraiti 2-8°C qeyd olunan dərman preparatları ("Actrapid") üçün nəzərdə tutulan soyuducunun olmadığı müəyyən edilmişdir.

Psixotrop maddələr saxlanılan otaqların qapısı dəmirlə üzlənməli, pəncərələri dəmir çərçivəli olmalı olsa da, müəssisədə bu qaydalara ümumiyyətlə riayət edilmir. Eyni zamanda, dərman preparatlarının saxlanıldığı otaqda pasiyentlərə iynə vurulması müşahidə edilmişdir.

Monitorinq zamanı təsadüfi seçim nəticəsində bir neçə psixotrop dərmanların istifadə dövriyyəsi yoxlanılıb və "Relanium" preparatının sayında manipulyasiya faktı aşkarlanıb. Dərman vasitələrinin rəsmi qeydiyyat vərəqələrinin qanunvericiliyə uyğun tərtib edilməməsi, həmçinin ağartma və sonradan düzəltmə faktları aşkarlanmışdır.

***Gəncə Şəhər Psixiatriya Xəstəxanasına*** başçəkmə zamanı bəzi nöqsanlar aşkar edilmişdir.

Belə ki, 2020-ci ildə istifadəyə verilmiş müəssisənin bir sıra otaqlarında sanitar qovşaqların və su qarışdırıcıların istifadəyə yararsız olduğu müşahidə edilmişdir.

Müəssisənin 5 şöbəsi üzrə palatalara baxış zamanı "Fiziki məhdudlaşdırma və ya təcrid etmə tədbirləri haqqında" sənədləşmə, habelə müvafiq qeydiyyat jurnalının mövcud olmaması müşahidə olunmuşdur ki, bununla da "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 24.2-ci maddəsinin tələbləri pozulmuş hesab olunur.

Saxlanma şəraiti və rəftar məsələlərinin öyrənilməsi məqsədilə pasiyentlərlə konfidensial söhbət aparılmışdır. Onlar görüş və telefon danışığının məhdudlaşdırıldığını, yeməklərin keyfiyyətsiz hazırlandığını bildirmişlər.

Bundan başqa, uşaq şöbəsində qeydiyyat vərəqələrində tarixlərin qeyd olunmasında və eyni zamanda psixotrop dərmanların qeydiyyatında nöqsanlar aşkar edilmişdir.

Burada da xüsusi saxlanma rejimi tələb edən dərman preparatlarının yararlılıq müddəti boyunca keyfiyyətini saxlaması üçün müvafiq şəraitin, saxlanılma şəraiti 2-8°C temperatur qeyd olunan dərman preparatlarının saxlanılması üçün nəzərdə tutulan soyuducuların olmaması müşahidə olunmuşdur. Bu dərmanlar pasiyentlərin sağlamlığını təhlükə altında qoymaqla yanaşı, qanunvericiliyin ciddi şəkildə pozulmasıdır.

Hər üç müəssisəyə başçəkmənin nəticələri ilə bağlı Səhiyyə Nazirliyinə məktub ünvanlanmış və tədbirlərin görülməsi tələb olunmuşdur.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Şəki Rayon Psixiatriya Xəstəxanasına*** plandankənar başçəkmə keçirilmişdir.

Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Qax, Zaqatala və Balakən rayonlarını əhatə edən xəstəxananın baş həkimi həkim personalının çatışmazlığını və stomatoloji avadanlıqların olmadığını, dərman preparatları ilə təminatın normal olduğunu bildirmişdir.

Başçəkmə çərçivəsində xəstəxananın palatalarına, aptekə, emalatxanaya, mətbəxə, yeməkxanalara, görüş otağına, ərzaq anbarına, gəzinti və idman meydançalarına baxış keçirilmişdir.

Xəstəxananın bəzi yerlərində, o cümlədən divarların aşağı hissələrində qabarmalar, sanitar qovşaqların və dəhlizin tavanının bəzi hissələrinin yararsız vəziyyətdə olduğu müşahidə edilmişdir.

Burada ultrasəs müayinə, elektrokardioqrama (EKQ), Elektroensofaloqramma (EEQ) və rentgen aparatları mövcud olsa da, stomatoloji avadanlıqların çatışmazlığı müşahidə olunmuşdur. Halbuki müssisədə həkim-stomatoloq fəaliyyət göstərir.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun görüş keçirilmiş, müşahidə edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı tövsiyyələr verilmişdir.

***Lənkəran Rayonlararası Psixatriya Xəstəxanasına*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, daxil olmuş müraciətlərin araşdırılması, pasiyentlərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olub.

Başçəkmə zamanı müəssisəyə əvvəlki səfərlər zamanı aşkar edilmiş nöqsanların aradan qaldırıldığı müşahidə edilmişdir.

Başçəkmə çərçivəsində qadın və kişi sektorunda saxlanılan şəxslərlə söhbət aparılmış, hüquqları izah olunmuş, saxlanma şəraiti və rəftar məsələləri, habelə qida, dərman təminatı, tibbi yardımla əlaqədar şikayətlərinin olub-olmadığı öyrənilmişdir.

Başçəkmə zamanı müəssisədə tibbi yardımın təşkili məsələsi araşdırılarkən, baş həkim Lənkəran Rayonlarası Psixatriya Xəsətəxanasında 10 həkim-psixiatr ştatı üzrə cəmi 3 həkim-psixiatrın fəaliyyət göstərdiyini, kadr çatışmazlığı olduğunu bildirmişdir. Bu hal isə burada müalicə alan şəxslərə keyfiyyətli tibbi yardımla bağlı problemlərin olduğunu düşünməyə əsas verir.

Müvafiq sənədlərə baxış keçirilmiş, sənədləşmənin qanunvericiliyin tələbləri baxımından aparılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir. Ərzaq anbarına baxış zamanı ərzaqların az olması müşahidə olunmuşdur. Müəssisənin təsərrüfat müdiri ayın sonu olduğuna görə ərzaqların azaldığını, növbəti həftə müəssisənin ərzaqla tam təmin olunacağını bildirmişdir.

Müəssisənin təsərrüfat müdiri xəstəxanaya qida təminat üçün ayrılan vəsaitin az olduğunu, pasiyentlər üçün ayrılan çörək normasının artırılmasının zəruri olduğunu bildirmişdir.

Qeyd etmək lazımdır ki, Səhiyyə Nazirliyinin tabeliyində olan və Ombudsmanın MPM fəaliyyəti çərçivəsində mütəmadi olaraq başçəkmə həyata keçirilən Gəncə Körpələr Evi yerləşdiyi binanın 2021-ci ildən təmirə bağlanması səbəbilə fəaliyyət göstərmir. İl yarımdan artıq müddətdir ki, qapalı olan müəssisədə təmir işlərinə nə vaxt başlanılacağına dair heç bir məlumat yoxdur.

Müəssisənin direktoru buranın azyaşlı sakinlərinin müvəqqəti olaraq Bakı şəhəri 1 Saylı Körpələr Evinə köçürüldüyünü bildirmişdir.

Bu halın Gəncə şəhərindən və ətraf rayonlardan olan valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 3 yaşınadək uşaqlara sosial xidmət göstərilməsində çətinliklər yaratdığını nəzərə alaraq, müəssisə üçün yeni, müasir binanın tikintisinin tezləşdirilməlidir.

### 2.2.4. Elm və Təhsil Nazirliyinin müəssisələri

2022-ci ildə Ombudsmanın MPM fəaliyyəti çərçivəsində Elm və Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 42 başçəkmə həyata keçirilmişdir.

Təşkil olunmuş başçəkmələrdə məqsəd beynəlxalq təcrübə nəzərə alınmaqla təhsil müəssisələrində saxlanma şəraiti və rəftar məsələlərinin, təhsil alan uşaqların hüquqlarının təmini, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması, habelə müəssisələr üzrə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin araşdırılması olmuşdur.

MPQ üzvləri tərəfindən ***E.Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli Respublika xüsusi internat məktəbinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində məktəbin bütün ərazisinə, o cümlədən sinif, yataq, tibb otaqlarına, mətbəxə və digər yerlərə baxış keçirilmiş, uşaqların sağlamlıq, inkişaf və təhsil hüquqlarının təmini məsələləri öyrənilmiş, o cümlədən loqopedik və psixoloji işin təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Direktorla görüş əsnasında müəssisənin nizamnaməsinə, tədris planına, uşaqların şəxsi işlərinə baxış keçirilmişdir. Məktəbin Nizamnaməsi 2005-ci ildə təsdiq edilib. Direktor Nizamnamənin yenilənməməsinin səbəbi kimi Elm və Təhsil Nazirliyinə etdiyi müraciətin nəticəsiz qalması ilə əlaqələndirib.

Şagirdlərin şəxsi işlərinə təsadüfi seçim əsasında baxış zamanı sənədlərin müəyyən olunmuş qaydalara uyğun olduğu müşahidə edilmişdir.

Müəssisədə 1 psixoloq və 4 loqoped fəaliyyət göstərir. Məktəbdə konsultasiya və korreksiyaedici tədbirlər aparmaq üçün avadanlıq və didaktik materiallarla təchiz edilmiş loqopedik kabinetlər mövcuddur. Lakin psixoloji xidmətin təşkili üçün nəzərdə tutulmuş kabinetin müvafiq avadanlıq və didaktik materiallarla təchiz edilmədiyi müəyyən edilmişdir. Söhbət zamanı məktəbin psixoloqu öz imkanları çərçivəsində didaktik materiallar əldə etdiyini, lakin bunun yetərsiz olduğunu bildirmişdir.

Sənədlərə baxış zamanı uşaqların fərdi inkişaf planlarının tərtib olunmadığı müəyyən edilmişdir. UNICEF-in ölkə üzrə nümayəndəliyindən aldığımız məlumata əsasən 2019-cu ildə 6 nömrəli xüsusi internat məktəbi də daxil olmaqla, bir sıra internat məktəblərinin əməkdaşlarına uşaq inkişafı, uşaq hüquqları, uşaq və yeniyetmə psixologiyası, uşaqlara qarşı zorakılıq kimi mövzularda təqdimatlar edilmiş və uşaqların Fərdi İnkişaf Planlarının (FİP) hazırlanması, icrası və monitorinqi barədə təlimlər keçirilmişdir. Lakin müşahidələrimiz onu göstərir ki, FİP-lərdən istifadə olunmur və onların formaları mövcud deyil.

Loqopedik kabinetlərə baxış zamanı nitq xəritələrinin tərtib olunduğu, lakin uşaqlarla aparılan loqopedik işə dair məlumatların demək olar ki, olmadığı (fərdi planın tərtib olunmadığı), loqopedik zondlar, şpatellərin dezinfeksiyası üçün nəzərdə tutulmuş sterilizatorların olmadığı müəyyən edilmişdir. Məktəb direktoruna bu məsələyə diqqət yetirilməsi tövsiyə edilmişdir.

Yataqxanaya baxış zamanı otaqların təmiz, səliqəli və təmirli olduğu, müəssisədə sanitar-gigiyenik normalara əsasən əməl edildiyi müşahidə olunmuşdur.

Başçəkmə zamanı 31 nəfər uşaqla qrup şəklində görüş keçirilmişdir. Ümumilikdə, uşaqların məktəbə həvəslə gəldikləri və müəllimləri barədə müsbət fikirdə olduqları diqqət çəkmişdir.

Uşaqlarla söhbət zamanı onlara hüquqları, Ombudsmanın fəaliyyəti və 916 Çağrı mərkəzi barədə məlumat verilmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbəri ilə söhbət aparılmış, müəyyən olunan nöqsanların aradan qaldırılması ilə bağlı qanunvericiliyin tələbləri izah edilmiş, təlim-tərbiyə prosesinin yerli və beynəlxalq standartlara uyğun şəkildə təşkil edilməsinə aid, habelə yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri, əvvəlcədən xəbərdarlıq etmədən ***Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinə*** planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd öncəki başçəkəmələr zamanı müəyyən olunmuş çatışmazlıqların aradan qaldırılması və verilmiş təkliflərin icrası vəziyyətinin öyrənilməsi, o cümlədən "Gözdən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dəstək" adlı layihənin müzakirəsi, habelə internat məktəbində təhsil alan uşaqların hüquqlarının təmini vəziyyəti, müəssisədə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi,

müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur. Monitorinq çərçivəsində məktəbin sinif otaqlarına, mətbəxə, yataqxanaya və digər yerlərə baxış keçirilmişdir.

İlk olaraq müəssisənin direktoru ilə görüş keçirilmiş və öncəki başçəkmələr zamanı müəyyən olunmuş nöqsanların aradan qaldırılması ilə bağlı görülən işlər haqqında məlumat əldə edilmişdir. Daha sonra, “Gözdən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dəstək” adlı layihənin həyata keçirilməsi və bu layihənin faydalılığın artırılması məqsədilə müəssisə rəhbəri ilə söhbət aparılmış, mövcud problemlər və onların həlli məsələləri müzakirə olunmuşdur.

Qeyd etmək lazımdır ki, əvvəlki başçəkmə zamanı uşaqlar aşbaz kimi fəaliyyət göstərən əməkdaşdan, eyni zamanda verilən qidanın miqdarından və keyfiyyətindən narazı olduqlarını bildirsələr də, bu başçəkmə zamanı yeni aşbazın cəlb olunduğunu və qidalanmaya aid narahatlıqlarının həll olunduğunu bildirmiş və buna görə təşəkkür etmişlər.

Məktəb direktoru görmə qabiliyyəti olmayan X, XI, XII sinif şagirdləri üçün Brayl əlifbası ilə çap olunmuş dərslik probleminin həlli istiqamətində işlərin aparıldığını bildirmiş, çap prosesinin sürətləndiyini və məsələnin nəzarətdə saxlanıldığını qeyd etmişdir. Bu dərsliklərin ənənəvi dərsliklərin çap olunub paylanıldıqdan sonra çap edildiyi, gecikmənin bundan qaynaqlandığı bildirilmişdir.

Belə gecikmə nəticədə sağlamlıq imkanları məhdud uşaqların bərabər hüquq və imkanlarla təminatında problem yaradır.

Direktor eyni zamanda məktəbdə “transkripsiyaların” mövcud olmaması səbəbilə ingilis dili fənninin tədrisinin təşkil edilmədiyini qeyd etmişdir.

Pandemiya ilə əlaqədar sosial-məişət otağının müvəqqəti olaraq dərs otağına çevrildiyi, lakin növbəti tədris ilindən təyinatına uyğun istifadə ediləcəyi bildirilmişdir.

Yataqxanaya baxış zamanı orada işıqlandırmanın normalara uyğun, lakin döşəklərin sellofanla örtülü olduğu müşahidə edilmişdir. Bununla yanaşı, anbarın təmirə ehtiyacı olduğu müşahidə edilmişdir. Məktəb direktoru təmir işlərinin aparılacağını bildirmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə söhbət aparılmış, müəyyən olunan nöqsanların aradan qaldırılması ilə bağlı qanunvericiliyin tələbləri izah olunmuş, habelə yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən Beynəlxalq Jest Dilləri Günü ərəfəsində əvvəlcədən xəbərdarlıq edilmədən ***3 nömrəli Sağlamlıq imkanları məhdud uşaqlar üçün Respublika xüsusi internat məktəbinə*** planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd öncəki başçəkmə zamanı müəyyən olunmuş çatışmazlıqların aradan qaldırılması və verilmiş təkliflərin icrası vəziyyətinin öyrənilməsi, habelə internat məktəbində təhsil alan uşaqların hüquqlarının təmini vəziyyəti, müəssisədə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

İlk olaraq müəssisənin direktor vəzifəsini müvəqqəti icra edən məktəbin direktor müavini ilə görüş keçirilib və öncəki başçəkmələr zamanı müəyyən olunmuş nöqsanların aradan qaldırılması ilə bağlı görülən işlər haqqında məlumat verilmişdir. Direktor yerində həll edilə bilən bəzi çatışmazlıqların aradan qaldırıldığını, bəzi məsələlərin Elm və Təhsil Nazirliyi qarşısında qaldırıldığını bildirmişdir.

Monitorinq çərçivəsində məktəbin sinif otaqlarına, tibb otağına, mətbəxə, yataqxanaya və digər yerlərə baxış keçirilmişdir. Başçəkmə zamanı müəssisənin əsaslı təmirə ehtiyacın olduğu, məktəbin 2/3 hissəsində məcburi köçkün ailələrin məskunlaşdığı, bu səbəblə burada böyük sıxlığın yaşandığı müşahidə edilmişdir. Belə ki, uşaqların yataq

otaqlarında sıxlıq və işıqlandırmanın normalara cavab vermədiyi, burada nasaz elektrik rozetkaların uşaqlara əlçatan vəziyyətdə olduğu, həşəratların otaqlara daxil olmasının qarşısını almaq üçün heç bir pəncərənin tor ilə örtülmədiyi, bəzi otaqlarda isə pərdələrin (jalüzlərin) olmadığı müşahidə olunmuşdur. Sanitar qovşaqlarda duş cihazlarının istifadəyə yararsız, məktəbin birinci mərtəbəsində yerləşən və gecələyən şagirdlərin sayının çox olduğu zaman istifadə üçün nəzərdə tutulan yataq otaqlarının rütubətli və təmirsiz olduğu müəyyən edilmişdir.

Müəssisədə yalnız birinci növbə üzrə (saat 15:00-a kimi) 1 həkim və 1 tibb bacısı fəaliyyət göstərir. Uşaq sayının çoxluğunu, o cümlədən onların sağlamlıq imkanlarının məhdud olmasını nəzərə alsaq ikinci növbə də tibbi xidmətin təşkilinə böyük ehtiyac var.

Yekunda Ombudsman Aparatının iştirakı ilə jest dilinə tərcümə edilmiş, BMT-nin "Uşaq Hüquqları Konvensiyası" əsasında hazırlanmış elektron kitab və Ombudsmanın 916 Çağrı Mərkəzi barədə məlumat, həmçinin monitorinq zamanı aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması ilə bağlı müəssisə rəhbərinə müvafiq tövsiyələr verilmişdir.

***Valideyn Himayəsindən Məhrum olmuş uşaqlar üçün 2 nömrəli ümumi orta internat məktəbinə*** planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu, Ombudsman haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd internat məktəbində təhsil alan uşaqların hüquqlarının təmini vəziyyəti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur. Monitorinq çərçivəsində məktəbin bütün ərazisinə, o cümlədən sinif və yataq otaqlarına, yeməkxanaya, mətbəxə, anbara və digər yerlərə baxış keçirilmiş, uşaqların müdafiə, sağlamlıq, təhsil və inkişaf hüquqlarının təmini məsələləri öyrənilmiş, o cümlədən loqopedik və psixoloji işin təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Müəssisənin sanitariya-gigiyena tələblərinə uyğun olduğu, yataqxanaya baxış zamanı otaqların təmiz, səliqəli və təmirli, ərzaq anbarında isə rütubətin olduğu müşahidə edilmişdir.

Məktəbin psixoloqu təlimlərdə və ixtisasartırma proqramlarında uzun müddətdir iştirak etmədiyini bildirərək, bu istiqamətdə tədbirlərin təşkil olunmasının vacibliyini qeyd etmişdir.

Başçəkmə zamanı rəftar məsələlərin öyrənilməsi məqsədilə təsadüfi seçim əsasında uşaqlarla görüş keçirilmişdir. Uşaqlarla söhbət zamanı bildirilmişdir ki, gecə dayəsi fərqli otaqlara nəzarət etməyə fiziki olaraq imkanı olmadığından 9-cu sinif şagirdini nəzarətçi təyin etmişdir.

Rəftarla bağlı müəssisənin direktoru ilə aparılan söhbət zamanı, o, bu məsələlərə ciddi yanaşdığını, müxtəlif vaxtlarda tərbiyəçi-müəllimlərə və gecə növbətçisi işləyən şəxsə nizam-intizam qaydalarını pozaraq uşaqlarla anti-pedaqoji hərəkətlərinə görə yazılı xəbərdarlıq verildiyini bildirmişdir.

Yekunda müəyyən olunan nöqsanların aradan qaldırılması ilə bağlı müəssisə rəhbərliyi ilə söhbət aparılmış, uşaqlara qarşı zorakılığın istənilən formasının qəbuledilməz olması qeyd edilmiş, o cümlədən zəruri tövsiyələr verilmişdir. Belə ki, müəssisənin Nizamnaməsinin yenilənməsi, çatışmazlıqların aradan qaldırılması məqsədilə müvafiq tədbirlərin görülməsi müəssisə rəhbərinə bildirilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***8 nömrəli Sanatoriya tipli internat məktəbinə*** planlı başçəkmələr həyata keçirilmişdir.

Təşkil olunmuş başçəkmələrdə məqsəd əvvəlki monitorinq zamanı müəyyən edilmiş bir sıra çatışmazlıqların aradan qaldırılmasının araşdırılması və internat məktəbində təhsil

alan uşaqların hüquqlarının təmini, saxlanma şəraiti və rəftar məsələləri, tibbi yardımın və psixoloji işin təşkili, qidalanma səviyyəsinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində məktəbin sinif otaqlarına, mətbəxə, yataqxanaya və digər yerlərə baxış keçirilmiş, bir sıra çatışmazlıqlar müəyyən edilmişdir.

Müəssisənin direktoru ilə görüş keçirilmiş, ümumi məlumatlarla yanaşı əvvəlki başçəkmələr zamanı müəyyən olunmuş nöqsanların aradan qaldırılması ilə bağlı görülən işlər haqqında məlumat əldə edilmişdir. Qeyd edilmişdir ki, əvvəlki başçəkmədən sonra Elm və Təhsil Nazirliyinə yazılı müraciət ünvanlanmış və müəssisədə təmir işləri aparılmışdır.

Saxlanma şəraitinin monitorinqi məqsədilə yataqxanaya baxış keçirildiyi zaman yataq və soyunub-geyinmə otaqlarında, dəhlizdə, sanitar qovşaqlarda süni işıqlanmanın normativlərə uyğun olmadığı müşahidə olunmuşdur**.** Qeyd olunan problem əvvəlki başçəkmə zamanı da müəyyən olunmuş və müəssisə rəhbərinə bildirilib. Bununla yanaşı, yataq otaqlarında hava temperaturunun aşağı olduğu, bəzi hallarla qızdırıcı cihazların işləmədiyi, pərdələrin (jalüz) istifadəyə yararsız olduğu müşahidə olunmuşdur. Soyunma-geyinmə otaqlarında uşaqların şkaflarının təmir olunmasına və ya dəyişdirilməsinə ehtiyac var.

Növbəti başçəkmə zamanı süni işıqlanmanın yaxşılaşdırıldığı, pərdələrin quraşdırıldığı, otaqların səliqəyə salındığı müşahidə olunmuşdur.

Müəssisəyə həyata keçirilmiş sonuncu başçəkmənin yekunları, aşkar edilən nöqsanlar və bunların aradan qaldırılması istiqamətində verilən təklif və tövsiyələrlə bağlı Elm və Təhsil Nazirliyinə müraciət edilmişdir.

Ombudsmanın MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən ***11 nömrəli İnteqrasiya təlimli internat məktəbinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd öncəki monitorinq zamanı müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması vəziyyətinin öyrənilməsi, habelə internat məktəbində təhsil alan uşaqların hüquqlarının təmini, saxlanma şəraiti və rəftar məsələləri, tibbi yardımın və psixoloji işin təşkili, qidalanma səviyyəsinin araşdırılması olmuşdur.

Başçəkmə çərçivəsində məktəbin sinif otaqlarına, mətbəxə və digər yerlərə baxış keçirilmiş, bəzi çatışmazlıqlar müəyyən edilmişdir.

Müəssisənin qida ilə təminatı bir servis şirkəti tərəfindən həyata keçirilir.

Müəssisədə 2 tibb bacısı və 1 həkim (0,5 ştat) fəaliyyət göstərir. 0,5 ştat həkim vəzifəsi vakantdır. Tibbi heyət müəssisənin tərəzi, boy ölçmə cihazı kimi tibbi ləvazimatlara ehtiyacı olduğunu bildiriblər.

Sənədlərə baxış keçirilən zaman dərs və tərbiyə saatlarında uşaqların qeydiyyatının aparılmadığı, yalnız bir müəllim tərəfindən onun şəxsi təşəbbüsü əsasında dərsə davamiyyət jurnalının olduğu müəyyən edilmişdir. Müəssisənin nizamnaməsinin 2002-ci ildə təsdiq olunduğu və yenilənmədiyi müəyyən edilmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə söhbət aparılmış, müəyyən olunan nöqsanların aradan qaldırılması ilə bağlı qanunvericiliyin tələbləri izah olunmuş, habelə yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Şəki Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** plan üzrə başçəkmə keçirilmişdir.

Təşkil edilmiş başçəkmədə məqsəd müxtəlif yaş qruplarından olan, bu müəssisədə təhsil alan və yaşayan uşaqların saxlanma şəraitinin araşdırılması, habelə uşaqların hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində gimnaziyanın tibb, psixoloq, loqoped, sinif və istirahət otaqlarına, yataqxanalara, mətbəxə, yeməkxanaya, ərzaq anbarına, hamama, camaşırxanaya və idman zalına baxış keçirilmişdir. Baxış zamanı idman zalının təmir

edildiyi, yeməkxanada menyunun divardan oxuna biləcək yerdən asıldığı, ərzaq anbarında saxlama şəraitinin qənaətbəxş olduğu, yataqxanalarda və sinif otaqlarında, camaşırxanada səliqə-səhmanın olduğu, lakin gimnaziyanın həyətində yerləşən sanitar qovşağın kanalizasiya sisteminin işləmədiyi müşahidə edilmişdir.

Gimnaziyanın direktor vəzifəsini icra edən şəxs müəssisənin əsaslı təmirini həyata keçirən podratçı şirkət tərəfindən rəsmi qaydada təhvil-təslim işlərinin həyata keçirilmədiyindən 2022-ci ilin aprel ayından qazın verilməsinin dayandırıldığını, bununla bağlı Elm və Təhsil Nazirliyinə müraciət etdiyini bildirmişdir.

Şagirdlərin axşam yoxlanışı jurnalında və gimnaziyada təhsil alan xəstə uşaqların müalicəsi ilə bağlı sənədləşmədə müəyyən çatışmazlıqların olduğu, lazımi qeydlərin vaxtında aparılmadığı müəyyən edilmişdir.

Ombudsman tərəfindən elan edilmiş “Uşaq hüquqları aylığı”na təsadüf edən başçəkmədə şagirdlərlə görüş keçirilmiş, onlara Uşaq Hüquqları Konvensiyası, “Uşaq Hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun müddəaları, uşaq hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyəti barədə məlumatlar verilmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbərliyi ilə yekun görüş keçirilmiş, müşahidə olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması, saxlanma şəraitinin və rəftarın təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Siyəzən şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokol və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və müəssisədəki uşaqlarla rəftarın, onların təhsil alması və asudə vaxtlarının təşkili, habelə müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində müəssisənin yataqxanalarına, sinif otaqlarına, idman zalına, kitabxanaya, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, habelə asudə vaxtın təşkili, qidalanma, içməli, habelə isti və soyuq su təminatı, eləcə də sənədləşmə araşdırılmışdır. Müəyyən olunmuşdur ki, əvvəllər mövcud olan bir sıra nöqsan aradan qaldırılsa da, gimnaziyanın sinif və yataq otaqları isidilmir, qaynadılmış isti və soyuq su ilə təminat təşkil olunmur, mətbəxdə və ərzaq anbarında bir sıra ərzaqların son istifadə müddətinin bitmiş olsa da orada saxlanılır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 5 nəfər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, sənədləşmə yerində araşdırılmışdır.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, uşaq hüquqları sahəsində, milli və beynəlxalq qanunvericiliyin tələbləri o cümlədən, aşkar olunan nöqsanlar müəssisə rəhbərinin diqqətinə çatdırılmış, müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Gəncə şəhər 45 saylı Xüsusi Məktəbə*** planlı başçəkmə həyata keçirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyeva tərəfindən elan edilmiş “Uşaq hüquqları aylığı” çərçivəsində həyata keçirilmiş başçəkmədə məqsəd müəssisədəki şəraitin və rəftar məsələlərinin araşdırılması, müəssisədə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin olunması vəziyyətinin monitorinqi olmuşdur.

Başçəkmə zamanı məktəbin sinif otaqlarına, kitabxanasına, tibb, psixoloq və loqoped otaqlarına, qazanxanasına, idman zalına və həyətinə baxış keçirilmiş, otaqların təmirli və səliqəli, idman zalının idman qurğuları ilə təchiz edilmiş vəziyyətdə olması müşahidə edilmişdir.

Başçəkmə zamanı məktəb binasının yanğın aşkaredici və xəbərdaredici səs siqnalizasiya qurğuları, odsöndürən balonlarla təmin olunduğu müşahidə olunmuşdur.

Məktəbin xüsusiyyətləri nəzərə alınaraq sadələşdirilmiş proqram əsasında hazırlanmış xüsusi dərs vəsaitləri ilə təchiz olunması zəruri olsa da, məktəbə yalnız birinci siniflər üçün Riyaziyyat və Azərbaycan dili fənnlərindən dərsliklər verildiyini, şagirdlərin qalan siniflər və fənlər üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış dərs vəsaitləri ilə təmin olunmadığı müəyyən edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən tarixdə ***Quba şəhər Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün Tam Orta İnternat Məktəbinə*** başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və uşaqlarla rəftarın, onların asudə vaxtlarının təşkili, habelə müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin, yataqxanalarına, tibb məntəqəsinə, sinif otaqlarına, mətbəxə və digər inzibati otaqlara baxışlar keçirilmiş, habelə asudə vaxtın təşkili, qidalanma, içməli isti və soyuq su təminatı, sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə olanlar konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti yerində araşdırılmışdır.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqları sahəsində milli və beynəlxalq qanunvericiliyin tələbləri nəzərlərinə çatdırılmışdır.

Goranboy rayonununda yerləşən ***R.Ağakişiyev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** planlı başçəkmə həyata keçirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili tərəfindən elan edilmiş "Uşaq hüquqları aylığı" çərçivəsində təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, müəssisədə gecələyən və təhsil alan uşaqların hüquqlarının təmin olunması vəziyyətinin monitorinqi olmuşdur.

Direktorla ilkin söhbət zamanı o, gimnaziyanın binasının qəzalı vəziyyətdə olması və yeni binanın tikilməsinə ehtiyac olması barədə Elm və Təhsil Nazirliyinə məktubla müraciət etdiyini bildirmişdir.

Başçəkmə zamanı gimnaziyanın tədris binasına, sinif otaqlarına, yataqxanasına, yeməkxanasına, ərzaq anbarına, kitabxanasına, tibb, psixoloq otaqlarına, hamama, futbol meydançasına baxış keçirilmiş, şagirdlərlə konfidensial söhbət aparılmışdır.

Başçəkmə zamanı gimnaziyada bir sıra nöqsanlar aşkar olunmuşdur. Müəssisənin tədris və yataqxana yerləşən korpusunda, kitabxanasında, idman zalında, yeməkxana, mətbəx və ərzaq anbarında maddi şəraitin yaxşı olmadığı, əsaslı təmirin zəruri olduğu müşahidə edilmişdir.

Gimnaziyanın tibb otağı ilə tanışlıq zamanı burada zəruri tibbi preparatların təchizatında problemlərin olduğu, habelə həkim ştatının vakant olduğu müəyyən edilmişdir.

Xüsusi təhsilə cəlb edilmiş şagirdlərin sadələşdirilmiş proqram əsasında hazırlanmış xüsusi dərs vəsaitləri ilə təchiz olunması vacib olsa da, bu cür dərs vəsaitlərinin çatışmazlığı müəyyən edilmişdir.

Gimnaziyanın sinif otaqlarındakı pəncərələrin sınıq, buradakı avadanlıqların, stol və stulların, habelə yataqxanadakı şkafların köhnə olduğu müşahidə edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli, 87 nömrəli qərarı ilə təsdiq edilmiş İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydalarının 11-ci bəndinə əsasən həmin müəssisələrdə loqopedik xidmət loqoped

müəllim tərəfindən həyata keçirilir. Başçəkmə zamanı gimnaziyada loqoped ştatının olmadığı müəyyən edilmişdir.

İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydalarının 14-cü bəndinə əsasən  inteqrasiya təlimli təhsil müəssisələrinin maddi-texniki bazasına bir sıra kabinetlərlə yanaşı camaşırxananın, korreksiya və reabilitasiya kabinetlərinin də daxil olması nəzərdə tutulsa da gimnaziyada həmin kabinetlərin mövcud olmadığı müəyyən edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 may 1994-cü il tarixli 176 nömrəli qərarı ilə təsdiq edilmiş Ümumtəhsil internat məktəblərinin nümunəvi Əsasnaməsinin 71-ci bəndinə əsasən şagirdlərin gəzintilərə, ekskursiyalara, tamaşalara, mədəni-kütləvi tədbirlərə aparılıb-gətirilməsi, ərzağın, inventar-avadanlığın daşınması üçün internat məktəblərinə avtobus və yaxud yük maşını və s. nəqliyyat vəsaitləri ayrılması nəzərdə tutulsa da, gimnaziyada bu cür nəqliyyat vasitəsinin mövcud olmadığı müəyyən edilmişdir.

Həyata keçirilən başçəkmədə şagirdlərlə fərdi və qrup söhbətləri aparılmış, saxlanma şəraiti və rəftarla bağlı hər hansı narazılıq bildirilməmişdir.

Planlı başçəkmə çərçivəsində həmin gimnaziyanın müəllim və şagird kollektivinin iştirakı ilə "Uşaq Hüquqlarının Müdafiəsi" mövzusunda hüquqi maarifləndirici tədbir keçirilmişdir.

Ombudsmanın Milli Preventiv qrupunun üzvləri tərəfindən Tovuz rayonu Qovlar şəhərində yerləşən ***şəhid Orxan Cabbarov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyasına*** planlı başçəkmə həyata keçirilmişdir.

"Uşaq Hüquqları Aylığı" çərçivəsində həyata keçirilmiş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, müəssisədə gecələyən və təhsil alan uşaqların  hüquqlarının təmin olunması vəziyyətinin monitorinqi olmuşdur.

Başçəkmə zamanı gimnaziyanın tədris binasına, yataqxanasına, yeməkxanasına, ərzaq anbarına, kitabxanasına, tibb, psixoloq otaqlarına, futbol meydançasına, hamama, sinif otaqlarına baxış keçirilmiş, şagirdlərlə söhbət aparılmış, saxlanma şəraiti və rəftar, qidaların keyfiyyəti ilə bağlı şikayət daxil olmamışdır.

Gimnaziyanın psixoloq otağı ilə tanışlıq zamanı bu məqsədlə ayrılmış otağın zəruri inventarlarla, əyani vəsaitlərlə təmin olunduğu, psixoloji yardım işinin lazımi şəkildə təşkilinə imkan verdiyi, şagirdlərin fərdi psixoloji xəritələrinin qeydə alındığı müşahidə olunmuşdur.

Başçəkmə zamanı bəzi nöqsanlar aşkar edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 may 1994-cü il tarixli 176 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil internat məktəblərinin nümunəvi Əsasnaməsi"nin 50-ci bəndinə əsasən ümumtəhsil internat məktəblərinin bütün kateqoriyadan olan işçilərin hüquq və vəzifələri, daxili intizam və iş qaydaları bu Əsasnamənin tələbləri baımından hazırlanmış Nizamnamədə öz əksini tapmalıdır. Nizamnamə hər bir ümumtəhsil internat məktəbində hazırlanır və Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilir. Lakin başçəkmə zamanı müəyyən edilmişdir ki, gimnaziyanın fəaliyyətini tənzimləyən nizamnaməsi aidiyyatı üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiqlənməli olduğu halda hazırki vaxtdadək təsqidlənməmişdir ki, bu da müəssisənin idarə edilməsi və digər zəruri fəaliyyət istiqamətləri üzrə hüquqi nizamlamağa çətinliklər yaradır.

Başçəkmə zamanı havanın temperaturunun aşağı olmasına baxmayaraq gimnaziyanın sinif otaqlarının, yataqxanasının və digər obyektlərin isidilmədiyi müəyyən olunmuş, müasir qazanxana sistemi mövcud olsa da, mövsümü limitə uyğun olaraq noyabr ayının 15-dən sonra istifadəyə veriləcəyi bildirilmişdir.

Gimzaniyanın tibb otağı ilə tanışlıq zamanı gündəlik göstərilən tibbi yardımların qeydiyyatının aparıldığı müşahidə olunsa da, tibb otağında yararlılıq müddəti keçmiş

dərmanların saxlanıldığı, həmçinin tərəzi və boyölçmə cihazının mövcud olmadığı müəyyən edilmişdir.

Gimnaziyada xüsusi təhsilə cəlb edilmiş şagirdlərin xüsusiyyətləri nəzərə alınaraq sadələşdirilmiş proqram əsasında hazırlanmış xüsusi dərs vəsaitləri ilə təchiz olunması zəruri olsa da bu cür dərs vəsaitlərinin yalnız birinci sinif üçün olduğu, digər siniflərin xüsusi dərs vəsaitləri ilə təmin olunmadığı müəyyən edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 may 1994-cü il tarixli 176 nömrəli qərarı ilə təsdiq edilmiş Ümumtəhsil internat məktəblərinin nümunəvi Əsasnaməsinin 71-ci bəndinə əsasən şagirdlərin gəzintilərə, ekskursiyalara, tamaşalara, mədəni-kütləvi tədbirlərə aparılıb-gətirilməsi, ərzağın, inventar-avadanlığın daşınması üçün internat məktəblərinə avtobus və yaxud yük maşını və s. nəqliyyat vəsaitləri ayrılması nəzərdə tutulsa da, gimnaziyada mövcud olan, keçmiş SSRİ dövründən qalmış avtobusun tez-tez sıradan çıxdığı və zəruri ehtiyat hissələrlə təmin olunmadığı, bu səbbədən də gimnaziyaya daşınmalı olan şagirdlərin davamiyyətinə mənfi təsir etdiyi müəyyən olunmuşdur.

Ombudsmanın Milli Preventiv qrupunun üzvləri tərəfindən ***Gəncə şəhər İnternat tipli xarici dillər təmayüllü Gimnaziyaya*** planlı başçəkmə həyata keçirilmişdir.

“Uşaq hüquqları aylığı” çərçivəsində həyata keçirilmiş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, müəssisədə gecələyən və təhsil alan uşaqların hüquqlarının təmin olunması vəziyyətinin monitorinqi olmuşdur.

Gimnaziyanın tibb otağı ilə tanışlıq zamanı burada müayinə üçün zəruri avadanlıqların və dərman preparatlarının mövcud olduğu, lakin gündəlik tibbi yardımın qeydiyyatının lazımi formada aparılmadığı müşahidə olunmuşdur.

Gimnaziya şagirdləri ilə fərdi və qrup söhbətləri zamanı saxlanma şəraiti, rəftar və qidalanma ilə bağlı şikayət daxil olmamışdır.

Başçəkmə zamanı gimnaziyanın binasının yanğın təhlükəsizliyi üçün zəruri avadanlıqlarla, həmçinin müşahidə kameraları ilə təmin olunduğu müşahidə edilmişdir.

Başçəkmənin gedişində Ombudsmanın Milli preventiv Qrup Üzvləri tərəfindən şagirdlərlə keçirilmiş hüquqi-maarifləndirici görüşdə onlara Uşaq Hüquqları Konvensiyası, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun müddəaları, Ombudsmanın uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti barədə məlumat verilmiş və sualları cavablandırılmışdır. Yekunda müəssisələrin rəhbərliyinə və məsul əməkdaşlara milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanma şəraiti, tibbi xidmət və sənədləşmə ilə bağlı tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv qrupunun üzvləri tərəfindən ***Gəncə şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** planlı başçəkmə həyata keçirilmişdir.

“Uşaq hüquqları aylığı” çərçivəsində tədbirlər planına uyğun olaraq, BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu, BMT-nin “Uşaq hüquqları haqqında Konvensiyası” və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, müəssisədə təhsil alan uşaqların hüquqlarının təmin olunması vəziyyətinin monitorinqi olmuşdur.

Gimnaziyada loqoped ştatı uzun müddətdir vakantdır və xüsusi təhsilə cəlb edilmiş uşaqların inkişaf etməsi üçün loqopedə ehtiyac vardır.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən sinif otaqlarına, texnologiya və kompyuter otaqlarına, yataqxanasına, kitabxana, yeməkxana və mətbəxə, eyni zamanda tibb otağına, psixoloq otağına, baxış keçirilmiş, otaqların yeni mebellərlə və zəruri ləvazimatlarla təchiz edilməsi müşahidə olunmuşdur.

Gimnaziyanın psixoloq otağı ilə tanışlıq zamanı bu məqədlə ayrılmış otağın zəruri inventarlarla, əyani vəsaitlərlə təmin olunduğu, psixoloji yardım işinin lazımi şəkildə

təşkilinə imkan verdiyi, şagirdlərin fərdi psixoloji xəritələrinin qeydə alındığı müşahidə edilmişdir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə təsadüfi seçim əsasında bu müəssisədə təhsil alan uşaqlarla, habelə müəllimlər, tərbiyəçilər və tibb işçiləri ilə fərdi söhbətlər aparılmış və mövcud vəziyyət öyrənilmişdir. Gimnaziya rəhbərliyi və təhsil alan uşaqlar tərəfindən rəftar məsələləri ilə bağlı hər hansı insidentin yaşanmadığı, məktəbdə təlim-tərbiyə işinə hər zaman həssas münasibət göstərildiyi bildirilmişdir.

Başçəkmə zamanı bir sıra çatışmazlıqlar da aşkarlanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli, 87 nömrəli qərarı ilə təsdiq edilmiş İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydalarının 11-ci bəndinə əsasən həmin müəssisələrdə loqopedik xidmət loqoped müəllim tərəfindən həyata keçirilir. Həmçinin Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikası qanununun 14.1-ci maddəsinə əsasən məktəbəqədər və ümumtəhsil müəssisələrində təhsil alan nitqi qüsurlu uşaqlara kömək məqsədi ilə loqopedik xidmət təşkil edilir. Başçəkmə zamanı gimnaziyanın binasının mövcud tədris və infrastruktur şəraitinin normal olduğu müşahidə olunsa da, xüsusi təhsilə cəlb olunmuş uşaqlara zəruri xidmət üçün loqoped ştatının vakant olduğu müəyyən edilmişdir. Məlum olduğu kimi, hər bir nitq qüsurunun yaranması mərhələləri, formaları, səciyyəvi xüsusiyyətləri, nitqin ümumi geriliyi, artikulyasiya aparatının müayinəsi, korreksiyaedici, psixoloji-pedaqoji təsir, həmçinin ailədə uşağın nitqinin inkifafı üzrə aparılan işin təhlil edilməsi baxımından loqoped xidmətinin rolu olduqca vacibdir. Lakin müəssisədəki loqoped ştatının boş olması həmin işlərin aparılmasına imkan vermir.

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında qanunun 20.1-ci maddəsinə əsasən fiziki çatışmazlığı, əqli və (və ya) psixi ləngimələri olanlar üçün xüsusi təhsilin dövlət standartları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Həmin qanunun 26.2-ci maddəsinə əsasən xüsusi təhsil üçün dərslik, dərs vəsaitləri və elmi-metodik vasitələrin hazırlanması müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Buna baxmayaraq başçəkmə zamanı müəyyən edilmişdir ki, gimnaziyada xüsusi təhsilə cəlb edilmiş şagirdlər (1-ci sinif istisna olmaqla) sadələşdirilmiş proqram əsasında hazırlanmış xüsusi dərs vəsaitləri ilə təchiz olunmayıblar ki, bu da həmin şagirdlərin keçirilən dərsləri mənimsəmələrində çətinliklər yaratmışdır.

***Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 nömrəli xüsusi internat məktəbinə*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə müəssisə rəhbərliyi, əməkdaşlar və uşaqlarla görüşlər keçirilmişdir.

Monitorinq çərçivəsində gimnaziyanın bütün ərazisinə, o cümlədən sinif, istirahət otaqlarına, anbar, camaşırxana, mətbəx, yataq, tibb otaqlarına və digər yerlərə baxış keçirilmiş, uşaqların inkişaf, müdafiə, sağlamlıq, təhsil hüquqlarının təmini məsələləri öyrənilmiş, o cümlədən loqopedik və psixoloji işin təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmış, bir sıra çatışmazlıqlar müəyyən edilmişdir.

Uşaqlarla reabilitasiya və psixoloji işin aparılması məqsədilə müəssisədə 1 psixoloqun və 5 loqopedin fəaliyyət göstərdiyi bildirilmişdir. Loqopedik kabinetə baxış zamanı müvafiq avadanlığın və didaktik materialların çatışmazlığı müşahidə edilmişdir.

Müəssisədə fiziki məhdudiyyəti olan şəxslərin maneəsiz hərəkət etməsi üçün müvafiq şəraitin yaradılmasına (pandus quraşdırılması) ehtiyac var.

***A.S.Makarenko adına Humanitar Fənlər Təmayüllü Respublika İnternat Tipli Gimnaziyaya*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

Monitorinq çərçivəsində gimnaziyanın bütün ərazisinə, o cümlədən sinif, mətbəx, yataq otaqlarına, camaşırxana, anbara və digər yerlərə baxış keçirilmişdir.

Müəssisənin Nizamnaməsinin ləğv olunduğu, lakin yenisi ilə əvəz edilmədiyi bildirilmişdir. Müəssisəyə baxış keçirilən zaman sanitar qovşaqlarda sabunların olmadığı, elektrik açar qapaqlarının nasaz vəziyyətdə olduğu, işıqlandırmanın normalara uyğun olmadığı, yataqxana korpusu divarlarının rütubət nəticəsində aşınmaya məruz qaldığı müşahidə edilmişdir. İstirahət otaqlarının müvafiq inventarlarla təchiz olunmasına ehtiyac var.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlara saxlanma şəraiti, tibbi xidmət və sənədləşmə ilə bağlı milli qanunvericiliyə və beynəlxalq sənədlərə müvafiq şəkildə tövsiyələr verilmiş, habelə Ombudsmanın əlaqə vasitələrini əks etdirən plakatlar və MPM-in fəaliyyətinə dair məlumatlandırıcı bukletlər təqdim olunmuşdur.

### 2.2.5. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Müəssisələri

2022-ci il ərzində Ombudsman və onun Milli Preventiv Qrupunun üzvləri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə 6 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu, beynəlxalq standartlar, CPT və SPT tövsiyələri, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası", "Psixi xəstə şəxslərin müdafiəsi və psixiatrik yardımın yaxşılaşdırılması Prinsipləri", BMT-nin ahıl şəxslərə dair Prinsipləri, BMT Baş Assambleyasının Əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı üzrə tövsiyələri əsasında həyata keçirilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ***Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə*** plandankənar başçəkmələr həyata keçirilmişdir.

Müəssisəyə həyata keçirilən ilk başçəkmədə məqsəd Şamaxı rayonunun İkinci Çaylı kəndində uşaqların baxımsız və sosial təhlükəli vəziyyətdə olması ilə bağlı sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində yayılmış məlumatın və müəssisəyə yerləşdirilən 5 azyaşlının vəziyyətinin araşdırılması olmuşdur[2].

Ombudsman həmin uşaqlarla görüşərək, onların saxlanma şəraiti, səhhəti, psixoloji durumu, həmçinin təhsil və digər hüquqlarının müdafiəsi ilə bağlı vəziyyəti öyrənmişdir. Ombudsman həmçinin məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası şöbəsində yerləşdirilən qadın və uşaqlarla fərdi və qrup şəkildə görüşmüş, müəssisənin ərazisinə baxış keçirmişdir.

MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin ***1 saylı psixonevroloji sosial xidmət müəssisəsinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokol və Ombudsman haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd Müəssisədə yaşayan şəxslərin hüquqlarının təminatı vəziyyətinin, habelə saxlanma şəraitinin və rəftar məsələlərinin öyrənilməsindən ibarət olmuşdur.

Başçəkmə zamanı Müəssisənin bütün obyektlərinə, o cümlədən yataq otaqlarına, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş yerlərə, yeməkxanaya, mətbəxə və ümumi əraziyə baxış keçirilmişdir.

Saxlanma şəraitinin öyrənilməsi məqsədilə yataq otaqlarına baxış zamanı otaqların təmiz və səliqəli olduğu müşahidə edilmişdir.

---

[2] https://azerbaijan-news.az/az/posts/detail/ombudsman-samaxi-rayonunun-ikinci-cayli-kendinde-sosial-tehlukeli-veziyyetde-olan-ve-sosial-xidmet-muessisesine-yerlesdirilen-usaqlarla-gorusub-1642447374

Başçəkmə zamanı MPQ üzvləri Müəssisədə yaşayan şəxslərlə fərdi şəkildə görüş keçirilmiş və hüquqlarının təminatı vəziyyəti öyrənilmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbət aparılmış, əlilliyi olan şəxslərin hüquqlarının həyata keçirilməsi, təbliği və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmiş, müəssisə sakinlərinin görə biləcəyi bir yerdə asılması məqsədilə Ombudsmanın "916 Çağrı Mərkəzi"nin əlaqə vasitələrini əks etdirən plakat təqdim olunmuşdur.

MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən Sosial Xidmətlər Agentliyinin ***1 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müxtəlif yaş qruplarından olan və Müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, əvvəlki başçəkmə zamanı müəyyən olunmuş nöqsanların aradan qaldırılması vəziyyətinin öyrənilməsi olub.

Başçəkmə zamanı Müəssisənin bütün obyektlərinə, o cümlədən yataq otaqlarına, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş yerlərə, tibb otaqlarına, yeməkxanaya, mətbəxə, reabilitasiya otaqlarına və digər yerlərə baxış keçirilmişdir.

Müəssisənin Nizamnaməsində burada yaşayan sakinlərin maksimal yaş həddi 18 qeyd olunsa da, burada 52 nəfər 18 yaşdan yuxarı şəxslərin yaşadığı müəyyən edilmişdir. Müəssisənin direktoru buna səbəb kimi böyüklər üçün nəzərdə tutulmuş psixonevroloji sosial xidmət müəssisələrinə yerləşdirilmənin növbəlilik prinsipi əsasında aparılmasını qeyd etmişdir.

Müəssisənin psixoloqu ilə söhbət zamanı, o, uşaqlarla aparılan psixoloji işin qeydiyyatı üçün standartlaşdırılmış formaların, o cümlədən didaktik materialların yetəri sayda olmadığını bildirmişdir.

Uşaqların sosial işçi tərəfindən doldurulan fərdi inkişaf planlarına baxış keçirilən zaman, bəzi planların qismən və ya ümumiyyətlə doldurulmadığı, o cümlədən onların mütəmadi olaraq yenilənmədiyi müşahidə edilmişdir.

Müəssisədə emalatxanaların, fərqli məşğələlər keçirmək üçün otaqların olduğu, uşaqların reabilitasiyası üçün nəzərdə tutulan hovuzun təmirə bağlandığı, idman zalının idman müəlliminin məzuniyyətdə olması səbəbilə bağı saxlanıldığı müşahidə edilmişdir.

Başçəkmə zamanı uşaqların təqdim olunmuş gündəlik cədvəllərinə uyğun olaraq məşğələlərə cəlb edilmədiyi müəyyən olunmuşdur.

Müəssisəyə növbəti başçəkmə zamanı saxlanma şəraiti ilə bağlı aşkar edilmiş nöqsanların aradan qaldırılmadığı, yataq otaqlarındakı çarpayıların olduqca sıx yerləşdirildiyi, bəzi otaqlarda isə bitişik vəziyyətdə olduğu müəyyən edilmişdir. Kondisionerlərin yalnız bəzi otaqlarda olduğu, işıqlandırmanın zəif olduğu və normalara cavab vermədiyi, ventilyasiya sisteminin işləmədiyi, bütün müəssisədə xoşagəlməz qoxunun olduğu, sanitar qovşaqlarda sanitar-gigiyena norma və qaydalarının kobud şəkildə pozulduğu müəyyən edilmişdir. Müəssisə əlilliyi olan şəxslər üçün nəzərdə tutulsa da, bəzi sanitar qovşaqlarda tutacaqların quraşdırılmadığı müşahidə edilmişdir.

Uşaqların şəxsi işlərinə baxış zamanı, sənədlərin natamam halda olduğu, "Psixotrop preparatların təyinat jurnalının" qaydalara uyğun tərtib olunmadığı müşahidə edilmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbət aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi, təbliği və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir. Belə ki, uşaqlara qarşı gələcəkdə baş verə biləcək zorakılığın qarşısının alınması məqsədilə müvafiq tədbirlərin, o cümlədən davranış kodeksi kimi sənədin işlənib hazırlanmasının, ştat cədvəlinə uşaq inkişaf mütəxəssisi vakant yerlərinin əlavə olunmasının, uşaqların ailələri ilə ünsiyyətin dəstəklənməsinin vacibliyi qeyd olunmuşdur.

MPQ üzvləri tərəfindən ***Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokol, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, "Sosial xidmət haqqında" AR Qanununun, "Avropa Sosial Xartiyasında" nəzərdə tutulmuş normaların və Ombudsman haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanma şəraitinin, rəftar məsələlərinin araşdırılmasından, sosial-psixoloji vəziyyətləri həssas və xüsusi sosial xidmətlərin göstərilməsi ehtiyacı olan ahılların hüquqlarının təminatı ilə əlaqədar vəziyyətin öyrənilməsindən ibarət olmuşdur.

Qeyd olunanlar əsas götürülərək, başçəkmə çərçivəsində müəssisənin fərdi otaqlardan ibarət hər iki korpusuna, yeməkxana, anbar, tibb məntəqəsi, camaşırxana, növbətçi hissə və digər obyektlərə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, su və istilik təminatı, gəzinti, görüş, habelə tibbi yardımın təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmış, işçilərlə və ahıl sakinlərlə görüş keçirilmişdir.

Başçəkmə çərçivəsində əvvəlki monitorinqlər zamanı müəyyən olunmuş problemlərin davam etdiyi müşahidə olunmuşdur. Müəssisənin ümumi vəziyyətinin qənaətbəxş olmadığı, yataqxana və yeməkxana korpuslarının əsaslı təmirə, avadanlığın isə yenilənməsinə, otaqların daha yaxşı işıqlandırılmasına ehtiyacın olduğu müəyyən edilmişdir.

Müəssisədə tibb hissəsinin qənaətbəxş olduğu müşahidə edilsə də, depoda dərman vasaitlərinin kifayət qədər az olduğu müəyyən edilib və dərman təminatının cari il ərzində olunmadığı rəhbərlik tərəfindən bildirilmişdir.

Başçəkmə zamanı yataq otaqlarının vəziyyətinin qənaətbəxş olmadığı, kondisioner sisteminin işləmədiyi, siqnal düymələrinin olmadığı, bəzi otaqların natəmiz olduğu, süni işıqlandırmanın ümumi qəbul olunmuş texniki normalara uyğun olmadığı müəyyən edilmişdir.

Camaşırxanaya baxış zamanı burada müasir avadanlığın olmaması, mövcud avandanlıqların təmirə ehtiyacının olduğu müşahidə edilmişdir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə müəssisədə yaşayan bir neçə ahıl şəxslə görüş keçirilmiş, onlarla müvafiq söhbət aparılmışdır. Onlar bəzi əməkdaşların ahıllarla diqqətsiz davrandıqlarını, lakin rəftardan əsasən razı oldularını bildirmişlər.

Ombudsman Aparatına müraciət edən müəssisə sakini ilə də başçəkmə çərçivəsində görüş keçirilmişdir. O, əvvəllər mövcud olan problemlərinin aradan qaldırıldığını, yaşadığı şəraitdən razılığını qeyd etmiş, Ombudsmana təşəkkürünü bildirmişdir.

Sonda müəssisənin direktoru ilə yekun söhbət aparılmış, müəyyən edilmiş çatışmazlıqlar onun diqqətinə çatıdırlmış və aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

### 2.2.6. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri

2022-ci ildə Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən Bakı şəhər İcra Hakimiyyətinin tabeliyində olan **1 saylı, 2 saylı və 3 saylı Uşaq Evlərinə** planlı başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd müxtəlif yaş qruplarından olan uşaqların hüquqlarının təmini, əvvəlki başçəkmələr zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılması və verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, o cümlədən Ombudsman tərəfindən elan edilmiş, 20 oktyabr - 20 noyabr tarixlərini əhatə edən "Uşaq hüquqları aylığı" çərçivəsində hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsi olmuşdur.

Başçəkmələr zamanı adıçəkilən müəssisələrin bütün ərazisinə baxış keçirilmiş, sosial xidmətin təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır. Rəftar məsələlərinin araşdırılması məqsədilə müəssisə rəhbərliyi, əməkdaşlar və uşaqlarla fərdi müsahibələr aparılmışdır.

Hər üç müəssisədə sıxlığın olduğu, uşaqların standartlara uyğun yaş kateqoriyalarına görə qruplaşdırılmadığı, çarpayıların olduqca sıx yerləşdiyi, bununla yanaşı müəssisələrin bəzi hissələrinin təmirə ehtiyacının olduğu müşahidə edilmişdir.

2 saylı Uşaq evində tibb xidmətinə aid nöqsanların aradan qaldırıldığı müşahidə edilmişdir. Belə ki, tibb hissəsinə baxış keçirilən zaman buranın stomatoloqu əvvəlki başçəkmə çərçivəsində verilmiş tövsiyələrin nəzərə alındığını və uşaqların ortodontik müalicəyə cəlb olduqlarını bildirilmişdir. Eyni zamanda, uşaqlarla psixoloji işin aparılması məqsədilə müəssisədə 1 psixoloqun, 2 loqopedin fəaliyyət göstərdiyi, habelə Heydər Əliyev Fondunun dəstəyi ilə Türkiyədən mütəxəssislərin cəlb olunduğu müşahidə edilmişdir.

3 saylı Uşaq evinin direktoru əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələr nəzərə alınaraq uşaqların fərdi inkişaf planlarının tərtib olunduğunu bildirmişdir.

Sanitar qovşaqlarda təmir işləri aparılmış, uşaqların şəxsi gigiyenik əşyalarının təmiz saxlanılması üçün müvafiq tədbirlər görülmüşdür. Öncəki başçəkmə zamanı verilmiş tövsiyələr nəzərə alınaraq uşaqların şəxsi əşyalarını yerləşdirmək üçün nəzərdə tutulan dolabçaların sayı artırılmışdır.

Başçəkmə ilə yanaşı hər üç müəssisədə uşaqların, habelə psixoloq və tərbiyəçilərin iştirakı ilə keçirilən təlimlər zamanı uşaq hüquqlarına dair mövcud normativ hüquqi aktlar və hüquqi müdafiə vasitələri haqqında məlumat verilmişdir. Eyni zamanda, ayrı-seçkilik və onunla mübarizə üsulları, uşaqların istismar, sui-istifadə, laqeyd rəftar, erkən nikah, uşaq əməyi, zərərli təsirlərdən mühafizəsi məsələlərinə toxunulmuşdur.

Yekunda müəssisələrin rəhbərliyi və məsul əməkdaşlara saxlanma şəraiti, tibbi xidmət və sənədləşmə ilə bağlı milli qanunvericiliyə və beynəlxalq sənədlərə müvafiq şəkildə tövsiyələr verilmişdir.

Milli Preventiv Qrupun üzvləri tərəfindən ***Şəki Qarışıq Tipli Uşaq Evinə*** planlı başçəkmə keçirilmişdir.

Başçəkmədə məqsəd valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların saxlanma şəraitinin, rəftar məsələlərinin araşdırlmasından ibarət olmuşdur.

Başçəkmə zamanı müəssisənin direktoru məlumat verərək 0.5 ştat həkim-terapevt ştatının vakant olduğunu, əmək haqqı az olduğuna görə heç kimin işləmək istəmədiyini bildirmişdir.

Müəssisənin tibb, istirahət, yataq, əmək, oyun otaqlarına, kitabxanaya, ərzaq anbarına, mətbəxə, yeməkxanaya, idman zalına, çamaşırxanaya baxış zamanı təmizlik və səliqə-səhmanın qənaətbəxş olduğu, təmir-bərpa işlərinə ehtiyac olmadığı müşahidə edilmişdir.

Havalandırma sisteminin isə öncəki monitorinqlər zamanı müşahidə edildiyi kimi çalışmadığı müəyyən olunmuşdur. Müəssisənin direktoru elektrik enerjisi üçün ayrılmış limitin az olması səbəbli havalandırma sisteminin daimi işlədilməsinin mümkün olmadığını bildirmişdir.

Başçəkmənin gedişində Ombudsman tərəfindən elan edilmiş "Uşaq hüquqları aylığı" çərçivəsində uşaqlarla görüş keçirilmiş, onlara Uşaq Hüquqları Konvensiyası, "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun müddəaları, uşaq hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyəti barədə məlumat verilmişdir. Həmçinin rəftar məsələlərinin araşdırılması üçün uşaq evinin əməkdaşları ilə ümumi və bir neçə uşaqla konfidensial və təkbətək görüş keçirilmiş, onlarla fikir mübadiləsi aparılmışdır. Təsadüfi seçim əsasında qəbul edilmiş uşaqlar narazılıqlarının olmadığını bildirmişlər.

Yekunda müəssisənin rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanma şəraiti, tibbi xidmət və sənədləşmə ilə bağlı tövsiyyələr verilmişdir.

### 2.2.7. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin tabeliyindəki müəssisə

Ombudsmanın tapşırığı ilə MPQ üzvləri tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət vergi xidmətinin ***Vergi cinayətlərinin ibtidai araşdırılması baş idarəsinin müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı Müəssisənin inzibati binasının yeni təmir olunduğu, saxlanma kameraları və digər otaqların standartlara uyğun olduğu müəyyən edilmişdir.

Başçəkmə zamanı, müvəqqəti saxlama yerində hər hansı saxlanılan şəxs müşahidə edilməmiş, habelə müəssisənin rəhbərliyi tərəfindən verilən məlumata əsasən həmin inzibati binada fəaliyyətə başladıqları dövrdən saxlanılan şəxs olmamışdır.

Müəssisənin kameralarının giriş hissəsində saxlanılan şəxslərin hüquqlarını əks etdirən müvafiq lövhələrin vurulmadığı, qeydiyyat jurnallarında möhürlənmənin aparılmadığı müşahidə edilmişdir. Başçəkmə keçirilənə qədər müəssisədə saxlanılan şəxs olmasa da, gələcəkdə buranın fəaliyyətinin təkmilləşdirilməsi və səmərəli işin təşkili olunması məqsədilə tərəfimizdən müəssisə rəhbərliyinə qanunvericiliyin tələbləri izah edilmişdir.

Ümumilikdə müvəqqəti saxlama yerində saxlanma şəraitini qənaətbəxş hesab etmək olar.

### 2.2.8. Dövlət Miqrasiya Xidmətinin tabeliyindəki müəssisə

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Dövlət Miqrasiya Xidmətinin Qanunsuz miqrantların saxlanılması mərkəzlərinə də preventiv başçəkmələr həyata keçirilir.

2022-ci ildə Milli Preventiv Qrupun üzvləri tərəfindən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin ***Bakı şəhər Qanunsuz miqrantların saxlanılması mərkəzinə*** başçəkmə həyata keçirilmişdir.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil edilmiş başçəkmədə məqsəd daxil olmuş müraciətlərin, saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, məcburi və könüllü qaydada saxlanılan şəxslərin daxili intizam Qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Mərkəzin iş rejimi, şəraitlə tanış olmaq məqsədilə müəssisənin yaşayış otaqlarına, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin istifadə etdiyi digər tikililərə baxış keçirilmiş, müəssisə rəhbərliyi, tibb məntəqəsinin həkimi və saxlanılanlarla söhbət aparılmışdır. Onlar saxlanma şəraiti və rəftardan narazılıq bildirməmişlər.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, SPT və CPT standartlarına müvafiq şəkildə saxlanma şəraiti, tibbi xidmət və sənədləşmə və telefon danışıqları ilə bağlı çatışmazlıqların aradan qaldırılması üzrə müvafiq tövsiyələr verilmişdir

# BÖLMƏ 3

## HÜQUQİ TƏHLİL

Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində həyata keçirilən fəaliyyət istiqamətlərindən biri də preventiv başçəkmələr və hüquqi maarifləndirmə tədbirləri zamanı əldə olunmuş məlumatların hüquqi təhlilidir.

Ombudsman və MPQ üzvləri tərəfindən həyata keçirilən başçəkmələr çərçivəsində şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə qəbullar zamanı Müvəkkilə ünvanlanmış yazılı müraciətlərlə yanaşı, 24 saat fəaliyyət göstərən 916 Çağrı Mərkəzinə daxil olan zənglərin mahiyyəti də təhlillər üçün əhəmiyyətli olmuşdur.

Şəxslərin maraqlarına bu və ya digər şəkildə toxunan normaların hüquqi təhlili nəticəsində hazırlanmış təklif və tövsiyələr Müvəkkil tərəfindən aidiyyəti dövlət orqanlarına göndərilir və əsas etibarilə öz müsbət həllini tapır.

Müvəkkil ölkənin daxili işlər orqanları sistemində aparılan islahatları, fəaliyyətin təkmilləşdirilməsi istiqamətində görülən işləri müsbət qiymətləndirir və bu istiqamətdə ehtiyac duyulan işlərə nəzarətin gücləndirilməsi və çətinliklərin aradan qaldırılmasını tövsiyə edir.

Polis orqanlarının müvəqqəti saxlama yerlərinə keçirilən başçəkmələr zamanı rəftar məsələləri ilə bağlı bəzi nöqsanlar aşkar edilmişdir. Ombudsmanın Çağrı Mərkəzinə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən pis rəftar ehtimalı ilə bağlı müraciətlər də olmuşdur.

Həmin şikayətlər üzrə dərhal müvafiq qurumlara müraciətlər edilmiş, zəruri araşdırmalar aparılmış, qanunamüvafiq tədbirlər görülmüşdür.

Ərizəçi Ombudsmana müraciət edərək, küçə ticarəti ilə məşğul olarkən saxlanılaraq Xətai Rayon Polis İdarəsinin 34-cü Polis şöbəsinə aparıldığını, kobud rəftara məruz qaldığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış sorğuya verilmiş cavabda rəftarla bağlı xüsusatların öz təsdiqini tapmadığı bildirilsə də, şikayətə zəmin yaradan hallara yol verdiyinə görə müvafiq polis nəfərinə ciddi xəbərdarlıq edildiyi və xidmət yerinin dəyişdirildiyi qeyd olunmuşdur.

Başqa bir ərizəçi Ombudsmana müraciət edərək, Cəlilabad Rayon Polis Şöbəsinin Göytəpə polis bölməsinin əməkdaşları tərəfindən övladları ilə kobud rəftar edildiyini, təhqir olunduqlarını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, həmin polis şöbəsinin post-patrul xidməti bölüyünün manqa komandiri və polis nəfəri daxili işlər orqanları əməkdaşlarının etik davranış kodeksinin tələblərini pozaraq ünsiyyətdə kobudluğa və nəzakətsizliyə yol verdiklərinə görə şöbə rəisinin müvafiq əmri ilə intizam məsuliyyətinə cəlb olunmuşlar.

DİN-in tabeliyindəki müəssisələrdə müşahidə edilən nöqsanlardan biri müxtəlif kateqoriyadan olan şəxslərin bir yerdə saxlanılmasıdır. Həyata keçirilən başçəkmələrdə bu hal müşahidə etdiyimiz, aradan qaldırılması vacib məsələlərdəndir.

İstər beynəlxalq standartlar, istərsə də, milli qanunvericilik müxtəlif kateqoriyadan olan tutulmuş və ya həbs edilmiş şəxslərin kameralarda ayrılıqda saxlanılmasını tələb edir. Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikası Qanununa əsasən ilk dəfə cinayət törətmiş şəxslər əvvəllər azadlıqdan məhrum etmə yerlərində cəza çəkmiş şəxslərdən, eyni zamanda CİM-də nəzərdə tutulmuş hallar istisna olmaqla, tutulmuş və ya həbs edilmiş şübhəli və ya təqsirləndirilən şəxslər, barəsində qanuni qüvvəyə minmiş hökm olan məhkumlardan ayrı saxlanılırlar.

Son dövrlər polis idarə və şöbələrinin müvəqqəti saxlama yerlərində aparılan təmir işləri bu yerlərdə saxlanma şəraitinin təkmilləşdirilməsinə imkan versə də, gəzinti yerləri

ilə bağlı tələblərə bəzi hallarda riayət edilmədiyi müşahidə olunmuşdur. 2022-ci ildə başçəkmə keçirilmiş Nizami, Səbail, Pirallahı və Abşeron rayon polis idarələrində gəzinti yerinin standartlara uyğun təşkil olunmadığı aşkar edilmişdir.

Belə ki, başçəkmə həyata keçirilən bəzi müəssisələrdə gəzinti sahəsində oturacaqların olmaması, həmin yerlərin üstünün tam bağlı olması, bəzilərində ümumiyyətlə açıq olması saxlanılan şəxslərin açıq havada fiziki hərəkətlər etmək hüququ ilə bağlı tələblərin təmin olunmasında çətinliklər yaradır.

Saxlanılan şəxslərin vaxtlarının çox hissəsini təbii işıq və təmiz havaya çıxışı məhdud olan qapalı yerlərdə keçirdiyini nəzərə alaraq, hər kəsin ən azı bir saatdan az olmayaraq açıq havada fiziki hərəkətlərlə məşğul olmaq imkanı təmin edilməlidir. Açıq havada, günəş işığı altında digər saxlanılan şəxslərlə və ya təkbaşına gəzinti və fiziki hərəkətkər onların əqli və fiziki salamatlılığı üçün çox əhəmiyyətlidir.

İstər cəzaların icrası qanunvericiliyində, istərsə də həbs yerlərinin daxili intizam Qaydalarında gəzinti sahəsinin təşkili ilə bağlı normalar açıq havada fiziki hərəkətlərə imkan yaratmaq öhdəliyinin icrası üçün qaneedici sayıla bilməz. Bu baxımdan, həmin normativ sənədlərdə gəzinti yerləri ilə bağlı tələblər beynəlxalq standartların tələblərinə uyğunlaşdırılmaqla kifayət qədər aydın əks olunması məqsədəmüvafiqdir.

DİN-ə tabe müəssisələrdə təkmilləşdirilməsinə ehtiyac olan məsələlərdən biri də sənədləşmə ilə bağlı işin təşkilidir. Həyata keçirilən başçəkmələr zamanı belə müəssisələrdə müxtəlif qeydiyyat kitablarına baxış zamanı müəyyən nöqsanlar, belə kitabların qaytanlanıb möhürlənmədiyi, saxlanılan şəxslərlə bağlı görülmüş bütün tədbirlər, o cümlədən azad edilmənin tarixi və saatı barədə qeydlərin aparılmaması aşkar edilmişdir.

Bu baxımdan qeyd edilməlidir ki, İşgəncənin və digər qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (CPT) hesab edir ki, hər bir tutulmuş şəxsin qeydə alındığı, saxlanmanın bütün aspektlərini və həbsə alınanlar barəsində görülən bütün tədbirləri əks etdirən əhatəli vahid qeydiyyat aparılsa, polis tərəfindən saxlanılmış şəxslər üçün əsas təminatlar gücləndirilmiş olar və öz növbəsində polis əməkdaşlarının işi xeyli asanlaşardı.

Pis rəftar hallarının qarşısının alınması yollarından biri kimi, Müvəkkil, polis tərəfindən azadlıqdan məhrum edilmiş şəxslərin İQAK-ın xüsusi əhəmiyyət verdiyi 3 əsas hüququnun təmin edilməsinə nəzarətin gücləndirilməsini tövsiyə edir. Bunlar şəxsin özünün istədiyi üçüncü şəxsə həbsə alındığı barədə məlumat vermək, vəkillə və həkimlə görüşmək (polis orqanlarının çağırdığı həkim tərəfindən həyata keçirilmiş tibbi müayinədən əlavə, tutulmuş şəxsin arzusu əsasında istədiyi həkim tərəfindən müayinə olunmaq hüququ) hüquqlarıdır.

Başçəkmələr zamanı, bəzi müəssisələrdə telefon aparatının işləmədiyi, bəzilərində ümumiyyətlə telefon köşkünün olmadığı, saxlanılan şəxslərin danışıqları üçün polis əməkdaşlarının mobil telefonlardan istifadə olunduğu müəyyən edilmişdir. Bu isə, telefon danışığının təminini çətinləşdirən, neqativ hallara yol aça bilən məqamlar kimi qiymətləndirilir. Ombudsman bütün yerlərdə telefon aparatlarının quraşdırılması, telefon danışıqları ilə bağlı qeydiyyatın təkmil aparılmasını tövsiyə edir.

Eyni zamanda, MSY-lərdə saxlanılan şəxslərin sağlamlıq hüququ kontekstində onların ehtiyac yarandığı halda keyfiyyətli dərman vasitələri ilə təmin edilməsi vacibdir. Bəzi hallarda istifadə müddəti bitmiş dərman preparatlarına MSY-lərdə hələ də rast gəlinir.

Saxlanılan şəxslərin müxtəlif hüquqlarının təminatının səmərəli şəkildə həyata keçirilməsi üçün bu şəxslərin öz hüquqları barədə məlumatlandırılması məqsədəuyğundur. Buna görə də, başçəkmələr zamanı monitorinq edilən məsələlərdən biri də tutulmuş və ya həbs edilmiş şəxlərin hüquqlarının əks olunduğu lövhələrin mövcudluğudur. Ombudsman belə lövhələrin saxlanılan bütün şəxslərin aydın şəkildə və rahat oxuya biləcəyi yerlərdə asılmasını tövsiyə edir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin tabeli müəssisələrində sıxlıq problemi əsas etibarilə istintaq təcridxanalarında rast gəlinir. Belə

ki, 2500 nəfər üçün nəzərdə tutulmuş Bakı İstintaq Təcridxanasında bir başçəkmə zamanı 3300-dən, digər baçəkmə zamanı isə 3500-dən çox şəxsin, eyni zamanda 700 nəfər üçün nəzərdə tutulmuş 2 saylı İstintaq Təcridxanasında (Gəncə) 800 nəfərin, 1050 nəfər üçün nəzərdə tutulmuş 3 saylı İstintaq Təcridxanasında (Şüvəlan) 1400-dən çox şəxsin saxlanıldığı müəyyən edilmişdir. Qadın məhkumlar üçün nəzərdə tutulan 4 saylı cəzaçəkmə müəssisəsində də sıxlıq mövcud olmuş, lakin 2022-ci ilin əvvəllərində müəssisənin yeni və müasir binaya köçürülməsi ilə bu problem aradan qalxmışdır. 17 saylı cəzaçəkmə müəssisəsində də müəyyən olunmuş həddən artıq sayda məhkumun saxlanıldığı müşahidə edilmişdir. 11 saylı cəzaçəkmə müəssisəsində isə 5 nəfər üçün nəzərdə tutulmuş cərimə otaqlarında 6-7 nəfərin saxlanıldığı aşkar edilmişdir.

Sıxlıq çox ciddi problem olmaqla yanaşı, saxlanılan şəxslərlə rəftar, onların sağlamlığı, təhlükəsizliyi və islah olunması sahəsində bir sıra ciddi əlavə problemlərin mənbəyidir. CPT də Ümumi Tövsiyələrində qeyd edir ki, saxlanılan şəxslərin sayı nəzərdə tutulandan artıq olarsa, bu, həmin müəssisənin daxilindəki bütün xidmətlərə və fəaliyyətlərə mənfi təsir göstərə və müəssisədəki ümumi həyat səviyyəsinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb ola bilər[3]. Qeyd olunanlar nəzərə alınaraq, penitensiar müəssisələrdə şəxslərin yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə və beynəlxalq standartlara riayət edilməlidir.

Son illər cərimə təcridxanasına keçirilmə hallarında azalma müşahidə olunsa da, bəzi müəssisələrdə hələ də bu tənbeh növünün seçilməsinə üstünlük verilir. Başçəkmə günü 935 məhkumun saxlanıldığı 1 saylı cəzaçəkmə müəssisəsində 14, 1077 nəfərin saxlanıldığı 11 saylı cəzaçəkmə müəssisəsində 37, 1088 nəfərin saxlanıldığı 17 saylı cəzaçəkmə müəssisəsində isə 34 nəfərin cərimə təcridxanasında olması daxili intizam qaydalarını pozan şəxslər barəsində tətbiq edilən tənbeh tədbirləri sırasında cərimə təcridxanasında yerləşdirmənin üstünlük təşkil etdiyini göstərir ki, bu da həmin müəssisələrdə islah işlərinin effektivliyinin qənaətbəxş səviyyədə olmamasından xəbər verir.

Monitorinqlər zamanı məhkum barəsində cərimə təcridxanasına keçirilməyə dair qərarların məhkumlara elan edilməməsi, məhkumların təhlükəsizliyi səbəbindən 6-7 ay cərimə təcridxanasında saxlanılmaları, qəbul edilən tənbeh tədbirinin uzun müddətli olması hallarına da rast gəlinmişdir.

Beynəlxalq təcrübəyə əsaslanaraq və qanunvericiliyin verdiyi imkanlardan istifadə edərək, rejim pozuntularına görə cərimə təcridxanasına keçirilmə əvəzinə inzibati tənbeh kimi xəbərdarlıq və ya töhmətin tətbiq edilməsi məqsədəmüvafiqdir. Rejim pozuntusu hallarının azaldılması məqsədilə cinayət törətmiş şəxslərin islah olunması və cəmiyyətə yenidən inteqrasiyasına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. İslah işini gücləndirməklə vaxtından əvvəl şərti azad olunma və ya daha yüngül rejimli müəssisəyə keçirməklə qarşıya qoyulmuş məqsədlərə nail olmaq mümkündür.

Monitorinqlər zamanı Penitensiar Xidmətin tabeliyindəki bir sıra müəssisələrin əsaslı və ya cari təmirə ehtiyacının olduğu müşahidə edilmişdir. 2 və 3 saylı istintaq təcridxanalarının, Penitensiar Xidmətin Həbsxanasının istismar müddətini başa vurmuş binalardan yeni binalara köçürülməsinin sürətləndirilməsi, bəzi müəssisələrdə (xüsusilə, 1 və 17 saylı cəzaçəkmə müəssisələrinin cərimə təcridxanaları) əsaslı təmir işlərinin görülməsi zəruridir.

Penitensiar Xidmətin tabeliyindəki müəssisələrdə də müxtəlif kateqoriyadan olan şəxslərin bir yerdə saxlanılması müşahidə edilir. Məsələn, 2 saylı İstintaq Təcridxanasına həyata keçirilən bütün başçəkmələrdə yetkinlik yaşına çatmayan şəxsin digərləri ilə birlikdə saxlanıldığı müəyyən edilmişdir. Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikası Qanununun 35-ci maddəsi yetkinlik yaşına çatmayanların yetkinlik yaşına çatanlardan ayrı saxlanılmasını

[3] CPT, GR2, 46

tələb edir. Avropa Penitensiar Qaydalarının 11-ci qaydasına əsasən yetkinlik yaşına çatmayanlar onları zərərli təsirlərdən mümkün qədər qoruyan və yaşlarına xas olan tələbatlarını nəzərə alan şəraitdə saxlanılmalıdır.

Başçəkmələrin nəticələrinin, habelə Ombudsmana ünvanlanan müraciətlərin təhlili onu deməyə əsas verir ki, tibbi xidmətə əlçatanlıqla bağlı problemlər hələ də qalmaqdadır. Bu sahədə Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülmə ilə bağlı müraciətlər nisbətən çoxluq təşkil etmişdir. Belə müraciətlər üzrə görülmüş tədbirlər nəticəsində ehtiyacı olan şəxslərin müayinə və müalicəsinin həmin müəssisədə davam etdirilməsi təmin olunmuşdur. Şəxslərin zəruri dərmanlarla təmin edilməməsi, müalicənin keyfiyyətli aparılmaması ilə bağlı da müraciətlər daxil olmuşdur.

Bəzi hallarda şəxslər zəruri dərmanlarla təmin edilmədiklərini, müalicənin keyfiyyətli aparılmadığını, müraciətlərinə baxmayaraq Penitensiar Xidmətin Müalicə Müəssisəsinə göndərilmədiklərini bildirmişlər.

Penitensiar müəssisələrin cərimə təcridxanalarında saxlanılan şəxslərin səhhətinə tibb işçiləri tərəfindən gündəlik nəzarətin bəzi hallarda formal xarakter daşıması, müvafiq jurnallarda aparılan qeydlərdə düzəlişlərin edilməsi və ya belə qeydlərin düzgün aparılmaması halları mövcuddur.

Eləcə də Müalicə Müəssisəsinə göndərilmə, müayinə və müalicə məsələlərində operativliyin olmamasının fəsadlar törətdiyi, yemək qəbulundan imtina edən, cərimə təcridxanasına keçirilmiş məhkumlara münasibətdə qeyri-uyğun yanaşmalar da müşahidə edilmişdir.

Başçəkmələrin təhlili penitensiar müəssisələrdə psixoloji yardımla bağlı çatışmazlıqların olması qənaətinə gəlməyə də əsas verir. “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə dövlət hesabına psixoloji xidmətin göstərilməsi üçün hüquqi bazanın formalaşmasına baxmayaraq, qapalı müəssisələrdə saxlanılan və psixi sağlamlığına potensial təhlükə yarana biləcək şəxslərə keyfiyyətli və adekvat yardımın göstərilməsinə ciddi ehtiyac vardır.

Başçəkmələr zamanı dövlət uşaq müəssisələrində bir sıra sistematik çatışmazlıqların olduğu müəyyən edilmişdir. Belə ki, sağlamlıq imkanları məhdud uşaqların təhsil aldığı müxtəlif tipli internat məktəblərində xüsusi təhsilə aid dövlət standartlarının, təhsil proqramlarının (kurikulum), bəzi internat məktəblərinin ibtidai sinif dərslikləri istisna olmaqla dərs vəsaitlərinin, valideynlər və müəllimlər üçün metodiki vəsaitlərin demək olar ki, mövcud olmadığı, bəzi xüsusi internat məktəblərində peşə hazırlığının təşkili üçün müvafiq tədris-maddi bazanın olmadığı, peşə öyrədilən xüsusi təhsil müəssisələrinin məzunlarına müvafiq təhsil sənədi ilə yanaşı, dərəcə göstərməklə peşə təhsili barədə şəhadətnamənin verilmədiyi, bununla yanaşı, xüsusi peşə təhsili üzrə dövlət standartlarının və təhsil proqramlarının olmadığı müəyyən edilmişdir.

Bəzi hallarda müəssisənin adının və təyinatının dəyişdirilməsinə baxmayaraq bunun sənədlərdə təsbit olunmadığı, nizamnamələrdə “kar”, “yetim”, “qüsurlu” və digər buna bənzər insan ləyaqətini alçaldan sözlərdən istifadə edildiyi, zəruri tibbi preparatların çatışmazlığı və həkim ştatlarının vakant olduğu, yararlılıq müddəti bitmiş dərmanların istifadədən çıxarılmadığı, tibbi kartların doldurulmadığı müəyyən edilmiş, içməli su təminatında çatışmazlıqların, həmçinin bir sıra internat məktəblərinin əsaslı təmirə ehtiyacının olduğu və oradakı şəraitin normativlərə uyğun gəlmədiyi aşkar edilmişdir.

“Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş, eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları”nda təsbit olunmuş fəaliyyət istiqamətlərinin icra vəziyyətinin qənaətbəxş olmadığı, bəzi müəssisələrdə psixoloq ştatının vakant olduğu, psixoloji və loqopedik işin aparılması üçün nəzərdə tutulmuş didaktik materialların çatışmadığı müəyyən edilmişdir.

Milli Preventiv Mexanizm qismində həyata keçirilən başçəkmələr zamanı uşaqların saxlanıldığı bir sıra müəssisələrdə psixoloq ştatının vakant olduğu, psixoloqun fəaliyyət

göstərdiyi müəssisələrdə isə uşaqlarla aparılan psixoloji işin qənaətbəxş olmadığlı müşahidə edilir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "İnternat məktəblərinin, internat tipli liseylərin və gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında" və "Əqli və fiziki inkişafında pozuntular olan uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəblərinin rəhbər işçiləri, inzibati-təsərrüfat, tədris-yardımçı və xidmət işçiləri heyətinin nümunəvi ştatları haqqında" Qərarlarına əsasən internat məktəblərində, internat tipli liseylərdə, gimnaziyalarda və digər müəssisələrdə psixoloq sayı sinif (şagird) sayından asılı olmayaraq bir nəfər müəyyən edilmişdir. Yuxarıda göstərilən müəssisələrdə təhsil alanların aztəminatlı, zəruri sosial-məişət şəraiti olmayan ailələrin uşaqları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar olduğunu, bir hissəsinin eyni zamanda sağlamlıq imkanları məhdud olan uşaqlar təşkil etdiyini nəzərə alaraq, uşaqların psixi sağlamlığı və inkişafı üçün psixoloq sayının artırılması, vakant yerlərə təxirəsalınmadan psixoloqların cəlb edilməsi zəruridir.

Həyata keçirən başçəkmələr zamanı bəzi internat məktəblərində yaşca böyük olan uşaqların kiçik yaşlı uşaqların üzərində nəzarətçi qismində cəlb olunduğu aşkar edilmişdir. Məsələ ilə bağlı internat məktəblərinin direktorları ilə aparılan görüşlər əsnasında onlar gecə dayəsi ştat vahidi sayının olduqca az olması səbəbilə bu kimi problemlərlə üzləşdiklərini qeyd edirlər.

Nazirlər Kabinetinin yuxarıda adı çəkilən qərarlarına əsasən, internat tipli müəssisələrdə hər yataq korpusuna 2 vahid gecə dayəsi ştatı müəyyən edildiyi, 150 nəfərlikdən artıq yataqxanası olan internat məktəblərində tərbiyə olunan hər 150 uşağa 2 vahid gecə dayəsi vəzifəsi müəyyən edilir. Bu say nisbətinin artırılacağı halda uşaq hüquqların təminində mövcud bəzi problemlərin aradan qaldırılacağını hesab edirik.

Milli Preventiv Mexanizm qismində həyata keçirilən monitorinqlər zamanı sağlamlıq imkanları məhdud uşaqların gecələdiyi bəzi yataqxanalarda ixtisaslı kadrların olmaması səbəbilə dərmanların müvafiq bilik və bacarıqları olmayan əməkdaşlar tərəfindən verildiyi müşahidə edilmişdir. Sağlamlıq imkanları məhdud olan uşaqların gecələdiyi müəssisələrdə tibb işçilərinin gecə növbəsində də fəaliyyət göstərməsini, "tibb bacısı" ştat vahidi sayının artırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 yanvar tarixli, 6 nömrəli "Əqli və fiziki inkişafında pozuntular olan uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəblərinin rəhbər işçiləri, inzibati-təsərrüfat, tədris-yardımçı və xidmət işçiləri heyətinin nümunəvi ştatları haqqında" Qərarında müvafiq dəyişikliyin edilməsi məqsədəmüvafiqdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrə keçirilən başçəkmələr zamanı psixiatriya xəstəxanalarında müalicənin farmakoterapiya ilə məhdudlaşdırıldığı, psixo-sosial tədbirlərin müasir standartlara uyğun təşkil olunmadığı, müvafiq jurnalların qanunvericiliyə uyğun tərtib edilmədiyi, xüsusi vasitələrdən və ipdən (bant) istifadə ilə bağlı qeydiyyatın təkmil aparılmadığı, müalicə həkiminin bununla bağlı tibbi əsaslandırılmış qərarlarının olmadığı, mövcud qeydlərdə isə tarixlərin göstərilmədiyi, əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası ilə bağlı müsbət dəyişikliklər olsa da, bəzi müəssisələrin yerləşdiyi binaların əsaslı təmir edilməsinə ehtiyacın olduğu, yararlılıq müddəti bitmiş dərmanların olduğu, bəzi müəssisələrdə isə dərmanların saxlanması üçün xüsusi soyuducuların olmadığı müəyyən edilmişdir. 1 saylı körpələr evinə keçirilən başçəkmələr zamanı uşaqlarla psixoloji işin aparılmadığı, menyunun müasir standartlara cavab vermədiyi, təqdim olunan məhsulların azyaşlıların enerji və qida maddələrinə olan tələbatını ödəmədiyi, Gəncə körpələr evinin 2021-ci ildən əsaslı təmir işlərinin aparılması məqsədilə fəaliyyətinin dayandırıldığı və bu günə qədər təmir işlərinə başlanılmadığı aşkar edilmişdir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 1 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsinə keçirilən başçəkmə zamanı müəssisədə sosial iş və sosial reabilitasiya tədbirlərinin təkmilləşdirilməsinə

ehtiyacın olduğu, müəssisədə sıxlığın olduğu, yaşayış korpusunun bəzi hissələrində əlilliyi olan şəxslərin müstəqil həyat tərzi keçirmələri üçün mövcud maneələrin aradan qaldırılmadığı müəyyən edilmişdir.

## BÖLMƏ 4

## HÜQUQİ MAARİFLƏNDİRMƏ

Hüquqi maarifləndirmə işinin təşkili Müvəkkilin MPM qismində fəaliyyətinin əsas istiqamətlərindən biridir. Hüquq-mühafizə orqanları əməkdaşlarının, QHT-lərinin hüquqi maarifləndirilməsinin, insan hüquqlarının daha səmərəli müdafiəsinə töhfəsini nəzərə alaraq, belə tədbirlərin və görüşlərin mütəmadi keçirilməsi əhəmiyyətlidir.

Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının 4.1-ci bəndinə müvafiq olaraq, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolunun tələblərinin hüquq-mühafizə orqanlarının, digər aidiyyəti qurumların əməkdaşları, habelə vəkillər və hüquq sahəsində ixtisaslaşan qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən öyrənilməsi işi təşkil olunmuş, bununla bağlı hüquq-mühafizə orqanlarının akademiyalarında, o cümlədən Polis və Ədliyyə Akademiyalarında geniş müzakirələr aparılmışdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 74 illiyinə həsr olunmuş "Müasir dövrdə insan hüquqlarının aktual problemləri" adlı beynəlxalq elmi-praktik konfransda iştirak etmişdir.

BMT Baş Məclisi tərəfindən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin əhəmiyyətinə toxunan S.Əliyeva Ombudsman təsisatı olaraq 10 Dekabr – Beynəlxalq İnsan Hüquqları Günü ərəfəsində bu əlamətdar tarixlə əlaqədar tədbirlər və müsabiqələr keçirildiyini bildirmişdir.

Çıxışda Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının, vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi kimi təsbit olunması, ölkəmizdə insan hüquqlarının səmərəli təmini məqsədilə həyata keçirilmiş genişmiqyaslı hüquqi islahatlar nəticəsində milli qanunvericilik bazasının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, yeni dövlət proqramlarının qəbul edilməsi və institusional mexanizmlər sisteminin yenidən qurulması Ombudsman tərəfindən vurğulanmışdır.

S.Əliyeva konfans iştirakçılarına Ombudsman təsisatının çoxşaxəli fəaliyyəti, Milli Məclisdə qəbul edilmiş "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə layihənin əhəmiyyəti və Milli Preventiv Mexanizm fəaliyyətinə dair yeni tələblər haqqında ətraflı məlumat vermişdir.

Konfransda Ombudsman Aparatının və Polis Akademiyasının əməkdaşlarının birgə iştirakı və hüquq üzrə fəlsəfə doktoru S.Əliyevanın ümumi redaktəsi ilə hazırlanmış "İnsan hüquqları fənni üzrə praktikum" adlı tədris-metodiki vəsait iştirakçılara təqdim olunub.

Ombudsman Aparatının əməkdaşları, MPQ üzvləri də konfransda iştirak etmiş, yekunda iştirakçılara sertifikatlar verilmişdir.

Ombudsman Aparatı, Dövlət Miqrasiya Xidməti və Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin ölkəmizdəki nümayəndəliyinin əməkdaşlığı çərçivəsində "Miqrantların hüquqlarının müdafiəsi sahəsində mövcud beynəlxalq və milli hüquqi çərçivə: monitorinq mexanizmləri, tənzimlənməyən miqrantların saxlanılması prosedurları" adlı təlim keçirilmişdir. Dövlət Miqrasiya Xidməti, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətinin əməkdaşları üçün təşkil edilmiş təlim "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi çərçivəsində Dövlət Miqrasiya Xidmətinin Miqrasiya üzrə Regional Təlim Mərkəzində baş tutmuşdur.

Ombudsman Səbinə Əliyeva çıxış edərək ölkəmizdə insan hüquqları sahəsində həyata keçirilən islahatlar, Azərbaycanda İnsan Hüquqları Gününün təsis olunması və Ombudsmanın mandatı barədə məlumat vermişdir. O, 20 illiyi qeyd edilən Ombudsman

təsisatının miqrantların hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti barədə məlumat verərək, bu istiqamətdə beynəlxalq əməkdaşlıq əlaqələrinin, iki və çoxtərəfli münasibətlərin genişləndirildiyini bildirmişdir. Ombudsman həmçinin miqrasiya sahəsində təcrübə mübadiləsinin aparılması və tətbiqi, miqrasiya proseslərinin tənzimlənməsi, qanunsuz miqrasiyanın qarşısının alınması sahəsində bir sıra əhəmiyyətli addımlar atıldığını qeyd etmişdir.

Ombudsman çıxışı zamanı uzun illərdir davam edən səmərəli əməkdaşlığa görə Dövlət Miqrasiya Xidmətinə və Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzə öz təşəkkürünü bildirib. O, həmçinin Avropa İttifaqı və Ombudsman Aparatı arasında əməkdaşlıq çərçivəsində bir sıra layihələrin uğurla icra olunduğunu diqqətə çatdırıb.

Təlimdə Ombudsman Aparatının nümayəndələrinin təqdimatları da maraqla qarşılanmışdır. Ombudsman Aparatının İşgəncələrin qarşısının alınması şöbəsinin müdiri, MPQ-nin üzvü “Ombudsmanın Milli Preventiv Mexanizm qismində mandatı və fəaliyyəti: tənzimlənməyən miqrantların saxlanılması mərkəzlərinə preventiv başçəkmələr” adlı təqdimatla çıxış etmişdir.

Adıçəkilən təlimin ikinci günü Yevlaxda davam etdirilmiş, Yevlax Regional Miqrasiya İdarəsinin və Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin əməkdaşlarının miqrantların hüquqlarının müdafiəsi ilə əlaqədar bilik və bacarıqlarının artırılması məksədilə görüş keçirilmiş, Ombudsmanın miqrantların hüquqlarının müdafiəsi sahəsində, o cümlədən Milli Preventiv Mexanizm mandatı çərçivəsində fəaliyyəti barədə ətraflı məlumat verilmişdir.

Ombudsman Aparatı ilə Daxili İşlər Nazirliyinin Polis Akademiyası arasında insan hüquqlarının təbliği istiqamətində səmərəli əməkdaşlıq əlaqələri davam etdirilmişdir.

Qarşılıqlı əməkdaşlıq çərçivəsində Polis Akademiyasında dinləyicilər, müdavimlər üçün insan hüquqlarının müxtəlif aspektlərinə dair mövzularda, o cümlədən “Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti” mövzusunda mühazirələr oxunur, nəzəri biliklərin təcrübə ilə əlaqələndirilməsi təşkil edilir.

2022-ci ildə Daxili İşlər Nazirliyinin rayon-şəhər polis idarə və şöbələrinin rəhbər heyətinə ünvanlanan mühazirə “Korrupsiyaya qarşı mübarizə və bu sahədə milli və beynəlxalq qanunvericilik aktlarının tələbləri” mövzusunda olmuşdur. Mühazirə iştirakçıları ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər, Ombudsmanın bu istiqamətdə həyata keçirdiyi fəaliyyət barədə MPM rəhbəri və bir üzvü tərəfindən təqdimatlar əsasında ətraflı məlumatlandırılmışlar.

Mühazirədə ölkə Prezidentinin 04.04.2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” barədə məlumat verilib. Qeyd edilib ki, dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə qəbul edilmiş Milli Fəaliyyət Planının icrası istiqamətində digər qurumlarla yanaşı İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatı da fəaliyyət göstərməkdədir.

Mühazirə mövzusuna uyğun olaraq Ombudsman tərəfindən insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən və planlaşdırılan fəaliyyət barədə məlumat verilmiş, dinləyiciləri maraqlandıran çoxsaylı suallar ətraflı cavablandırılmışdır. Tədbir interaktiv müzakirə şəraitində davam etdirilmişdir.

Eləcə də, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının 4.2-ci bəndi əsasında İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokoluna uyğun olaraq milli preventiv mexanizmin funksiyalarının səmərəli yerinə yetirilməsini təmin etmək məqsədilə maarifləndirmə və

digər zəruri tədbirlər, o cümlədən onlayn tədbirlər həyata keçirilmiş, habelə aidiyyəti qurumlara bununla bağlı müraciətlər edilmişdir.

2022-ci ildə də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər və onlarla işləyən xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işi uğurla təşkil edilmişdir.

Ədliyyə Akademiyasında hakimliyə namizədlərə, ədliyyə qulluqçularına və ekspertiza mərkəzinə qəbul olanlara Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti və işgəncələrin qarşısının alınması mövzusu tədris edilmişdir.

## BÖLMƏ 5.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Ombudsman öz fəaliyyətində yerli, regional və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir. Bu baxımdan, İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq işinin təşkili Azərbaycan MPM-nin fəaliyyət istiqamətlərindəndir.

Dövlət və yerli öznüidarəetmə orqanları, vətəndaş cəmiyyəti, kütləvi informasiya vasitələri, regional və beynəlxalq təşkilatlarla, habelə xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılması, birgə tədbirlərin təşkil edilməsi, müxtəlif tədbirlərdə iştirakın təmin edilməsi uğurla davam etdirilmişdir.

2022-ci ildə də Azərbaycan MPM-nin fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır. İl ərzində KİV-də başçəkmələrlə əlaqədar 30, maarifləndirmə və digər tədbirlərlə əlaqədar 18 olmaqla, cəmi 48 mətbuat açıqlaması (press reliz) yayımlanmışdır.

Mətbuat açıqlamaları, həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Ombudsmanın rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına və beynəlxalq təşkilatlara da göndərilmişdir.

*Beynəlxalq əməkdaşlıq*. 2022-ci il ərzində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi, aparılan təcrübə və fikir mübadilələri Azərbaycan MPM-nin fəaliyyətinin effektiv həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Ombudsman MPM qismində BMT və onun müqavilə qurumları, habelə İQK, İQA, İQAK, Avropa Şurası, Avropa İttifaqı, ATƏT, BQXK, İşgəncələrin Qarşısının alınması üzrə Assosiasiya (APT) və digər beynəlxalq təşkilatlarla, müxtəlif ölkələrin MPM-ləri, o cümlədən Ombudsmanlar birlikləri ilə sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır.

Ombudsmanın MPM qismində beynəlxalq əlaqələrinin həyata keçirilməsi istiqamətləri kimi işgəncələrin qarşısının alınması sahəsində müxtəlif görüşlərin təşkili, birgə tədbirlərin həyata keçirilməsi, Ombudsman və MPQ-nin üzvlərinin beynəlxalq tədbirlərdə iştirakı və qarşılıqlı təcrübə mübadilələrini göstərmək olar.

Ombudsman və MPQ-nin üzvləri 2022-ci il ərzində beynəlxalq təşkilatların nümayəndələri, beynəlxalq ekspertlər, xarici həmkarlarla görüşlərdə və bir sıra tədbirlərdə iştirak etmişlər.

Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumu (TİHEK) və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində təcrübə mübadiləsinin səmərəli təşkili istiqamətində fəaliyyət davam etdirilmişdir. Bu məqsədlə TİHEK nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

Səfər çərçivəsində Azərbaycan Ombudsmanının Milli Preventiv Qrupunun üzvləri ilə birlikdə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Bakı şəhər Qanunsuz miqrantların saxlanılması mərkəzinə baxış təşkil edilmişdir.

Nümayəndə heyətinin üzvləri miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi, Dövlət Miqrasiya Xidmətinin fəaliyyət istiqamətləri və Ombudsman təsisatı ilə birgə əməkdaşlıqda həyata keçirilən tədbirlər, o cümlədən Müvəkkil tərəfindən miqrantların dövlətdaxili və beynəxlalq müstəvidə hüquqlarının müdafiəsi, əcnəbilərin öz vətəninə qayıtmaları və digər istiqamətlərdə görülən işlər barədə ətraflı məlumatlandırılıb, Azərbaycan Ombudsmanının Milli Preventiv Mexanizm qismində həyata keçirdiyi fəaliyyətlə yaxından tanış olmuşlar.

Baxış çərçivəsində fikir və təcrübə mübadiləsi aparılmış, qonaqları maraqlandıran suallar ətraflı cavablandırılmışdır.

Səfər çərçivəsində TİHEK və onun Milli Preventiv Qrupunun üzvlərindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Tərbiyə Müəssisəsi və 4 saylı çəzaçəkmə müəssisəsində də olmuş, bu müəssisələrdə yaradılan şəraitlə, saxlanılan şəxslərin hüquqlarının müdafiəsi vəziyyəti ilə tanış olmuşlar.

İki təsisat arasında qarşılıqlı əməkdaşlıq çərçivəsində Ombudsman Səbinə Əliyeva və Ombudsman Aparatının MPQ üzvü olan bir qrup əməkdaşı TİHEK-in dəvəti əsasında Türkiyə Respublikasına rəsmi səfərdə olmuşlar. Ombudsman və nümayəndə heyəti TİHEK nümayəndələri ilə Mardin, Midyat və Diyarbəkir şəhərlərində olmuşlar.

İki qurum arasında 2021-ci ildə imzalanan Anlaşma Memorandumuna əsasən həyata keçirilmiş səfərin məqsədi Azərbaycan Ombudsman təsisatı ilə TİHEK-in MPM qismində fəaliyyətinə dair əldə etdikləri təcrübələrin mübadiləsi, əməkdaşlığın daha da inkişaf etdirilməsidir.

Mardin şəhərinin valisi və Türkiyənin İşgəncələr əleyhinə Milli Preventiv Mexanizm (MPM) qismində fəaliyyət göstərən TİHEK üzvləri ilə görüşən Səbinə Əliyeva iki qardaş ölkə arasında müxtəlif istiqamətlərdə olduğu kimi insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində də mövcud əməkdaşlıq əlaqələrinin davamlı olaraq inkişaf etdirilməsindən məmnunluğunu bildirmişdir. S.Əliyeva Azərbaycan Ombudsman təsisatının insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyəti, BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunun tələbləri əsasında MPM qismində həyata keçirilən başçəkmələr barədə ətraflı məlumat vermişdir.

Eyni zamanda bildirilmişdir ki, Azərbaycanda həyata keçirilmiş məhkəmə hüquq islahatları çərçivəsində qadın və uşaq məhkumlar üçün beynəlxalq standartlara cavab verən yeni müəssisələr inşa edilib, məhkumların faydalı işlə məşğul olmaları üçün istehsalat sahələri təşkil edilib, hər iki müəssisədə məhkumların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə idman sahələri, təhsil və peşə ixtisaslarına yiyələnmələri üçün lazımi infrastruktur yaradılıb.

Səfər çərçivəsində Azərbaycan Ombudsman təsisatının və TİHEK-in əməkdaşları tərəfindən Mardin, Midyat və Diyarbəkirdə yerləşən cəzaçəkmə müəssisələrinə, o cümlədən, uşaq cəzaçəkmə müəssisəsinə birgə başçəkmələr həyata keçirilmiş, məhkumların beynəlxalq sənədlərdə təsbit olunmuş hüquq və azadlıqlarının təmini vəziyyəti monitorinq edilmiş, Türkiyə dövlətinin cəzaların icrası sahəsində beynəlxalq standartlara uyğun islahatlar həyata keçirdiyi müşahidə olunmuşdur.

12-19 dekabr 2022-ci il tarixlərində İQAK-ın ölkəmizə ad-hoc səfəri olmuşdur. Ombudsman İQAK nümayəndələrini qəbul etmişdir. MPQ üzvlərinin də iştirak etdiyi görüşdə müvafiq sahədə görülmüş işlər barədə məlumat verilmiş, məsləhətləşmələr aparılmışdır.

7-9 sentyabr 2022-ci il tarixlərində Polşa Respublikasının paytaxtı Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu tərəfindən "Cəzaçəkmə müəssisələrində gender əsaslı və cinsi zorakılıqla mübarizə sahəsində başçəkmələrin təşkili üzrə nəzarət mexanizmlərinin gücləndirilməsi" mövzusunda regional təlimlər keçirilmişdir. 25 ölkədən 31 nümayəndənin qatıldığı təlimdə Azərbaycandan nümayəndə kimi Ombudsman Aparatının MPQ üzvü olan əməkdaşı iştirak etmişdir.

Təlimlər çərçivəsində gender əsaslı və cinsi zorakılığın qarşısını alınmasına dair monitorinq işinin təşkil olunması ilə bağlı müsbət təcrübələr və bu sahədə başçəkmələrin həyata keçirilməsində yeni mexanizmlərin istifadəsinə dair təqdimatlar iştirakçıların diqqətinə çatdırılmışdır.

Sessiyalar çərçivəsində təşkil olunmuş müzakirələrdə Azərbaycan nümayəndəsi tərəfindən ölkəmizdə Milli Preventiv Mexanizm çərçivəsində həyata keçirilən monitorinq işi ilə bağlı müsbət təcrübələr haqqında məlumat verilmişdir. Həmçinin iştirakçılar üçün Polşa Respublikasının Ombudsman Aparatına təlim səfəri təşkil olunmuş, müvafiq dövr ərzində

qurum tərəfindən başçəkmələrin təşkil olunması və həyata keçirilməsi üzrə təcrübələrlə bağlı məlumatlar təqdim olunmuşdur.

Ombudsman və Aparatın əməkdaşları Fransanın Strasburq şəhərində Avropa İttifaqının dəstəyi və Avropa Şurasının (AŞ) təşkilatçılığı ilə "Şərq tərəfdaşlığı ölkələrində ayrı-seçkilik, nifrət zəminində cinayət qurbanlarının hüquqlarının müdafiəsi üçün məhkəmədənkənar mexanizmlər vasitəsilə ədliyyəyə çıxış imkanlarının (əlçatanlığının) gücləndirilməsi" adlı regional layihə çərçivəsində keçirilən təlimdə iştirak etmişdir. Avropa Şurasının müxtəlif idarə və şöbələrinin rəhbərləri ilə keçirilən görüşlərdə Aparatın MPQ üzvü olan əməkdaşları MPM sahəsində ölkədə aparılan fəaliyyət barədə ətraflı məlumat vermişlər.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının məsul əməkdaşlarından ibarət nümayəndə heyəti beynəlxalq əməkdaşlıq çərçivəsində Danimarka Krallığının paytaxtı Kopenhagen şəhərində səfərdə olmuşlar. Danimarka İnsan Hüquqları İnstitutu ilə təcrübə mübadilə məqsədilə baş tutmuş səfərdə MPQ-nin rəhbəri və iki üzvü də iştirak etmiş, MPM mandatı üzrə Ombudsmanın fəaliyyəti, həyata keçirilən başçəkmələr barədə məlumat verilmişdir.

## BÖLMƏ 6

## TƏKLİF VƏ TÖVSİYƏLƏR

Ötən dövr ərzində Müvəkkilin MPM qismində həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili onun səmərəli olduğunu deməyə əsas verir. Bu ilk növbədə ölkədə aparılan hüquqi islahatların məntiqi nəticəsi və Milli Preventiv Mexanizmin gördüyü işlərin – preventiv başçəkmələrin, hüquqi maarifləndirmə tədbirlərinin genişliyi və effektivliyi ilə müşahidə olunur.

fəaliyyət dövründə bir çox təklif–tövsiyələrin irəli sürülməsi və icrası nəticəsində hüquq-mühafizə, cəzaları icra edən orqanların, digər dövlət qurumlarının insan hüquqlarının mahiyyətinə və təmin olunmasına münasibəti müsbətə doğru dəyişmiş, hüquq düşüncəsi yeni məzmunda formalaşmış, idarəetmənin təkmilləşdirilməsi istiqamətində addımlar atılmışdır.

Müvəkkil bu istiqamətdə də öz fəaliyyətini "Paris prinsiplərinə" uyğun aşağıdakı şəkildə qurur:

- milli qanunvericilik aktlarının və praktikanın dövlətin iştirakçısı olduğu insan hüquqlarına dair beynəlxalq sənədlərə uyğunlaşdırılması və həyata keçirilməsini təşviq edir;
- dövlətin beynəlxalq sənədlərə qoşulmasını və beynəlxalq normaların milli qanunvericiliyə implementasiyasını, eləcə də müvafiq tədbirlərin görülməsini təşviq edir;
- dövlətin beynəlxalq konvensiyalar üzrə həyata keçirdiyi fəaliyyətlə bağlı BMT qurumlarına, regional təsisatlara təqdim etməli olduğu məruzələrin hazırlanmasına yardım göstərir, müstəqillik prinsipinə uyğun olaraq bu hesabat barədə öz rəyini ifadə edir, habelə əlavə hesabatını təqdim edir.

Müvəkkilin 2022-ci ildə MPM qismində həyata keçirdiyi fəaliyyətin nəticələrini əsas götürülərək, saxlanılan şəxslərin hüquqlarının effektiv təmini məqsədilə aşağıdakılar təklif edilir.

### Normativ hüquqi aktlarla bağlı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 iyul tarixli, 172 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaq evlərinin rəhbər işçilərinin, pedaqoji, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi Ştatları" cədvəlinə "sosial işçi" ştat vahidinin əlavə edilməsi ***(Nazirlər Kabineti)*;**
2. Körpələr evlərində və uşaq bağçalarında "uşaq psixoloqu" və "erkən inkişaf üzrə mütəxəssis" ştat vahidlərinin müəyyən edilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli "Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" Qərarında müvafiq dəyişikliklərin edilməsi ***(Nazirlər Kabineti)*;**
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 23 iyun tarixli, 157 nömrəli "İnternat məktəblərinin, internat tipli liseylərin və gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında" Qərarında "psixoloq" və "gecə dayəsi" ştat vahidi sayının artırılması ***(Nazirlər Kabineti)*;**
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 yanvar tarixli, 6 nömrəli "Əqli və fiziki inkişafında pozuntular olan uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəblərinin rəhbər işçiləri, inzibati-təsərrüfat, tədris-yardımçı və xidmət işçiləri heyətinin nümunəvi ştatları haqqında" Qərarında "psixoloq", "tibb bacısı" və "gecə dayəsi" ştat vahidi sayının artırılması və tibbi xidmətin gecə növbəsində də göstərilməsinin təmini məqsədilə müvafiq dəyişikliklərin edilməsi ***(Nazirlər Kabineti)*;**
5. Körpələr evində təqdim olunan məhsulların azyaşlıların enerji və qida maddələrinə olan tələbatını ödəməsi məqsədilə "Təhsil müəssisələrində, xəstəxanalarda

və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli, 103 nömrəli Qərarının 3 nömrəli əlavəsində verilmiş “Körpələr evində, bağça-körpələr evində və uşaq evlərində uşaqlar üçün qida normaları”nın müasir standartlara uyğunlaşdırılması ***(Nazirlər Kabineti).***

6. Ruhi xəstəliklərdən əziyyət çəkən və ya cəza çəkdiyi dövrdə psixi sağlamlıq vəziyyətində ciddi dəyişikliklər baş verən şəxslərin psixiatriya müəssisələrinə yerləşdirilməsi ilə bağlı mexanizmin təkmilləşdirilməsi məqsədlə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 noyabr tarixli, 4-N nömrəli qərarı ilə təsdiq edilmiş “Cəzanın çəkilməsinə mane olan ağır xəstəliklərə düçar olmuş məhkumların tibbi şəhadətləndirilməsi Qaydaları”nın yenidən işlənərək qəbul edilməsi ***(Nazirlər Kabineti)*****;**

7. Məhkumların və istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslərin şəhərlərarası telefon danışığı üçün ödənişin həmin şəxslərin hesabında vəsait olmadığı halda, dövlət büdcəsi hesabına ödənilməsinin təmin edilməsi ***(Nazirlər Kabineti)*****;**

8. Cəzaların icrası qanunvericiliyində və həbs yerlərinin daxili intizam Qaydalarında şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri müəssisələrdəki gəzinti sahəsinin təşkili ilə bağlı tələblərin beynəlxalq standartlara uyğunlaşdırılması ***(Milli Məclis və Nazirlər Kabineti)*****;**

**Daxili İşlər Nazirliyinin müəssisələri üzrə tövsiyələr**

1. MSY-lərdə gəzinti yerlərinin təşkili zamanı beynəlxalq tələblərin nəzərə alınması, mövcud yerlərin standartlara uyğunlaşdırılması;
2. MSY-lərdə müxtəlif kateqoriyadan olan şəxslərin ayrı saxlanılması ilə bağlı milli qanunvericiliyin və beynəlxalq normaların düzgün tətbiqinə nail olunması;
3. Qanunvericiliyə müvafiq şəkildə MSY-də saxlanılan şəxslərin dövlət hesabına maddi-məişət və gigiyenik vasitələrlə təmin olunması işinin yaxşılaşdırılması;
4. Polis əməkdaşları arasında “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanunu və Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarının geniş təbliğinin aparılması;
5. Saxlanılan şəxslərin ilkin təminatlarından olan telefon danışığı hüququnun həyata keçirilməsi üçün bütün MSY-lərdə telefon köşklərinin təşkil edilməsi, işləməyən telefon aparatlarının təmir edilməsi və telefon danışıqları ilə bağlı qeydiyyatın hərtərəfli aparılması işinə nəzarətin gücləndirilməsi;
6. Polis idarə, şöbə, bölmə və MSY-də müvafiq qeydiyyat jurnallarının və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması, sənədləşmə və ilkin tutma prosesinə nəzarətin gücləndirilməsi;
7. MSY-lərdə istifadəyə yararlılıq müddəti keçmiş dərman preparatlarının saxlanılması və istifadəsinin qarşısının alınmasına yönəlmiş tədbirlərin gücləndirilməsi və müntəzəm monitorinqinin aparılması;
8. MSY-də saxlanma şəraitinin yaxşılaşdırılması işlərinin davam etdirilməsi.

**Ədliyyə Nazirliyinin müəssisələri üzrə tövsiyələr**

1. Penitensiar Xidmətin istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində davam edən sıxlıq probleminin aradan qaldırılması istiqamətində tədbirlərin gücləndirilməsi;
2. İnşası davam etdirilən penitensiar müəssisələrin tikintisinin sürətləndirilməsi, təmirə ehtiyacı olan yerlərdə müvafiq tədbirlərin görülməsi;

3. Məhkumlar tərəfindən rejim pozuntusu hallarının azaldılması, habelə gələcəkdə belə şəxslərin cəmiyyətə reinteqrasiyasının uğurla gerçəkləşdirilməsi üçün kompleks tədbirlər həyata keçirməklə islah prosesinin təkmilləşdirilməsi;

4. İslah işləri çərçivəsində beynəlxalq təcübəyə əsaslanmaqla qanunvericiliyin verdiyi imkanlardan istifadə edərək, rejim pozuntularına görə cərimə təcridxanasına keçirilmə əvəzinə digər, ciddiliyinə görə daha yumşaq inzibati tənbeh tədbirlərinin (xəbərdarlıq, töhmət) seçilməsi;

5. Qida qəbulundan imtina etməklə bağlı müraciətlərin penitensiar müəssisələrin rəhbərliyi tərəfindən dərhal qeydiyyata alınması, aclıq edən şəxslərə gündəlik həkim nəzarətinin gücləndirilməsi və bu sahədə vahid qeydiyyat sisteminin yaradılması;

6. “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, penitensiar müəssisələrdə saxlanılan və psixi sağlamlığına potensial təhlükə yarana biləcək şəxslərə keyfiyyətli və adekvat yardımın göstərilməsi işinin təşkili;

7. Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah olunması, şəxsiyyətinin inkişafı və azad olunduqdan sonra cəmiyyətə adaptasiyası məqsədilə “Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah edilməsi və cəmiyyətə adaptasiyası” üzrə proqramın qəbul edilməsi;

8. Saxlanma şəraitinin yaxşılaşdırılması baxımından Penitensiar Xidmətin Həbsxanasının, 2 və 3 saylı istintaq təcridxanalarının yeni yerlərə köçürülməsi işinin sürətləndirilməsi;

### Səhiyyə Nazirliyinin müəssisələri üzrə tövsiyələr

1. Psixiatriya müəssisələrində müalicə alan şəxslərin vaxtında terapiyaya cəlb olunmaları üçün kadr çatışmazlığının aradan qaldırılması;

2. Nazirliyin tabeliyindəki müəssisələrdə istifadəyə yararlılıq müddəti keçmiş dərman preparatlarının saxlanılması və istifadəsinin qarşısının alınmasına yönəlmiş tədbirlərin gücləndirilməsi, xüsusi saxlanma rejimi tələb edən dərman preparatlarının yararlılıq müddəti boyunca keyfiyyətini saxlaması üçün müvafiq şəraitin yaradılması;

3. Psixiatriya müəssisələrində müalicənin farmako-terapiya ilə məhdudlaşdırılmaması, psixo-sosial reabilitasiya tədbirlərinin müasir standartlara uyğun təşkil olunması, pasiyentlərin müalicə planlarının tərtibatında iştirakının dəstəklənməsi, xüsusi istehsalat sahələrinin yaradılması, hər bir pasiyent üçün müalicə məqsədlərinin, terapiya üsullarının və müalicəyə cavabdeh olan əməkdaşların adlarının əks olunduğu fərdi müalicə planının tərtib olunması;

4. Psixiatriya müəssisələrində sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi.

### Elm və Təhsil Nazirliyinin müəssisələri üzrə tövsiyələr

1. Penitensiar müəssisələrdə psixoloji yardımla bağlı işin təkmilləşdirilməsi və məhkumlarla işləmək bacarığına malik peşəkar psixoloqlara olan ehtiyacın təmin edilməsi məqsədilə psixologiya ixtisası üzrə mütəxəssis hazırlayan ali təhsil müəssisələrində “penitensiar psixoloq” ixtisası üzrə mütəxəssislərin hazırlanması;

2. Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərində çalışan müvafiq mütəxəssislərin təkmilləşdirilməsi məqsədilə loqopediyaya aid effektiv seminarların təşkili və bu şəxslərin orada iştirakının təmin edilməsi;

3. Nazirliyin tabeliyindəki müəssisələrdə çalışan psixoloqların mütəmadi olaraq təlimlərdə və ixtisasartırma proqramlarında iştirakının təmin edilməsi;

4. Xüsusi ehtiyacları olan uşaqların istifadəsi üçün Brayl əlifbası ilə çap olunmuş dərslik probleminin aradan qaldırılması, çap prosesinin sürətləndirilməsi və ənənəvi dərsliklərlə eyni vaxtda hazır olaraq uşaqlara paylanılmasının təşkil edilməsi;

5. Bəzi məktəblərdə “transkripsiyaların” mövcud olmamasına görə ingilis dili fənninin təşkilindəki problemlərin aradan qaldırılması;

6. Nazirliyin tabeliyindəki müəssisələrdə, xüsusilə uşaqların gecələdiyi məktəblərdə istiliklə təchizatının təqvimə görə deyil, havaların temperaturuna uyğun olaraq təmin edilməsi;

7. Müəssisələrin ixtisaslı həkim statı ilə və zəruri tibbi yardım ləvazimatları, dərman preparatları ilə təmin edilməsi işinə nəzarətin gücləndirilməsi;

**Əmək və Əhalinin Sosial Müdafiəsi Naziriyinin müəssisələri üzrə tövsiyələr**

1. Psixiatriya xəstəxanalarında və Narkoloji dispanserlərdə (mərkəzdə) müalicə olunan, müalicə müddəti bitmiş, lakin yaşayış yeri olmayan pasiyentlərin sosial xidmət müəssisələrinə köçürülməsi üzrə mexanizmin hazırlanması, eyni zamanda sosial xidmət müəssisələrində limitin (yaşayış yerlərinin) artırılması;

2. Penitensiar müəssisələlərdən azad edilmiş şəxslərin reabilitasiyası və sosial adaptasiyası sahəsində kompleks proqramların həyata keçirilməsi, sosial xidmətlərin inkişaf etdirilməsi;

3. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün sosial adaptasiya və reabilitasiya tipli müəssisələrin respublikanın region və bölgələrində geniş şəkildə yaradılması.

## STATİSTİK GÖSTƏRİCİLƏR

*Əlavə 1*

***Diaqram 1. 2022-ci ildə həyata keçirilən başçəkmələrin müəssisələr üzrə bölgüsü***




***Diaqram 2. MPM-in 2022-ci ildə həyata keçirdiyi başçəkmələrin sayı***



***Diaqram 3. MPM qismində həyata keçirilən başçəkmələrin illər üzrə sayı***




***Diaqram 4. MPM-in mətbuat açıqlamalarının sayı (illər üzrə)***



## İŞGƏNCƏLƏRƏ VƏ DİGƏR QƏDDAR, QEYRİ-İNSANİ YAXUD LƏYAQƏTİ ALÇALDAN RƏFTAR VƏ CƏZA NÖVLƏRİNƏ QARŞI KONVENSİYANIN

## FAKÜLTATİV PROTOKOLU

### Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəf-tarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

# I HİSSƏ

## ÜMUMİ PRİNSİPLƏR

***Maddə 1***

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

***Maddə 2***

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

***Maddə 3***

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

***Maddə 4***

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

***Maddə 5***

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

***Maddə 6***

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

***Maddə 7***

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və

səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

***Maddə 8***

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiyyətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

***Maddə 9***

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

***Maddə 10***

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

## III HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏNİN MANDATI

***Maddə 11***

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurət olduqda, beləmexanizmlərin yaradılmasında iştirakçı dövlətlərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

***Maddə 12***

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

***Maddə 13***

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşısının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

***Maddə 14***

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

***Maddə 15***

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

***Maddə 16***

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV HİSSƏ

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

***Maddə 17***

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

***Maddə 18***

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

***Maddə 19***

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

***Maddə 20***

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

***Maddə 21***

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

***Maddə 22***

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün tədbirlərlə bağlı dialoq aparır.

***Maddə 23*** Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V HİSSƏ

## BƏYANAT

***Maddə 24***

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI HİSSƏ

## MALİYYƏ MÜDDƏALARI

***Maddə 25***

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

*Maddə 26*

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII HİSSƏ

## YEKUN MÜDDƏALAR

*Maddə 27*

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

*Maddə 28*

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

*Maddə 29*

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

*Maddə 30*

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

*Maddə 31*

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

***Maddə 32***

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüququna toxunmur.

***Maddə 33***

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

***Maddə 34***

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə göndərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş olduqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

***Maddə 35***

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

***Maddə 36***

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

***Maddə 37***

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.